გონების ბოდვა

დეიზმი

Ağılın sərsəmliyi

DEİZM

TBİLİSİ-2021

წიგნი დაბეჭდილია სსიპ სრულიად საქართველოს მუსლიმთა სამმართველოს სამეცნიერო საბჭოს ინიციატივით და რეკომენდაციით.

Bu kitab Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan müftiliyinin Elmi Şurasının təşəbbüsü və məsləhəti ilə nəşr olunub.

Kitabın orijinal adı:
Aklın Cinneti Deizm

Müəllif:
Osman Nuri Topbaş

Nəşrə hazırlayan:
t.f.d Abbas Qurbanov
Hacı Bəkiroğlu

Anadolu türkcəsindən
Azərbaycan türkcəsinə uyğunlaşdıran:
Nurlan Məmmədzadə

Redaktor:
Əziz Sultanov

İç dizayn:
M. Ali Eşmeli - Asım Küçükaşçı
Nicat Qəribov - Elsevər Əhmədov

Qapaq dizaynı:
Yüzakı Grafik / Abdullah Küçükaşçı

Bu kitabın ilk nəşri YÜZAKI nəşriyyatı tərəfindən həyata keçirilmişdir.

სსიპ სრულიად საქართველოს მუსლიმთა სამმართველო მადლობას უხდის საქართველოს ახალგაზრდობის დახმარების და საგანმანათლებლო საზოგადოებას წიგნის გამოცემის ნებართვისათვის.

Bu kitabın nəşrinə icazə verdiyinə görə Bütün Gürcüstan Müsəlmanları İdarəsi Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə təşkilatına təşəkkür edir.





Esma Oniani st, Tbilisi Georgia, #23
Tel: (+995) 32 253 16 30
Mob: (+995) 577 62 30 31
ID: 401960794, Postal Code: 0159
E-mail: info.amag77@gmail.com

Ağılın sərsəmliyi

DEİZM



Osman Nuri TOPBAŞ

ოსმან ნური თოფბაში



TƏQLİD VƏ HƏQİQƏT QARŞISINDA

Məşhur bir rəssam Allah-Təalanın xəlq etdiyi bu aləmdən bəzi mənzərələri rəsm tablosunda əks etdirər. Onu seyr etmək üçün sərgilər açılar, insanlar həmin əsəri görmək üçün rəsm qalereyalarına axın edər, bu kimi tablolara böyük məbləğdə sərvət ödəyərlər. Rəssamı "böyük sənətkar" kimi qələmə verərlər.

Halbuki əsl sənətkar rəssamı da yaradan, onun bu rəsmləri çəkərkən baxdığı həqiqi mənzərələri də yaradan Allahın ilahi əzəmət və qüdrəti idi. Əsl sənətkar insanı və Allah Rəsulunu yaradan uca Xaliqimizdir.

Bu etibarla,

Arif könüllər qüdrət və əzəmət fırçasının əsəri olan və günün hər saniyəsində üfüqdən-üfüqə dəyişən əzəmətli tablolara heyranlığını gizlətmədən nəzər salarlar.

Lakin bu möhtəşəm sənət və əzəmət qarşısında kor olan qafillər aciz, fani və təqlidçi rəssamın qarşısında boş yerə heyrətə qapılarlar.

Gözümüzü və könlümüzü açaraq baxmalıyıq:

Rənglərin şəfəq və qürub əsnasındakı ahəngdar rəqsləri... Qapqara torpaqdan çıxan minlərlə rəng... Al-əlvan bənövşələr, zanbaqlar və qızılgüllər...

Dənizlər, çaylar, dağlar və vadilər... Bir sözlə, insan özünə və kainata eşq və məhəbbətlə nəzər salsa, ilahi əzəmət və xariqələr qarşısında heyrətə qapılmaması imkansızdır.

Necip Fazıl qəflət içində ömür sürənlərə belə səslənir:

Yön-yön sarılmışam, nə yana baxsam,
Sarılan olur da, saran olmazmı?
Kim bu üzü çəkən sənətkar rəssam,
Keçib də aynaya soran olmazmı?

Bu irfan ilə

Əqli-səlim sahibi olan Haqq dostları rəssamın sırf adını davam etdirmək üçün ərsəyə gətirdiyi tabloların yerinə əsl sənətkar və Onun əsəri qarşısında heyrət və həyəcana qapılan qəlblə yaşayarlar. İlahi qüdrətin təbiətdə var etdiyi sonsuz xariqələrdəki ilahi sənətdən zövq alarlar. Sərmayəsi eyni torpaq olan bitkilərin rəngarəng yarpaq və çiçəklərinə, ağacların rəng, qoxu, ləzzət və formasına görə bir-birindən fərqlənən meyvələrinə, bir-iki həftəlik ömrü olduğu halda kəpənəyin qanadlarındakı müstəsna naxışlara, insan yaradılışındakı xariqələrə nəzər salar və gözün görməsi, beyinin dərk etməsi kimi sonsuz ilahi həqiqətlər və bunların "hal dili" adlanan sirli bəyanlarına diqqət kəsilər, qulaq verərlər.

Bu insanların nəzərində bütün kainat artıq oxunmağa hazır kitaba bənzəyər. Rəbbimizin bəşəriyyətə ilk təlimatı:

اِقْرَاْ بِاسْمِ رَبِّكَ الَّذِى خَلَقَ

"Yoxdan yaradan Rəbbinin adı ilə (əvvəlcə bu ilahi kəlamı, sonra kainat kitabını, sonra da bütün məxluqatı və səndəki ilahi sənəti) **oxu!".** (əl-Aləq, 1)

Bir Allah dostu belə deyir:

"Əslində Allah-Təala qaib deyil. Lakin bizim bəşəri istedad və idrakımız baxımından zühurunun şiddətindən qaibdir".

Haqq-Təala hər şeydə zühur edən ilahi əzəmət və qüdrət təcəlliləri-nin sahibi və sənətkarıdır. Bu həqiqəti təfəkkürdə dərinləşən arif və kamil könüllər ən gözəl şəkildə idrak edər.



ÖN SÖZ

Allah-Təalaya sonsuz həmd-sənalar olsun!

Həzrət Peyğəmbərə sonsuz salətu-salam olsun!

Allahın insana verdiyi çox böyük bir nemət var: Ağıl.

Allah-Təala xeyri və şəri bir-birindən ayırd edə bilməyimiz üçün bizə ağıl vermişdir. İnsanın dinən məsul tutulması da buna bağlıdır. Əgər hər hansı bir adam bu nemətdən məhrumdursa, dini məsuliyyətdən də azaddır. Yəni ağlında və şüurunda nöqsan olanlar məsuliyyətdən uzaqdırlar.

Lakin ağlından şikayəti olmayan birinin məsuliyyətsiz həyat sürməsi Hz. Adəmdən bəri aldadıcı həvəslərdən biridir. Elə bir həvəs ki, hər iki dünyanı zindana çevirən nəfsani əsarətdir. Elə bir əsarət ki, hürriyyət laqqırtıları içində min bir ehtiras və istəklə şeytanlara köləlikdən ibarətdir.

Halbuki ağıl bu qorxunc əsarət və köləliyə məntiq yürütmək üçün bəxş edilməmişdir. Əksinə, bu tələlərə düşməmək üçün insana verilmiş ilahi tərəzi və xeyirlə şəri bir-birindən ayırd edici şüur mərkəzidir.

Belə olmadığı təqdirdə insan qəflətdən qəflətə sürüklənər. Öz silahı ilə özünü vuran sərsəmə çevrilər.

Ona görə ağılın ifrat və təfritə düşmədən; etidal, müvazinət üzrə olması şərtdir.

Bu da yalnız bizi yoxdan var edən qüdrətin qoymuş olduğu ölçü olan Qurani-Kərim və Hz. Peyğəmbərlə mümkündür. Quran və Sünnə, yəni İslamla mümkündür.

Ağıl alətdir. İki ucu da kəskin bıçaq kimidir, xeyrə də, şərə də vasitə ola bilər.

Ağılı şərə alət edərək Yaradana ilk dəfə baş qaldıran şeytan oldu. İlahi hüzurdan qovuldu, insanları azdırmağı özünə vəzifə bildi. Halbuki qısqanclıq xəstəliyinə tutulmuş, həsəddən başı dönərək Allahın Həzrət Adəmə verdiyi dəyərə etiraz etməyə qalxmışdı.

Təhlil edək:

Ağıl onu bu axmaqlığa düşməkdən qurtara bilmədi. Əksinə, məntiq yürüdərək xətasına don geydirməsinə yardım etdi. Alovun torpaqdan üstün olduğunu irəli sürərək əsassız ağıl yürütməsinə və üsyana düşməsinə səbəb oldu. Nəticədə istiqamətdən uzaqlaşdı və lənətə düçar oldu.

Ağıl sahibi olan bizlər də eyni təhlükə ilə üz-üzəyik.

Ona görə də Rəbbimiz bizə ağlımızı xeyir istiqamətində tutacaq və şərdən qoruyacaq sağlam bir ölçü bəxş etdi:

Quran və Sünnə, yəni **İslam.**

Çünki bunun xaricindəki bütün düşüncələr, fikir, cərəyan və anyalışlar batildir. Şeytanın əbədi cəhənnəmə sürüklələyən addımlarını təqib etməkdir. Bu da sonsuz xüsrana və axirət pərişanlığına aparıb çıxarır.

Elə isə o pərişanlığa düşmədən əvvəl, yəni həlak olmadan əvvəl ilahi həqiqətləri dərk etmək zəruridir. Əks təqdirdə sonsuz qəzəb və əzabın pəncəsində oyanmaq insana heç bir fayda və qurtuluş gətirməz. Bu, sadəcə dözülməz iztirabları və acı fəryadları artırar.

Bu da onu göstərir ki, dünya həyatında "Nə olacaq, mən belə fikirləşirəm, kimə nə?" kimi bəsit və məntiqsiz bəhanələrlə İslamdan uzaq cərəyanlara qapılmaq sanıldığı kimi asan yoldan zövq-səfa sürmək deyil, əksinə, məhşərdə dözülməz fəlakət və bəladan ibarətdir.

Buna baxmayaraq, təəssüf ki, şeytan və tərəfdarları bunları bərbəzəkli göstərir. Yoxsa kim çəkə bilməyəcəyi bəlanı satın alar? Əlbəttə ki, heç kim. Elə isə şeytan və pisliklər əsla müştəri tapa bilməyəcəyi üçün üsyan və inkar gücləri daima cazibələrin arxasına sığınaraq işlərini görərlər. Ən rəzil şeyləri belə eynilə gəlin bəzəyirmiş kimi elə bərbəzəkli təqdim edərlər ki, insan onlardan daha gözəl bir şey olmadığını zənn edər.

Bu gün get-gedə bəşəriyyətə aşılanmağa başlanan ateizm və deizm də məhz bu metodla servis edilməkdədir.

Bəs ateizm və deizm nədir?

Ağılın sərsəmliyi.

İnsanın çox qiymətli olan təfəkkür dünyasını nəfsin istək və həvəslərinə kirayə verməsidir. Qəflət okeanında haradan gəlib-haraya gedəcəyini bilməyən, kompasını itirmiş gəmi kimi yaşamaqdır. Təbii ki, bu cür həyat sürən insanın bəsirət və fərasəti korlaşar, idrakı ölər. Çünki qəlbi yolunu azmışdır.

İlahi əzəmət və qüdrət axışlarından, ilahi naxışlardan heç bir nəsib ala bilməz. Qəlb gözü kor olmuşdur. Bir növ nəfsinin uzaqdan idarə olunan robotuna çevrilmişdir.

Bu səbəblə də insan ən qiymətli sərmayəsi olan ömrünü modaların, markaların, keçici sevdaların ardınca gedərək tükədər. Qəlbi bəşəri sistemlərin tələtümündə viran qalar. Həyatın və ölümün hikmətindən qafil yaşayar. Axirət xəbərini əsla düşünməz. Bir növ ağıl tutulması yaşayar.

Bu gün müşahidə etdiyimiz bu kimi azğınlıqların və yoldan çıxmanın təməlində üç səbəb saya bilərik:

BİRİNCİ SƏBƏB

Dindən uzaqlaşma və bunun acı nəticəsi olaraq **cahiliyyə anlayışı**nın insanlığı yenidən əsir alması, hətta elm əhlini belə öz məngənəsinə salmasıdır.

Ateizm və deizmə baxdığımız zaman bu kimi batil düşüncələrin cahiliyyə dövründə də olduğunu müşahidə edirik. Çünki cahiliyyə insanı da ölümdən sonrakı həyat və axirət haqqında nazil olan Quran ayələrindən və nəfsi istəklərinə müxalif bəyanlarından narahat oldu. Hz. Peyğəmbərdən (s.ə.s) bu dini xoşlarına gələcək şəkildə dəyişməsini istədilər. Allah Rəsulunun yanına gələrək belə dedilər:

- Bizə elə bir Quran gətir ki, içində yenidən dirilmə olmasın. Yaxud da ondakı yenidən dirilmə (axirət, hesab) ayələrini dəyiş.

- Bizə elə bir Quran gətir ki, içində **Lat** və **Uzza**ya ibadəti tərk etməmiz əmr olunmasın. Əgər Allah sənə belə bir Quran endirmirsə, sən belə bir Quran söylə və ya Allahdan sənə gələni bu şəkildə dəyişdir, əzab ayəsinin yerinə rəhmət ayəsi qoy, haramın yerinə halalı, halalın yerinə haramı qoy. (Vahidi, s. 270; Alusi, XI, 85)

Yəni nəfslərinə ağır gəldiyi üçün insan kimi yaşamağı rədd etdilər. Güclünün hər zaman haqlı olduğunu zənn edən bu bədbəxtlər haqq və hüquqa riayəti əmr edən dini qəbul etmədilər.

Allah-Təala onlar haqda belə buyurdu:

"Ayələrimiz açıq-aydın oxunduğu zaman (qiyamət günü haqq–hesab üçün) **Bizimlə qarşılaşacaqlarına ümid etməyənlər:**

"Bundan ayrı bir Quran gətir və ya onu dəyişdir!" – deyərlər.

Onlara de:

"Mən onu özbaşına (istədiyim kimi) **dəyişə bilmərəm. Mən ancaq mənə gələn vəhyə tabe oluram. Əgər Rəbbimə asi olsam,** (müsibəti) **böyük günün** (qiyamət gününün) **əzabından qorxuram".** (Yunus, 15)

Məhz bugünkü **deizm** də insanları həmin istiqamətə sürükləyir. Deyirlər ki: "Allah-Təala bu kainatı yaradıb, haşa, sonra bir kənara çəkilib". Bu fikrə görə, O, heç nəyə qarışmır. Yəni bir növ, heyvanları yaradıb başıboş buraxdığı kimi insanı da yaradıb başıboş buraxmışdır. Lakin əsla elə deyil!

Çünki heyvanların yaradılışında da müəyyən bir qayə var. Hansı biri yaradılış qayəsindən kənardadır və ya başıboşdur? Heç biri. Məsələn:

Arı bal hazırlayaraq, toyuq yumurtlayaraq, inək süd verərək qida istehsal edir. At yük daşıyır. Qarışqalar nizam-intizam içində işləməyin ən gözəl nümunəsidir. Saysız misallar vermək mümkündür.

Müxtəlif növ quşlar ilahi sənət xariqələrini tamaşa etdirir. Sərçədən tutmuş filə qədər, milçəkdən balinaya qədər min bir çeşid məxluqat insanı ilahi qüdrət qarşısında heyran

qoyur. Hətta ilan və əqrəb kimi sürünən varlıqlar belə insanı irşad edəcək vəzifə ilə yaradılıblar. İnsana əzabın nə qədər qorxunc olduğunu xatırladır.

Ayeyi-kərimədə belə buyurulur:

"Göylərdə və yerdə nə varsa, hamısını öz tərəfindən sizin ixtiyarınıza qoyan da Odur. Həqiqətən, bunda düşünən bir qövm üçün ibrətlər vardır!". (əl-Casiyə, 13)

Bu həqiqət başqa bir ayədə belə bəyan edilir:

"(Ey İnsanlar!) **Məgər Allahın göylərdə və yerdə olanları** (günəşi, ayı, ulduzları və buludları; meyvələri, bitkiləri, dənizləri, çayları və gölləri) **sizə ram etdiyini** (sizin istifadənizə verdiyini)**, aşkar** (görmə, eşitmə, sağlamlıq) **və gizli** (əql, şüur, fəhm, elm və i.a.) **nemətləri sizə bolluca ehsan etdiyini görmürsünüzmü?..".** (Loğman, 20)

Ayeyi-kərimənin davamında belə buyurulur:

"İnsanlar içərisində eləsi də vardır ki, nə bir elmi, nə bir doğru yol göstərən rəhbəri, nə də bir nurani (ilahi) **kitabı olmadan Allah barəsində mübahisə edər".** (Loğman, 20)

Düşünmək lazımdır ki, heyvanlar belə bir qayə ilə yaradılmışsa və buna bağlı olaraq da yaşadılırsa, ən gözəl surətdə var edilən insan başıboş, qayəsiz və məqsədsiz yaşamaq üçünmü xəlq edilib?

Ayeyi-kərimələrdə bunun cavabı açıq-aydın verilir:

"Yoxsa sizi əbəs yerə yaratdığımızı və (qiyamət günü dirilib haqq-hesab üçün) **hüzurumuza qaytarılmayacağınızı güman edirdiniz?"** (əl-Muminun, 115)

"Qeybin açarları (Allahın) **yanındadır. Onları ancaq O** (Allah) **bilir.** (Allah) **suda və quruda nə varsa bi-**

lir. Yerə düşən elə bir yarpaq yoxdur ki, (Allah) **onu bilməsin. Yerin zülmətləri içində elə bir toxum,** (kainatda) **yaş-quru elə bir şey yoxdur ki, açıq-aydın kitabda** (lövhi-məhfuzda) **olmasın!".** (əl-Ənam, 59)

Yəni ən kiçikdən böyüyə qədər yaradılmış olan hər şey ibrət lövhəsi və sənət xariqəsidir...

Elə isə,

Əsərdən müəssirə, sənətdən sənətkara, səbəblərdən səbəbkara yol tapmamaq **ağılın sərsəmliyi** deyilmi?

Zərrədən kürrəyə, mikro aləmdən makro aləmə ağıl və idrakı ən gözəl şəkildə irşad edən saysız-hesabsız uca həqiqətlər və ilahi mənzərələr qarşısında duyğusuz və nadan qalmaq **ağılın dəliliyi** deyilmi?

İlahi vəhydən və nəcib duyğulardan uzaqlaşaraq robotlaşan beyinlər insanlıq heysiyyətini heçə sayaraq onu öldürmüş olmurlarmı?

İnsanın öz daxilində və üfüqlərdə, bütün aləmlərdə fasiləsiz olaraq tamaşa edilən bu fövqəladə mükəmməl nizamı səbəbsiz, qayəsiz, məqsədsiz və adi sayan adam **ağlı ilə qürrələnərək könlünü viran edən zavallı** deyilmi?

Səlim ağıl ilə düşünsək, hər şeydə ilahi təfəkkürə aparan min bir yol olduğunu görərik. Hər hansı bir gerçəyin hansısa bir nöqtəsinə düzgün nəzər salsaq, bizim üçün möhtəşəm bir həqiqətin təfəkkür aləmi olduğunu görərik. Bu kimi saysız misallardan birinə nəzər salaq:

1915-ci ildə dünya əhalisi 1,5 milyard idi. İndi isə 7 milyarddır. Dünya əhalisi dəfələrlə çoxalmasına baxmayaraq yer kürəsi onların ruzisini yetişdirməkdən aciz qalmadı. İnsan sayı artdıqca ilahi süfrələr də çoxaldı. Dünyadakı qafil insanların hissiyyatsızlığı və istilası üzündən aclıqdan əziyyət çəkənlərin olması isə başqa bir gerçəyin, yəni mərhəmətsiz-

liyin acı tablosudur. Əks təqdirdə, yəni insanlıq hissiyyatdan məhrum qalmayıb istismardan uzaq dursaydı, yer üzündə aclıqdan əsər-əlamət qalmazdı. Xüsusilə israf və lüks ortadan qalxarsa, mövcud nemətlər insanlığa kifayət edər də, artar da. Xülasə, dünya elə bir ilahi nizama tabedir ki, üzərində yaşayan insanların sayı nə qədər artsa da, hər kəsə çatacaq qədər ruzi sərgiləməkdədir. Bu gerçəyi görmədən gərəksiz yerə təlaşa düşmək qəflət və cəhalətdən başqa bir şey deyil.

Çünki bu qəflət və cəhalət bundan 15 əsr əvvəl də, yəni insanların sayı bəlkə də heç 1 milyard olmadığı vaxtlarda belə "bu qədər insanı dünya bəsləyə bilməz, sayı azaltmaq, yeni doğulanları öldürmək lazımdır" kimi lüzumsuz aldanış və axmaq düşüncələrə səbəb olurdu.

Lakin məsələnin əsası ondan ibarətdir ki, istənilən şərtlərdə bəşəriyyətə lazım olan maddi və mənəvi ruziləri təqdir edən sonsuz və yeganə Qüdrət dünya əhalisinin sayı nə qədər olursa olsun, daima bir o qədər süfrə açaraq heç kimi ac qoymamışdır.

Sadəcə bu həqiqət belə, görə bilənlər üçün ilahi qüdrətin möhtəşəm təzahürlərindən biridir.

Bütün çağlar şahiddir ki,

İnsan iməkləyə-iməkləyə elmə can atır. Hər dövrdə insana verilən əski və yeni məlumatlar əslində daima ilahi əzəmət və qüdrəti yada salmaq üçün Allahın bizə rəhməti, ehsanı və ikramıdır.

Bunu dərk edərək kainat kitabının hikmət və həqiqət yüklü sətirlərini layiqincə oxuyan, anlayan və dərin təfəkkür dəryasına dalanlar necə də bəxtəvərdirlər.

İKİNCİ SƏBƏB

İnsanları **deizm**ə sürükləyən **ikinci səbəb** bugünkü xristianlığın pərişan vəziyyətidir.

Tarixə məlum olduğu kimi,

Pavel və Yehova şahidləri tərəfindən xristianlığın içi boşaldıldı.

- Dinin etiqad doktrini din xadimlərinin iştirak etdiyi məclislər tərəfindən təyin edildi.

- Namaz ayinə, sünnət vaftizə, oruc pəhrizə çevrilərək ibadət həyatı ortadan qalxdı.

- Kilsəyə pul qarşılığında günahları bağışlama səlahiyyəti verildi. Halbuki bir insan özü kimi başqa birinin günahını necə bağışlaya bilər?

- "Sezarın haqqı Sezara" demək surəti ilə dinin dünya həyatına dair qayda-qanunları silindi. Din məbədə həbs edildi. Halbuki dövlət rəhbəri ibadət və cəza xüsusunda yeganə səlahiyyəti özündə necə tapa bilər?

- Fanatik xristianlıq elmi həqiqətlərə təəssüblə yanaşdı. Elm adamlarını inkvizisiya məhkəmələrində sürüngürdü. Qalileyin məhkəmədə yaşadıqları hər kəsə məlumdur.

Məhz bu cür xristianlıq təəssübkeşliyi nəticəsində elm və inancın bir-birinin ziddi olduğu qənaətinə gəlindi. Bunun da təbii nəticəsi kimi "Elm tərəfdarısansa, inancdan uzaq olmalısan", - kimi təlqinlər vüsət tapdı.

Lakin bu düşüncə hər nə qədər pozulmuş və təhrif olunmuş dinə qarşı haqlı olsa da doğru inanca qarşı yönəldilməsi haqsız fikirdir. Çünki insan həqiqi elmə sahib olduqca xürafələrdən uzaqlaşar, haqq dinə daha da ehtiram göstərər və yaxın olar.

Yəni dinin batil olanına qarşı çıxmaq yerinə, haqq olanına da qarşı çıxmaq eynilə insanın qidalanmada zəhərli və zərərli maddələrdən uzaqlaşmaqdansa, şəfa və dərman olsa belə tamamilə qidadan uzaq durması kimidir. Bu da açıq-aşkar intihar deməkdir. Çünki bədənin yaşaması üçün maddi ruzi şərt olduğu kimi haqq din də zəruri mənəvi qidadır və ruhun yaşaması üçün mütləq surətdə qəbul edilməlidir. Bir sözlə, zəhərli və zərərli olan şeyi tərk etmək yerinə "Mən bu ehtiyacın özünü də tərk edəcəyəm" demək, həqiqətən axmaq bir addımdır.

Lakin məsələnin belə olduğunu bərbəzəkli pərdələr arxasında gizlədib hər hansı bir adamın elmlə məşğul olduğu üçün inancdan və dindən uzaq qalmasının vacib olduğunu çini boşqablarda ağıllara servis edən saxtakar fəlsəfə, təəssüf ki, oxumuş insanlardan bəzilərini də tələyə salaraq onları dinsizləşdirmişdir.

Halbuki mütəfəkkirlərdən birinin dediyi kimi:

"Elmlə din bir-birindən ayrıldığı təqdirdə (elmsiz) din insanları geriqalmışlığa, (dinsiz) elm isə ateizmə sürükləyər".

Xristianlıq tarixdə bu yanlışa düşdüyü üçün pozuldu. Əvvəlcə insanların nəfsinə xoş gələn sistemə çevrildiyi üçün bu təhlükəli pozulmadan heç kim narahat olmadı. Bu zaman Allah-Təala İslamı göndərdi və ondan əvvəlki bütün dinləri, eləcə də təhrifə məruz qalan xristianlığı ləğv etdi.

Allah qatında qəbul görməyən xristianlıq bu gün quru addan başqa bir şey deyil. Mənsublarına heç bir mənəviyyat və vicdan hüzuru verə bilməyən quru ad...

Əslində özləri də bu acınacaqlı vəziyyətdən xəbərdardırlar. Lakin bundan qurtulmaq yerinə son haqq din olan İslamı da öz dinlərinə çevirərək vicdan rahatlığı tapmaq istəyirlər. Üstəlik utanmadan bunu müsəlmanlara, yəni bizə tövsiyə

edirlər. Eynilə ağır xəstəliyə yoluxan bir adamın ondan qurtulmaq yerinə sapsağlam həkimə: "Sən də məndəki mikrobdan götür, mənim kimi xəstə ol! Məni bu xəstəliklə baş-başa qoyma, birlikdə ölək!" deməsi kimi. Bu xəstə zehniyyətlə indiki **Papa Fransisko** çıxışlarının birində belə deyir:

"Eynilə bizim müqəddəs mətnlərə etdiyimiz kimi müsəlmanların da Quran üzərində tənqidi cəhətdən çalışmaları onlar üçün yaxşı olar. Tarixi və tənqidi izahlar onların inkişafına kömək edəcək".

Halbuki inkişaf adlandırdıqları onların pozulmuş dinlərindəki absurd qarşısında insanların ateizm və deizm bataqlığına düşməsidir. Sonra da özlərini haqlı çıxarmaq üçün bu mikrobu İslama yoluxdurmağa çalışmalarıdır.

Halbuki əsl inkişaf batildən və mikrobdan vaz keçib haqqa və şəfaya ram olmaqdır.

Onlar görməlidirlər ki, dinlərindəki təzadlar öz dindaşlarını ateizmə və deizmə sürüklədi.

İlk etiraz XVI əsrdə Martin Lüterdən gəldi. O da öz ağlına görə bir din formalaşdırdı. Xristianlıq katolik və provaslav məzhəbindən sonra protestanlıqla bir az da parçalandı. Üstəlik hər bir məzhəbin də içərisində bir çox kiçik firqələr meydana çıxdı. Bir-birinə zidd olan xeyli dini anlayışlar vüsət tapdı. Sonra haqq və həqiqətdən məhrum qalan kütlələr batillə razılaşmayıb pozulmuş dindən uzaqlaşdı.

Xristianlıq başda olmaqla bütün batil və təhrifolunmuş dinlərin insanlığa yaşatdığı problemlərin günahı, təəssüf ki, fəlsəfi cərəyanlar tərəfindən haqq dinin üstünə atıldı. Haqq dini və etiqadı gözdən salmağa çalışdılar. Beləliklə, ateizm və deizmin rahatlıqla yayılması üçün daha əlverişli mühit yaratmağa çalışdılar.

Əslində isə əsas səbəb sadəcə təhrifə məruz qalmış xristianlıqdır.

İslam daima bu təhriflərdən uzaq qaldı. Çünki İslam Allah-Təalanın mühafizəsi altındadır və Onun təyin etdiyi sirati-müstəqim üzrə davam edən yeganə haqq dindir. Qiyamətə qədər də o cür davam edəcək.

Nəticə etibarı ilə iman mövzusunda elmlə ziddiyyət təşkil edən etiqadi boşluqların din adına müxatəbi heç vaxt İslam olmamış, yalnız və yalnız təhrif olunmuş dinlər olmuşdur.

ÜÇÜNCÜ SƏBƏB

Qafil insanların deizm bataqlığına düşməsinin üçüncü səbəbi materialist fəlsəfə olmuşdur. Başqa bir ifadə ilə desək, sənayenin inkişafı...

Hikmətli bir imtahan nəticəsi kimi Avropanın xristianlıqdan uzaqlaşdığı dövr pozitiv elmlər, sənaye və bu kimi sahələrdə inkişaf etdiyi bir dövrə təsadüf etdi. Zatən tarix boyu bəşəriyyət maddi güclə sərxoş olub həddi aşmışdır. Ad, Səmud qövmü, Nəmrud və Firon bunun məşhur misallarındandır.

O dövrün inkarçıları peyğəmbərlərin gətirdiyi hər şeydən, xüsusilə də haqq-ədalət qaydalarından narahat oldular. Çünki həm "Mənim dinim mənim arzularımdır" qəbilindən azğın nəfsani həyat sürmək, həm də ən ağır günahları da işləsələr, yenə də hesaba çəkilməkdən azad olmaq istəyirdilər. Öldükdən sonra yenidən diriləcəklərini qəbul etmək istəmirdilər. Mütləq gerçəyi və qaçılmaz aqibəti isə heç düşünmək də istəmirdilər. Sanki inkar onlar üçün yeganə qurtuluş yolu idi. Üstəlik Hz. Adəmdən bəri heç bir inkarçı bundan qurtulmadığı halda... Yeganə təsəlliləri bu ağır aldanışı əcəl anına qədər fərq edə bilməməkdən ibarət olaraq qaldı.

Məhz o böyük və acı aldanışların tələsi və maskası olaraq da hər dövrdə olduğu kimi son əsrdə də müxtəlif fikirlər və zəhərli ideologiyalar uyduruldu. Bütün bunların xülasəsi:

Materializm, maddəpərəstlik... Mənanı, ruhu və hikməti inkar...

Bunlar siyasi və iqtisadi olaraq bir çox qılığa girdi. Lakin əsas etibarı ilə hər biri inkarçıdır.

Məsələn,

Kommunizm və sosializm olaraq təzahürü dini zatən afyon kimi gördü, tamamilə inkar etdi. Bərabərlik adı ilə yola çıxaraq öz partiyasına xidmət etdi. Yüksək səslə elan etdikləri xalqı əzməmək şüarlarının arxasında öz xalqını vəhşicəsinə əzdi, sadəcə istismar etdi və qəddarlıqla zülm etdi.

Kapitalizm və liberalizm isə insanları holdinq və monopoliyalarla əzdi. Araşdırmalara görə, sadəcə 50 zəngin insan bütün dünya əhalisinin 50 faizinin sahib olduğu sərvətə sahibdir. **Necip Fazılın** ifadəsi ilə desək:

Bu bölgünü qurt yapmaz, quzulara şah olsa!..

Kapitalizm "Mülk fərdlərindir", - dedi.

Yəni sərvət kimin əlinə keçsə, kim daha çox qazanmaq üçün nə isə etmək istəsə, toxunmayın, qoyun istədiyini etsin. Cəmiyyət içində maddi ədalət və mərhəmət üçün heç bir tədbir almağa ehtiyac yoxdur.

"Bəs kasıbların halı nə olacaq?", – deyildikdə bu yalanı söylədilər:

"Hürriyyətlə gələn zənginlik təbii qaydada, özü-özlüyündən hər kəsə qayıdacaq. Qiymətlər ucuzlaşacaq, iş olacaq, bolluq yaşanacaq".

Bu, kimlərinsə həm insanların enerjisini, həm də ümidini istismar edə bilmək üçün və bunu onlara qəbul etdirərək həyata keçirmək məqsədi ilə uydurduğu yalan nağıldan başqa bir şey deyildi. Heç vaxt gerçəkləşməsi mümkün olmayan nağıl.

Kapitalizm və liberalizm daima xalqı istismar edərək sərvət sahiblərinə qazandırdı. Yoxsul daha da yoxsullaşdı. Bir çoxları faizin pəncəsində köləyə çevrildi.

Kommunizm isə "mülk cəmiyyətindir", - dedi. Bütün vətəndaşlar dövlətin işçisi olacaq, dövlət də sərvəti hamıya bərabər şəkildə paylayacaqdı. Təbii ki, bu da insanların həm enerjisini, həm də ümidini istismar edə bilmək və bunu onlara qəbul etdirərək həyata keçirmək üçün uydurduqları başqa bir nağıldı. Əsla gerçəkləşməyən nağıl.

Kapitalizmdəki böyük sərvət sahiblərinin yerini burada partiyalar tutdu. Xalq kölə kimi işlədildi, partiyadakılara bir çox imtiyazlar tanındı və yalnız onlar zəngin edildi. Zatən kommunizm bu kimi haqsızlıqların nəticəsində çökdü.

Yalnız **İslam** hər zaman bu iki sistemin əksinə, insanın problemini həll etdi və cəmiyyətə səadət gətirdi. Çünki İslam "Mülk nə fərdlərin, nə də cəmiyyətindir. Mülk Allahındır, insanlarsa müvəqqəti əmanətçidirlər", - dedi.

Bu gerçəkdən yola çıxaraq İslam insanlara özəl mülkiyyət hüququ tanıdı. Lakin zəngini yoxsuldan, güclünü zəifdən məsul gördü. Varlıların yoxsullara ibadət vəcdi ilə zəkat, sədəqə və infaq verməsini təmin etdi. Bu minvalla yaşanan din qardaşlığı bütün cəmiyyəti şəfqət və məhəbbət telləri ilə bir-birinə bağladı. Möminlər axirət inancı sayəsində fani dünya malını daima xeyirxah işlərə və vəqflərə sərf etdilər. Gözəl əxlaq səbəbi ilə fəqir-füqəraya mərhəmət və şəfqət bəslədilər. Əllərindəkini onlarla bölüşdülər.

Lakin insanları istismar edən ideologiyalar bir yandan onları maddi yöndən pərişan hala salarkən, digər tərəfdən onlara qəflət aşıladı və pisliklərlə onları işğal etdi.

Nəticədə insanlıq eqoizmdən, maddədən və mənfəətdən başqa heç nəyi görməz oldu. Mərhəmət və şəfqət qıtlığından vicdanlar qurudu.

Kapitalizmin "qoy etsin" düsturu qazanmaq üçün heç bir hüquqi çərçivə təyin etmir. Məqsədə çatmaq üçün hər yolu mübah sayır.

Bu gün **Suriya, Myanma və Yəmən**dəki cinayətlər **deizm**in səbəb olduğu haqbilməzlik və ədalətsizliyin həzin aqibətidir...

Məzlum və kimsəsizlər beləcə əzilərkən xəlbirin üstündə qalanlara acımasızlıq və eqoizm aşılandı. Kütlələr televizor, internet və əyləncə vasitələrinin köləsinə çevrildi.

Nə dini hökm var, nə də vicdan əzabı!.. Axirətə dair heç bir təlaş, vicdanlara xitab edəcək ruh və mənəviyyat yoxdur...

Dəmir və sənayenin bu cür tərəqqi etməsi insanı özündən başqasını düşünməz hala gətirdi. Bədən mərkəzli anı yaşamaq arzusu qəlbdəki axirət düşüncəsini boğub öldürdü.

Qlobal mədəni istila bu vəhşiliyi dünyanın dörd bir yanına yaydı. Beləliklə, heç bir əxlaq, haqq-hüquq və din qaydası olmadan nəfsani həyat yaşamaq istəyən insan tipi formalaşdırdılar. Nəfsani həyatın bataqlığına batan bu insan da Haqq din olan İslamın qaydalarından boyun qaçırır.

Halbuki bu qaydalar insan kimi yaşamaq, mərhəmət, haqq, hüquq və ədalət, təvazökarlıq kimi fəziləti əməlləri təlim edir. Lakin nəfsinə ram olanlar buna yaxınlaşmır.

Saydığımız bu üç səbəb nəticəsində bir sıra insanlar **ateizm və deizmə** yuvarlandı.

Ateizmi qəbul edilməyəcək qədər qorxunc və məntiqsiz sayanlar sadəcə yaradanı qəbul edərək, "bu qorxunc haldan xilas ola bilərəmmi?" deyərək, bir növ hiylə işlədərək **deizmi** tuturlar. Xüsusilə kökü etibarı ilə dindar ailələrin övladlarında bu pozulmanın müşahidə edildiyinə dair bizə müraciətlər olundu.

Halbuki ikisi arasında heç bir fərq yoxdur.

Hər ikisi **ağılın sərsəmliyi!..**

Əgər deizmə sürüklənənlər "dindən uzaq durum, haramları işləyim, rahat, nəfsani həyat yaşayım, amma kafir olmayım, yolum ateizm olmasın, küfrə bulaşmayım" deyərək belə bir yola düşürlərsə, bilməlidirlər ki,

Deizmin ateizmdən heç bir fərqi yoxdur.

İstədikləri qədər araşdırsınlar, deistlərin dinlərə qarşı irəli sürdükləri ittihamları oxusunlar. Ateistlərin ittihamlarından heç bir fərqinin olmadığını görəcəklər.

Bir damlası belə insanı öldürən bir şüşə zəhərə azacıq su qatmaqla öldürücülük keyfiyyətini itirmək olmaz.

Nə fərqi var? O da inkardır, bu da!..

Münafiqlik daha betər kafirlik sayıldığı kimi, **deizm** də daha betər **ateizm**dir.

Təmiz vicdanlı insanlarımız tərəfindən bunun düzgün dərk edilməsi və onların pak dünyasının bulanmaması məqsədi ilə qələmə alınan bu əsər **"ağılın sərsəmliyi"** olan **"ateizm və deizm"**ə cavab vermək, onların zəmindəki inkar bataqlığını göz önünə sərmək məqsədi ilə ərsəyə gətirilmişdir.

Uca Rəbbimizdən bu əsərin internet və bənzəri mühitlərdən gənclərin zehninə atılan şübhəli sual və vəsvəsələrə qarşı dini təbliğ və irşad vəzifəsi ilə məşğul olan qardaşlarımız üçün də bir bələdçi olmasını niyaz edirik.

Hidayət daima Haqq-Təaladandır.

O Uca Allah, hər şeyin sahibi olan Rəbbimiz bu cənnət vətənimizdə və Fatehlər övladı olan nəslimizdə heç vaxt inkarçılara və azğınlara fürsət verməsin. Zürriyyətimizin, övladlarımızın və tələbələrimizin imanını qiyamətədək mühafizə eyləsin.

Amin!..

Osman Nuri TOPBAŞ

Mart **2019** – Rəcəbi-Şərif **1440**

Akmescid

Bu kitabın hazırlanmasında fədakarlıqla çalışaraq əməyi keçən M. Ali EŞMELİ və M. Asım KÜÇÜKAŞÇIya, o cümlədən Azərbaycan türkcəsinə uyğunlaşdıran Nurlan MƏMMƏDZADƏyə və nəşrə hazırlayan Dr. Abbas QURBANOVa təşəkkür edir, Allah-Təaladan bu səylərinin sədəqeyi-cariyə olmasını diləyirəm.



İMAN:
ƏN BÖYÜK NEMƏT...

Mehmed Akif necə də gözəl deyir:

İmandır o cevher ki, İlahi, ne büyüktür!
İmansız olan paslı yürek, sinede yüktür!..

İman hüzur və səadətdir.
İmansızlıq isə qayəsizlik, hüzursuzluq,
zillət və zəlalətdir.
Qəlbin viran qalmasıdır.



İMAN: ƏN BÖYÜK NEMƏT...

Allah-Təalanın bizə ən böyük neməti və lütfü imanla şərəfləndirməsidir.

İman qəlblə təsdiq, dillə iqrardır. Yəni qəlbdən doğar, oradan dilə və həyatımıza, əməllərimizə, davranışlarımıza və gözəl əxlaqımıza yayılar.

İman zehinin görəcəyi iş deyil. Əlbəttə ki, inanmaq üçün doğru məlumata və bilgiyə ehtiyac var. Lakin bilmək birbaşa inanmağı doğurmaz.

İblis də Allah-Təalanın qüdrət və əzəmətindən xəbərdar idi, lakin Onun **Həzrət Adəmə** göstərdiyi rəğbətə həsəd apardı, aləmlərin Rəbbinə üsyan etdi və onunla mübahisəyə girişdi. Rəbbimiz **"İblis kafirlərdən oldu"**, - buyurur.

Tarixdə neçə-neçə möcüzəyə şahid olmuş, onları imana dəvət edən peyğəmbərlərin əxlaqına, doğruluğuna və dü-

rüstlüyünə vicdanən söyləyəcək söz tapmayan, lakin nəfsaniyyətlərindən yüksələn həsəd, kin-küdurət kimi mənfi duyğular ucbatından iman etməyən **Firon, Əbu Cəhl və Vəlid bin Muğirə** kimi bir çoxları ömür sürmüşdür. Onlar vicdanları qəbul etsə də təkəbbürləri səbəbi ilə rədd edən inkarçılardır.

Çünki iman qəlbin işidir. Cudi Əfəndi bu həqiqəti belə ifadə edir:

Hidayet Senden olmazsa, dirayet neylesin, ya Rab!
Arapça bilse de, Bu Cehle, ayet neylesin, ya Rab!

Bir həqiqəti də ifadə etmək lazımdır ki,



Görən, duyan və hiss edən qəlblər bu kainatda ilahi qüdrət və əzəmət təcəlliləri-ndən başqa heç nəyi görməzlər. Bu aləmdə güllərlə, sünbüllərlə və bülbüllərlə ünsiyyət qura bilməyən, onların hal dilindən heç nə anlaya bilməyən qafillər necə də bədbəxtdirlər.

İslam ağılın fövqündədir. O, aləmlərin Rəbbi tərəfindən gəlmiş ən ali həqiqətdir. Allahın yaradıb insana hədiyyə etdiyi ağıl ilə Onun təlimatlarını, dinini ölçüb-biçməyə can atmaq insanın **həddi aşması**dır.

Bu nöqtə dinin **təslimiyyət** tələb edən cəhətidir. Zatən iman qeybidir. Ölümdən etibarən pərdələrin qalxması ilə insan oğlunun mələkləri və axirət aləminin digər əlamətlərini gördüyü zaman zatən iman imtahanı da sona çatmış olacaq.

Əsas məsələ həyatda ikən peyğəmbərlərə və kitablara etimad göstərib iman gətirərək qəlbdəki nəfsani və şeytani vəsvəsələri bir kənara qoyaraq təslimiyyətlə imanmaqdır.

Quranın Allah-Təala tərəfindən Həzrət Peyğəmbərə vəhy olunduğunu, onda vəd edilən istiqbala aid uxrəvi həqiqətləri qəbul etmək zehinlə deyil, qəlblə mümkündür.

Digər tərəfdən, iman edilməsi zəruri olan İslam həqiqətləri **səlim ağıl**ın tərəddüdsüz qəbul edəcəyi mahiyyətdədir. Yəni **İslam ağıldan uzaq bir din deyil**. Əksinə, ağılı tərbiyə edərək onu gerçək əqli-səlim halına gətirən ali həqiqət və qüdrətdir. Yoxsa insan əbədi ziyanın cəhalət və sərsəmliyi içində məhv olub gedər. Yəni ağıllar İslamla ağıllı hala gələr.



İmansızlıq həyat sərmayəsini fani arzular müqabilində məhv edən əbədi iflasdır. Sonu cəhənnəmə çıxan bihudə qaçışdır. Çünki qaçacaq yer yoxdur. Sığınacaq yeganə liman Allah-Təalanın dərgahıdır.

Bu yolda Quran və Sünnə insana tövhid, nübüvvət və axirət mövzularında qaneedici dəlillər göstərər.

Qərəzli baxış, şübhə və vəsvəsə ilə yanaşmayan hər qəlb İslamın açıq-aydın dəlillərindən istifadə edər və aşkar həqiqəti görüb iman gətirər.

Çünki **insanın ağlına və xəyalına gələcək hər bir suala İslam cavab vermişdir. Həyatımızı da ən mükəmməl şəkildə tənzimləmişdir.**

İslam müsəlmanların, hətta bütün insanların yeganə xoşbəxtlik və səadət rəhbəridir.

Akif necə də gözəl deyir:

İmandır o cevher ki, İlahi, ne büyüktür!
İmansız olan paslı yürek sinede yüktür!..

İman hüzur və səadətdir. İmansızlıq isə qayəsizlik, hüzursuzluq, zillət və zəlalətdir. Qəlbin viran qalmasıdır.

Hər bir inkar və üsyan "nə üçün var oldum?", "bu kainat nə üçün yaradıldı?", "yaradılış qayəm nədir kimi suallara biganə qalaraq nəfsani bir həyatın əsiri olmaqdır.

İmansızlıq həyat sərmayəsini fani arzular müqabilində məhv edən əbədi iflasdır. Sonu cəhənnəmə çıxan bihudə qaçışdır. Çünki qaçacaq yer yoxdur. Sığınacaq yeganə liman Allah-Təalanın dərgahıdır.

Qurani-Kərim bizə insanlıq tarixindən səhnələr göstərmişdir. Peyğəmbərimiz də axırzamana dair hədisi-şəriflərlə xəbərdarlıq etmişdir.

Keçmişdə də, axırzamanda da ortaq nöqtə budur: İnsanlıq maddi zənginlik və rifahla qarşılaşdığı zaman dindən və mənəvi dəyərlərdən uzaqlaşıb nəfsi arzularına kölə olduqda; lovğalanmış, imandan uzaqlaşmış, yaradanı və ya dini, yaxud da axirəti inkar yolunu tutmuşdur. Qəlbindəki fitrətdən gələn inanma duyğusunu batil, uydurduğu və ya təhrif etdiyi dinlərlə təmin etməyə çalışmışdır. Buna "Atalarımızın dini", yaxud "Mənim həyat fəlsəfəm belədir", "İstədiyim kimi inanıram", "Belə inanmaq mənə rahatlıq verir" kimi söz oyunlarından ibarət bəhanələr də uydurmuşdur. Lakin Rəbbimiz hər birinə "inkar" möhrü vurmuşdur.



Məqbul iman Rəbbimizin arzu etdiyi, vəhylə tərifini verdiyi, rəsulları ilə bildirdiyi imandır.



Fərdlərin və ya öz bildiyini yeridən rahiblərin, yaxud da hansısa qurumların özlərindən əsaslar gətirərək "Bizim də dinimiz budur", - deməsi sərsəmlikdən başqa bir şey deyil.

Məqbul iman Rəbbimizin arzu etdiyi, vəhylə tərifini verdiyi, rəsulları ilə bildirdiyi yaşanan imandır.

Fərdlərin və ya öz bildiyini yeridən rahiblərin, yaxud da hansısa qurumların özlərindən əsaslar gətirərək "Bizim də dinimiz budur", - deməsi sərsəmlikdən başqa bir şey deyil.

Necə ki, zəmanəmizdə yüzlərlə firqələrə bölünən xristianlıq tamamilə belə bir mənzərə sərgiləyir.

Allah-Təala təslisin küfr olduğunu, Hz. İsanın sadəcə Allahın qulu və elçisi olduğunu bildirmişdir.

Yəhudilik də zəlalətə düşmüş ehtiras sahibi din adamları tərəfindən təhrif edilmiş, irqi bir dinə çevrilmişdir. Halbuki bütün irqlərin sahibi Allah-Təaladır.

Qərbdə ağılın və elmin inkişaf etdiyi dövrlərdə bir çox elm adamı xristianlığın ağıldankənar davranışları qarşısında dindən soyudu. Buna etiraz etmək üçün dinsizliyə yönələnlər oldu. Lakin vicdanən bu kainatın bir yaradıcısının olduğunu, yaradılışın da bir qayəsinin olduğunu qəbul edənlər həm təhrif olunmuş xristianlığı rədd etmək, həm də yaradanı qəbul etmək kimi bir dilemma qarşısında qaldılar. Bu hala bir ad vermək lazım idi. Nəticədə qədim Yunanıstandan bəri məlum olan, batil bir inanışın adı ilə **deizm** adlandırdılar.

Halbuki təhrif olunmuş xristianlıq tövhiddən nə qədər uzaqdırsa, sadəcə yaradan, sonrasına qarışmayan bir tanrı anlayışı olan deizm də küfrdür, qəbuledilməzdir.

Düşünməli idilər ki, əgər xristianlıq təhrif olubsa, ondan sonra Allah-Təala bir peyğəmbər və kitab da göndərməli idi. Göndərmişdir də:

İslam, Qurani-Kərim və Fəxri-Kainat (s.ə.s)...

Əhli-kitabdan da bu həqiqəti görən bəxtiyarlar oldu.

Salman Farisi (r.a) İrandan başladığı həqiqət arayışında illərlə rahiblərin yanında dolaşmış, kölə kimi satılmış, nəhayət, araya-araya Peyğəmbərimizi tapmışdır.

Yəhudi din adamı olduğu halda səhabeyi-kiram karvanına qoşulan **Abdullah bin Salam (r.a)** Peyğəmbərimizi görən kimi: "Bu üz yalan söyləməz", - deyərək iman gətirmişdi.

Dünən də, bu gün də, sabah da haqq din İslamdır.

Allah qatında yeganə din İslamdır.



Təhrif olunmuş xristianlıq tövhiddən nə qədər uzaqdırsa, sadəcə yaradan, sonrasına qarışmayan bir tanrı anlayışı olan deizm də küfrdür, qəbuledilməzdir.

Həzrət Adəmin də, Həzrət Nuhun da, Həzrət İbrahimin də, Həzrət Musanın da, Həzrət İsanın da təbliğ etdikləri din İslamdır.

Ümumi olaraq İslam aləmi, xüsusilə də ölkəmiz son əsrlərdə dinin həyatdakı yeri və dini təhsil xüsusunda böyük sarsıntılar keçirmişdir. Tənzimatdan bəri dini təhsil yetim qoyulmuş, sonra da yasaqlanmışdır.

Osmanlının Lalə dövründə mənəvi istiqamətdən ayrılaraq nəfsani həyata dalmaq Qərb dünyası qarşısında məğlubiyyətlə nəticələnmiş, məğlubiyyətlər də yanlış dəyərləndi-

rilərək, guya, dinin inkişafa mane olduğu anlayışı vüsət tapmışdır. Nəticədə hər şeydə Qərb dünyasını təqlid xəstəliyi baş qaldırmış, təəssüf ki, bizim tərtəmiz və haqq dinimizə - uca İslama qarşı qərəzli baxan ateizm, deizm və reformizm kimi zəhərli fitnə toxumları vətən torpağımıza saçılmışdır.

Həmin vaxt Avropa saysız-hesabsız fəlsəfi cərəyanlar halında dinə hücum etməkdə idi.

Materializm / Maddəçilik ruhu və bütün mənəviyyatı inkar edirdi. Maddədən başqa heç bir varlığı qəbul etmirdi.

إِنَّ الدِّينَ عِندَ اللَّهِ الْإِسْلَامُ

Dünən də, bu gün də, sabah da haqq din İslamdır.

Allah qatında yeganə din İslamdır.

Həzrət Adəmin də, Həzrət Nuhun da, Həzrət İbrahimin də, Həzrət Musanın da, Həzrət İsanın da təbliğ etdikləri din İslamdır.

Pozitivizm də bənzər şəkildə təcrübə ilə isbat oluna bilməyən hər şeyi rədd edirdi.

Pozitivistlərə görə dinin cəmiyyətdəki yerini ağıl və elm almalı idi.

Darvinizm təsadüflər nəticəsində insanın heyvanlardan törədiyini irəli sürərək insanı heyvan kimi tanıdırdı. Sosiologiyaya təsir edən Sosial Darvinizm də dinləri toplumların təkamül prosesi zamanı geridə qalmış bir mərhələ kimi qələmə verirdi.

Froyd fəlsəfəsi isə insanın bütün psixologiyasını cinsi istəkləri təmin etmək pəncərəsindən dəyərləndirən azğın anlayış idi.

Bu zəhərli fitnə günlərində **Tevfik Fikrət, Bəşir Fuad, Hüseyin Cahit, Abdullah Cevdət** kimiləri iftira çamurları ataraq İslamı xor göstərməyə çalışan kitablar, şeirlər, romanlar və bir çox yalanlar yazdılar. Müştəşriklərin İslama və Hz. Peyğəmbərə qara yaxmağa çalışan kitablarını türk dilinə tərcümə etdilər.

Məsələn, Tevfik Fikrət "Tarixi Qadimə Zeyl" adlı şeirində dinsizliyi təlqin etmiş, şəriətə "kitabi-köhnə" deyərək həqarət etmişdir. Başqa bir şeirində də "Halukun Aməntusu" adı altında alternativ iman əsasları yazmağa can atmışdır.

Onun bu şeirində yer alan və bu torpaqlara və millətinə mənsubiyyətini rədd etmə mənasına gələn *"Torpaq vətənim, növ-i bəşər millətim"* ifadəsi 2018-ci ildə İstanbulda quruldu **Deizm Dərnəyi**nin şüar seçdiyi cümlə ilə, demək olar ki, eynidir.



Trilyonlarla varlığın müxtəlif və çeşidli, katrilyonlarla, bəlkə bundan da artıq ruzisini bu qədər dəqiqliklə kim tədarük edir? Bir az insaflı olub ağılla düşünmək lazım deyilmi?

Halide Edip Adıvarın romanındakı din adamlarına qarşı qərəzli və çirkin yanaşmanı görməmək mümkün deyil.

Həmçinin Hüseyin Cahit Yalçın şərqşünas **Leon Katani**nin iftiralarla dolu ***İslam Tarixi*** kitabını, pozitivist **Emile Durkeim**in *Din Həyatının İbtidai Şəkilləri* kimi çalışmalarını türk dilinə tərcümə edərək qəzetlərdə nəşr etdi.

Tevfik Fikrət, Ahmet Rıza kimiləri dinsizliyi aşılayan pozitivist, materialist, Darvinist fəlsəfələrin

Türkiyədəki dəllalları oldular. **Avqust Komt, Ernest Renan, Dozi** kimilərinin dinə düşmənçilik edən kitablarını yaydılar.

Həmin adamlar qurduqları siyasi fitnə yuvaları ilə Osmanlının axırına çıxmaqla qalmadılar, bu kimi fikirləri qondarma ədəbi nəşriyyatları ilə, maarifləndirmə adı altında müəllimlərə, onların vasitəsi ilə də yeni nəsillərə aşıladılar. Bu nəsillərin yetişdirdiyi "ziyalılar" maarifimizə zəhər saçdı.

Dinə düşmənçilik mövqeyindən yanaşma tərzi hələ də bəzi akademik və elit mühitlərdə davam etməkdədir.



1915-ci ildə dünya əhalisi 1,5 milyard idi. İndi isə 7 milyarddan artıqdır. Dünya imkanları israf edilmədikcə hər kəsə kifayət edir. Əhalinin sayı artdıqca açılan süfrələr də artır. Təfəkkür etmək lazım deyilmi?

MÜSƏLMANLARIN ELMƏ XİDMƏTLƏRİ

Haqqında bəhs etdiyimiz dövrdə Avropada, eləcə də ölkəmizdə **din və elmin** bir-birinə zidd olduğu fikri formalaşdırıldı. Beləliklə, elmə marağı olan nəsilləri dindən soyutdular. Halbuki tarix səhifələrini vərəqlədikcə ixtira və kəşf sahəsində müsəlmanların böyük xidmətləri ilə qarşılaşmaq mümkündür.

Məsələn;

• Cəbr elmi, sıfır və rəqəmlər müsəlmanlar tərəfindən kəşf edilmiş və məhz müsəlmanların əli ilə Avropaya yol tapmışdır.

• Ekvatorun uzunluğu Abbasi xəlifəsi Məmun (786-833) zamanında Əhməd bin Musa və qardaşları tərəfindən Sin-

can və Kufədə aparılan ölçmə və hesablama nəticəsində 2,5 faiz yanılma ilə 39 min kilometr olaraq təsbit edilmişdi.

• Riyaziyyatda Xarəzmi, kimyada Cabir bin Həyyan, mexanikada Əbul İzz İsmayıl əl-Cəzəri, astronomiyada Fərqani və Battani, tibdə İbn Sina kimi bir çox müsəlman dahisi elm tarixinin çox mühüm ixtiralarına imza atıblar.

Məsələn, coğrafiyanın elm kimi təşəkkülündə də müsəlmanların rolu böyük olmuşdur. Dünyanın bir çox ölkəsini qarış-qarış gəzib dolaşan Övliya Çələbi (1611-1682), 29 il durmadan bir qitədən digərinə səfər edən İbn Batutanın (1304-1369) səyahətnamələri başlı-başına tarix və coğrafiya xəzinəsidir.

Xristofor Kolumb (1446-1506) Amerikanın varlığını müsəlmanlardan, xüsusilə də İbn Rüşdün kitablarından öyrəndiyini qeyd edir.



Allah-Təala hər bir mövsümə və coğrafi məkana görə ayrı-ayrı ikramlar edir. Qütbdə yaşayanı da, ekvatorda yaşayanı da, səhradakını da ac qoymur.

Biruni (973-1048) neçə əsr bundan əvvəl Amerikanın varlığından söz açmış, Piri Rəis (1465-1554) Kitabi-Bəhriyyə adlı əsərində Avropanın xəritəsini çəkmişdir. Piri Rəisin dünya xəritəsi bu gün də tarix elminin açа bilmədiyi müəmmalardan biridir. Həmin xəritədə Qrenlandiya adası əslinə uyğun olaraq üç hissədə göstərilmişdir. Halbuki bu, yalnız insan oğlunun aya ayaq basması ilə dəqiqləşdirilən bir həqiqətdir.

İdrisi (1100-1166) 8 əsr bundan əvvəl bugünkü dünya xəritələrinə oxşar xəritələr çəkmişdir.



Uca Allah yayda mövsümün ehtiyacına görə su itkisini bərpa edən qarpız kimi meyvələr, qışda isə məhz həmin mövsümün ehtiyacı olan C vitamini ilə zəngin portağal kimi meyvələr bəxş edir. Bunlar Saysız-hesabsız hikmətdən sadəcə bir neçəsidir...

Unutmamaq lazımdır ki, Xristofor Kolumb, Magellan, Ameriqo Vespuççi kimi Qərb kəşşaflarının əksəriyyəti dəniz qulduru idi. Uzun illər boyu Afrikanın və Amerikanın məzlum insanlarını istismar edən, köləleşdirən və öldürən həramilər idi.

Əsl kəşşaflar İbn Batuta, Övliya Çələbi və digər İslam şəxsiyyətləridir. Onlar getdikləri hər bir coğrafi ərazidən dünyanı xəbərdar etmişlər.

Başqa bir elm sahəsinin - tarix fəlsəfəsinin ən seçkin simalarından biri olan İbn Xaldun (1332-1406) sosiologiya elminin qurucusu kimi tanınır. Onun qələmə aldığı *"Müqəddimə"* bu günün özündə belə elm dünyasına işıq tutur.

Memarlıqdan söz açılanda ağıla gələn ilk insan möhtəşəm əsərləri ilə hələ də qəlblərdə yaşayan Memar Sinandır (1489-1588).

Astronomiyada Uluğbəy və Əli Quşçunun qurduğu rəsədxanalar və onların tərtib etdiyi fəza xəritələri elm tarixində öndərlik etməkdədir.

Təəssüf ki, zəmanəmizdə Qərb dünyasına qarşı aşağılıq kompleksi ilə qələmə alınan elmi əsərlərdə bu simalardan söz açılmır. Daima küfr əhlinin icadları ön plana çıxarılır.

Bu inkar əslində Qərbin nə qədər nankor olduğunun bir təzahürüdür.

Öz dəyərlərindən bixəbər olan Şərq dünyası üçünsə bu qəflət aşağılıq kompleksinin nəticəsidir.

Halbuki Qərb aləmi əldə etdiyi tərəqqini müsəlmanların ərsəyə gətirdiyi elmi zənginliyə borcludur. Qərblilər Bağdad mədəniyyətindən əldə etdikləri elmi həqiqətlərlə, xaçlı yürüşlərində gördükləri ilə, o cümlədən Əndəlüs universitetlərində oxuduqları ilə elmi yeniliklərlə tanış olmuş, məhz bundan sonra inkişaf edə bilmişlər.

Mərhum alim Fuad Sezgin ömrünü bu həqiqətin isbatına həsr etmişdi. Onun apardığı araşdırmalar nəticəsində məlum olmuşdur ki, zəmanəmizin Avropası riyaziyyatın ilk dəfə təbiət elmlərində tətbiqini Roqer Bekona (1219-1292), optika və fotoaparatların əsası sayılan "qaranlıq otaq" anlayışının icadını da Levi ben Gersona (1288-1344) şamil etməkdədir. Halbuki hər iki sahədə öndərlik İbn Heysəmə (v. 1041) aiddir.



Yağan qarı düşünək! Torpağın üst təbəqəsini örtən qar neçə-neçə məxluq üçün yorğanı əvəz edir. Qar əridiyi zaman hər tərəfdə ölmüş cəsədlərlə qarşılaşmırıq. Bütün o məxluqatı sanki xüsusi qundaq içərisində mühafizə edən kimdir?

Triqonometriyanın müstəqil elm kimi formalaşması Reqiomontana (v. 1476) aid edilir. Halbuki banisi Nəsrəddin Tusidir (v. 1274).

Günəş mərkəzli dünya təsəvvürü ilk dəfə Kopernik və Keplerə şamil olunur. Halbuki bu elm adamları Əndəlüslü əz-Zərqavi (XI əsr) kimi alimlərdən çox təsirlənmişlər.

Hər sahədə yüzlərlə misal vermək mümkündür. (Fuad Sezgin, İslamda Bilim ve Teknik, 2008, Kültür A.Ş., c. I, s. 163-166)

Bunun müqabilində ta XVI əsrdə belə Qərbin elmi həqiqətlər qarşısındakı təəssübünün səviyyəsi belə idi:

Müsəlman alimlərdən tərcümə olunan əsərlər sayəsində Avropada astronomiya ilə əlaqəli həqiqətlər yayılmağa başlamışdı. Qaliley də kilsənin iddia etdiyinin əksinə, dünyanın fırlandığını dediyi üçün inkvizisiya məhkəməsinə verildi. Kilsə edam edilməsini istəyirdi. Ömrünün sonuna qədər həbsə məhkum edildi. Qaliley veriləcək cəzadan canını qurtarmaq üçün ifadəsini dəyişdi. Lakin qapıdan çıxarkən yaxın dostlarına belə deməkdən özünü saxlaya bilmədi:



Yağan qar sanki ağappaq çiçək yağışı kimi ruha rahatlıq verir. Görəsən, qapqara qətran kimi və ya qıpqırmızı qan kimi yağsaydı, ruhumuzu nə qədər sıxardı?!

"Mən fırlanmır desəm də, dünya fırlanır".

Nəticə etibarilə elmi inkişafdan söz düşəndə müsəlmanların kompleksə girməsinə heç bir əsas yoxdur.

Məsələn, Avropanın böyük mütəfəkkirlərindən sayılan **Tomas Akvinat, Paskal, Dekart və Devid Yum** fəlsəfi sistemlərini qurarkən **İmam Qəzalinin** əsərlərindən istifadə etmişdir.

Bütün bu gerçəklərin unudulduğu son illərdə isə televizor və internetin bütün evləri və bütün telefonları istila edən zərərli yayınları da musiqi, kino, reklam və modalardan da istifadə edərək bu düşüncələrin hər yerə nüfuz etməsinə səbəb olmuşdur.

Bu keşməkeş içərisində müsəlmanların imanı İslam düşmənlərinin hədəfində olmuşdur. Bu kimi fəaliyyətlərdən biri də məhz **"deizm"**dir.

DEİZM

Deizm tamamilə bir cahiliyyə əlamətidir. Bəzi cahiliyyə ərəbləri: "İnsanı, yeri, göyü yaradan, yağışı yağdıran bir Allah var. Amma o, peyğəmbər və şəriət göndərməyib, kitab endirməyib, biz yenidən dirilməyəcəyik, əzab görməyəcəyik", - deyirdilər. Allahla bərabər bütlərə də qulluq edirdilər.

Quranda onların arzu və istəklərinin xilafına, ölüm və sonrasına aid ayələr nazil olduqda bundan narahat olan kafirlər Həzrət Peyğəmbərdən bu kimi ayələri dəyişdirməsini istədilər. Allah Rəsulunun yanına gəlib belə dedilər:



Deizm tamamilə bir cahiliyyə əlamətidir. Cahiliyyə ərəbləri: "İnsanı, yeri, göyü yaradan, yağışı yağdıran bir Allah var. Amma o, peyğəmbər və şəriət göndərməyib, kitab endirməyib", - deyirdilər. Bu da küfrdür.

"Bizim üçün içində yenidən dirilmə mövzusu olmayan Quran gətir, yaxud da onda keçən yenidən dirilmə (axirət, hesab) bəhsini dəyişdir". (Zəccac, Məanil-Quran və Erabuh, III, 11)

"Bizə Lat və Uzzaya ibadəti tərk etməmizə dair əmrlərin olmadığı bir Quran gətir. Əgər Allah sənə belə bir Quran endirmirsə, özün belə bir Quran gətir, yaxud da Allahdan sənə gələni bu şəkildə dəyiş; (Axirət xəbərlərini ləğv et!)

- **Əzab** ayələrinin yerinə rəhmət ayələri qoy.

• **Haramın** yerinə halalı, halalın yerinə haramı qoy!”. (Vahidi, s. 270; Alusi, XI, 85)

Bu kimi insanlar haqqında aşağıdakı ayə nazil oldu:

“(Müşriklərə) **ayələrimiz açıq-aydın oxunduğu zaman** (qiyamət günü haqq–hesab üçün) **Bizimlə qarşılaşacaqlarına ümid etməyənlər:**

“Bundan ayrı bir Quran gətir və ya onu dəyişdir!” – deyərlər.

Onlara de: “Mən onu özbaşına (istədiyim kimi) **dəyişə bilmərəm. Mən ancaq mənə gələn vəhyə tabe oluram. Əgər Rəbbimə asi olsam,** (müsibəti) **böyük günün** (qiyamət gününün) **əzabından qorxuram”.** (Yunus, 15)



Cahiliyyə müşrikləri də deistlər kimi düşünürdülər. Allah Rəsuluna belə dedilər:

“Bizim üçün içində yenidən dirilmə mövzusu olmayan Quran gətir, yaxud da onda keçən yenidən dirilmə (axirət, hesab) bəhsini dəyişdir”. (Zəccac, Məanil-Quran və Erabuh, III, 11)

Görüldüyü kimi deizm adlanan bu batil anlayış guya yaradanı qəbul edir, lakin bununla həqiqi Allahı deyil, özünün uydurduğu antropomorfik və əslində olmayan bir varlığı xəyali olaraq qəbul edir. Əslində bu, bir olan Allahı da, Allahın təlimatlarını, elçilərini, kitablarını, qiyaməti və axirəti və inkar etməkdən başqa bir şey deyil.

Allah-Təalanı tamamən inkar etməyə qalxmaq günortanın qızmarında günəşi inkar etmək axmaqlığına bənzəyir. **Deizm** adlandırdıqları inkar şəkli də, guya, Allahı yaradıcı olaraq inkar etməyib, Onun Rəbb sifətini, yəni qullarına təlimatlarını bildirməsini, onları tərbiyə etməsini, cəza və mükafat vermək kimi bir sıra xüsusiyyətlərini inkar etməkdir.

Şübhəsiz ki, bu, insanın istədiyi kimi davranacağı, xüsusən də hər cür nəfsani arzularını və pis əməllərini təsdiq etdirəcəyi, heç bir hökmü olmayan, bir növ ölü büt və xəyali tanrı anlayışıdır. Bir tərəfdə bu qədər əzəmətli aləmlər yaradan və onları idarə edən bir güc, digər tərəfdə idarəetməni qullarına və yaratdıqlarına həvalə etmiş hökmsüz bir büt. Belə olsaydı, bütün aləmlər darmadağın olmazdımı?

Deistlərin təsəvvür etdiyi şey xəyal məhsulu və yalnız sözdən ibarət olan bir tanrı anlayışıdır. Heç bir əmri olmayan bütdür. Heç bir zülmə mane olmayan büt. Haqq və hüquq anlayışı olmayan büt. Əxlaq qaydaları qoymayan büt. Məzlumlara qarşı rəhmət və mərhəməti olmayan büt. Yəni məzlumlara biganə qalıb zülmə əhəmiyyət verməyən zalım bir büt. Şikəst təxəyyülün uydurduğu saxta bir icad!



Deizm adlanan bu batil anlayış guya yaradanı qəbul edir. Lakin bununla həqiqi Allahı deyil, özünün uydurduğu antropomorfik və əslində olmayan bir varlığı xəyali olaraq qəbul edir.

Belə bir inancın heç bir məntiqi tərəfi yoxdur. Bu, eynilə Günəş tutulması kimi, sadəcə ağıl tutulmasıdır.

Bütpərəstliyin hökm sürdüyü qədim Yunanıstanda qəbul etməyə məcbur olduqları bir "Mühərriki-Əvvəl", yəni ilk hərəkət etdirici varlığa möhtac olma doqmasından doğan deizm anlayışı vardı. Həm uydurduqları bütlərə, həm bütləşdirdikləri ağıllarına tabe olacaq, həm də qəbul etmək məcburiyyətində olduqları bir yaradana inanaraq vicdanlarını sakitləşdirəcəkdilər.

Son əsrlərin xristian dünyasında da buna bənzər bir təmayül müşahi-

də olundu. Təhrif olunmuş xristianlıq ağılın, elmin və insanlığın qarşısında tamamilə məğlub olduqda onun müəssisəsi olan kilsə və papalıq inkar edildi.

Məlum olduğu kimi, xristianlıq tamamən bəşər məhsuluna çevrilmişdir. Təməlində peyğəmbər olmayan Pavlos vardır. Əqidəsini kralın təzyiqi altında toplanan konsullar formalaşdırmışdır. Bu gün qeyd etdikləri Noel (yeni il) şənlikləri belə dinə sonradan əlavə etdikləri əyləncə adətləridir. Başqa bir misal: kardinallar yığışaraq bu yaxınlarda ölən papaya "cənnətlik" titulu verdilər.

Əlbəttə ki, belə bir din nə ağılı, nə vicdanı, nə də qəlbi razı salar. Bu səbəblə də Qərb dünyasında kilsəni və din adamlarının ortaya qoyduğu xürafələri rədd edən, lakin tanrını qəbul edən bir anlayış meydana çıxdı: DEİZM.



Deistlərin təsəvvür etdiyi şey xəyal məhsulu və yalnız sözdən ibarət olan bir tanrı anlayışıdır. Heç bir əmri olmayan bütdür. Heç bir zülmə mane olmayan büt. Haqq və hüquq anlayışı olmayan büt. Əxlaq qaydaları qoymayan büt.

Şikəst təxəyyülün uydurduğu saxta bir icad!

AXİRƏT VAR!..

Xaricdə vüsət tapan bu cərəyanları nəzərə alsaq, yaşadığımız dövr cahiliyyə dövründən fərqlənmir. Cahiliyyə dövrünün əsas əlamətlərindən biri axirəti inkar etmək idi.

Çünki nəfsə uymağın nəticəsi zülm və haqsızlıqdır. Eqoizm, xəsislik, təkəbbür və azğınlıqdır. Bunlar isə Allaha və qullarına qarşı saysız-hesabsız günah işləməyə səbəb olur.

Etdiklərinin bir gün hesabının soruşulacağına iman etmək insanı ədalətli və gözəl əxlaq sahibi olmağa, haqq-hüquq xüsusunda dəqiqliyə, yəni təqvaya sövq edər.

Lakin nəfsinin əsirinə çevrilənlər bundan narahat olarlar.



Havada 77 faiz azot, 21 faiz oksigen olmaqla qoyulan həssas nizamı heç düşündünmü? Bütün məxluqatın yaşaya bilməsi üçün atmosferdəki bu həssas tarazlıq şərtdir. Bunu bizim üçün kim yaratdı?

Vaxtilə Zincirliquyu Qəbiristanlığının qapısına **"Hər canlı ölümü dadacaq..."** (əl-Ənkəbut, 57) ayəsi yazılanda bir çox jurnalist:

"Hər gün qarşısından keçərkən oxuduğumuz bu yazı bizi bədbinliyə sürükləyir, yığışdırın bunu!" – deyə şikayət etmişdi.

Müasir şəhərsalmada məzarlıqların şəhərdən kənarda qurulmasının da səbəbi bu qaçışdır.

Halbuki bir iman mədəniyyəti olan Osmanlıda məzarlıqlar şəhərin içərisində, məscid həyətində salınardı ki, insanlar daim fanilik şüuru içində yaşasınlar. Əbədi olanın yalnız Allah-Təala olduğunu və Onun hüzu-

runda həşr olunacaqlarını unutmasınlar.

Ateizm, deizm və sekulyar cərəyanların tələqin etdiyi cahil dünyada axirət inancına yer yoxdur. Acımasızlıq, qəddarlıq və vəhşət var. Tarix boyu bunu Əndəlüsdə, xaçlı səfərlərində, yaxın keçmişdə Qafqazda, Bosniyada və İraqda, bu günsə Suriyada, Yəməndə və Myanmada gördük.

İslamın xitab etdiyi ilk nəsildə də axirətdən qaçış meyli vardı. Quranın ilk nazil olan surələri dəhşətli bir şəkildə qiyamət və axirət mənzərələri ilə onlara xəbərdarlıq etdi:



"Sabah birdən oksigen azalar, havasız qalaram", - deyə özü ilə oksigen balonu gəzdirən adam varmı? Allaha inanmayanlarda belə müşahidə olunan bu arxayınlıq ilahi qüdrətə etimad deyilmi?

Müşriklər ölümdən sonra yenidən dirilmə həqiqətini **"Böyük Xəbər"** adlandırdılar.

"Birdən o böyük xəbər olan axirət və hesab gerçəkdən olsa və biz yenidən dirilsək, necə olacaq?" – deyə öz aralarında tələşlə müzakirə etməyə başladılar. Bu xüsus ayeyi-kərimələrdə belə bəyan edilir:

عَمَّ يَتَسَآءَلُونَ ﴿١﴾ عَنِ النَّبَإِ الْعَظِيمِ ﴿٢﴾ الَّذِي هُمْ فِيهِ مُخْتَلِفُونَ ﴿٣﴾

"(Bu müşriklər) bir-birindən nə haqqında soruşurlar? Böyük bir xəbər (qiyamət günü) **haqqında! Elə bir xəbər ki, onun barəsində ixtilafdadırlar".** (ən-Nəbə, 1-3)

Bu gün də müasir cahiliyyə dövründə nəfsani həyatın bataqlığında çırpınanlar axirətdən qaçmağa can atırlar.

Əfsus!

“Məhz o gün insan: “Qaçıb can qurtarmağa yer haradadır?” – deyəcəkdir. Xeyr, (o gün) **heç bir sığınacaq olmayacaqdır!”.** (əl-Qiyamə, 10-11)

Unutmamaq lazımdır ki, ta qədimdən bəri bəşəriyyət peyğəmbərlər vasitəsi ilə irşad olunsa da ölüm məsələsi beyinləri məşğul etmiş, zəhərli ilan kimi zehinlərdə qıvrılıb yatan və zaman-zaman qorxunc həmlələrlə qımıldanan bu sual müxtəlif nəfsani qorxularla susdurulmaq istənmişdir. Halbuki hər kəsi alov çənbəri halında əhatə edən ölüm hadisəsinin heç bir istisnası olmadan başlara çökməsi gələcək əndişəsi halını aldıqda onun həqiqətindən xəbərdar ola bilmək və ölümü gözəlləşdirmək ən mühüm bəşəri səy olmalıdır.



Etdiklərinin bir gün hesabının soruşulacağına iman etmək insanı ədalətli və gözəl əxlaq sahibi olmağa, haqq-hüquq xüsusunda dəqiqliyə, yəni təqvaya sövq edər.

Lakin nəfsinin əsirinə çevrilənlər bundan narahat olarlar.

Bəşər idrakı ilə qavranması mümkün olmayan qəbir və axirət həyatı yalnız vəhyin və peyğəmbərlərin bəyanları sayəsində aydınlığa qovuşa bilər. Bütün peyğəmbərlərin, xüsusilə də Hz. Muhammməd (s.ə.s)-in bildirdiyi bu gələcək xəbərini təşəkkür və minnətlə qarşılamalı olduğumuz halda ateist və deistlər kimi ona biganə qalmaq necə də həzin bir qəflətdir!..

Axirət olmasaydı, dünyaya gəlişin və bu dünya dərsxanasının da heç bir məntiqi olmazdı.

Səlim ağılla düşünmək lazımdır ki,

- Dünyaya gələn nə üçün gəlir?
- Kimin mülkündə yaşayırıq?
- Bu qədər məxluqatı insanların xidmətinə kim verdi?
- Bu gediş haraya?
- Bu axış haraya?

Cahiliyyə dövründə müşrik olan Hind İslamın kölələrlə ağalara bərabərhüquqlu münasibətini eşidib təəccübləndi. "Belə də din olar? İndi mən hansısa bir kölə ilə bərabərəmmi?" – deyərək bu ədalətə etiraz etdi.



Vaxtilə Zincirliquyu Qəbiristanlığının qapısına* "Hər canlı ölümü dadacaq..."** (əl-Ənkəbut, 57) ***ayəsi yazılanda bir çox jurnalist:

"Hər gün qarşısından keçərkən oxuduğumuz bu yazı bizi bədbinliyə sürükləyir, yığışdırın bunu!" ***– deyə şikayət etmişdi.***

ƏHKAMSIZ DİN OLMAZ!

Deizmin müxtəlif qolları olmaqla yanaşı, hər birinin xülasəsi əhkamsız, şəriətsiz, fiqhdən uzaq, yəni halal-haramları və təlimatları olmayan bir din xəyal etməkdir. Bir növ, **"din mənim keyfimə görə olsun, heç bir istəyimə qarışmasın"** deməkdir.

Halbuki Allah-Təala kainatı bir nizam içində yaratdığı kimi, insana da şəriət göndərmişdir.

Ayeyi-kərimədə buyurulur:

"Göyü O ucaltdı, mizanı (nizam və ölçünü) **O qoydu! Əsla o mizanı pozmayın".** (ər-Rəhman, 7-8)

Yaradılışın qayəsi qulluqdur. İmtahan dünyasından məqsəd bu qayənin gerçəkləşib-gerçəkləşmədiyinin meydana

çıxmasıdır. Məktəbdə tənbəl tələbələr imtahan və tapşırıq olmasını istəməzlər. Amma bunlar olmasa, məktəbin qayəsi gerçəkləşməz.

Lakin çalışqan tələbələr hədəflənən təhsili gerçəkləşdirə bilmək üçün məktəbə gəldiklərini dərk edib imtahan və tapşırıqları sevərlər. Verilən tapşırıqları böyük əzmlə yerinə yetirməyə çalışarlar.

Eynilə bunun kimi, zülmün hökm sürdüyü bir mühitdə zalımlar ədalət istəməzlər. Qəddarlar da mərhəmət istəməzlər.

Lakin mərhəmətli insanlar əmin-amanlıq və ədalətin olmasından razı qalarlar. Hətta bunu təsis etmək üçün səy göstərərlər.

Çünki torpağına mərhəmət toxumları səpilməyən, zülm bombardmanları altında inildəyən ölkələr matəm ab-havasının əsdiyi məzlum ölkələrdir. Bu gün kapitalist dünya tərəfindən işğal olunan **Suriya, İraq, Yəmən, Myanma, Fələstin** kimi ölkələrin hər biri matəm yurduna çevrilmişdir. Çünki kapitalist dünyadan mərhəmət üz döndərib, yerinə başqalarını düşünməyən vəhşilik gəlib.



Axirət olmasaydı, dünyaya gəlişin və bu dünya dərsxanasının heç bir məntiqi olmazdı.

Mərhəmətdən yoxsul insan ən böyük xəzinəni və səadət qapısını açan açarı itirmişdir.

Mərhəmət müsəlmanın qəlbində heç vaxt sönməyən məşələ bənzəyər. Müsəlmanı qeyri-müsəlmanlardan ayıran xüsusiyyət onlardan daha çox mərhəmət sahibi olmasıdır.

İmansızlar və kafirlər mərhəmətdən uzaqdırlar.

Mərhəmət bu dünyada insanlığımıza şahid olan və qəlb yolu ilə bizi Allaha yaxınlaşdıran ilahi cövhərdir.

Orucun bizə verdiyi ilk dərs mərhəmət dərsidir. Bizim mərhəmətsizliklə tutulan qəlb gözümüzü açar.

Dini maarifləndirmə aparılan yerlər də mərhəmət məktəbi olmalıdır. Əgər o divarların arasına eşq yerinə mənlik duyğusu girərsə, mərhəmət ağacı tumurcuq açmadan quruyar.

Qurani-Kərim yaradılışın qayəsiz və məqsədsiz olmadığını dərk etdirmək üçün soruşur:

"Məgər insan elə güman edir ki, o, başlı-başına (cəzasız) **buraxılacaq?!".** (əl-Qiyamə, 36)



Səlim ağılla düşünmək lazımdır ki,

** Dünyaya gələn nə üçün gəlir?*

** Kimin mülkündə yaşayırıq?*

** Bu qədər məxluqatı insanların xidmətinə kim verdi?*

"Yoxsa sizi əbəs yerə yaratdığımızı və (qiyamət günü dirilib haqq-hesab üçün) **hüzurumuza qaytarılmayacağınızı güman edirdiniz?".** (əl-Muminun, 115)

Dünya mənfiliklərlə doludur.

Azğın bir qatilin başıboş buraxılmasının nələrə yol açacağını düşünün.

Vəhşi bir qurdun quzuların arasında başıboş qaldığı zaman nələr olacağını düşünün.

Eynilə bunun kimi, insan da dünyada nə qədər başqalarının haqqını yeyir. Bunların hesaba çəkilməyəcəyini düşünmək mümkün deyil.

Bu möhtəşəm kainatın və əhsəni-təqvim olan insanın özbaşına buraxılacağını zənn etmək heç bir məntiqə sığmır. Belə bir zənnə qapılmaq isə ağılı heçə saymaqdan başqa bir şey deyil. Ən azad dünyəvi sistemlərdə belə həbsxanaların hər zaman ağzına kimi dolu olması bunun sübutudur.

Din ağıl ilə olsaydı, bu gün hər ağıla görə bir din zühur edər, beləliklə, milyardlarla din bir-biri ilə mübarizə aparardı. Heç kim başqasını saymaz, hamı digərlərini yox etmək üçün çalışardı.



Cahiliyyə müşriklərində axirətdən qaçış vardı. Bu gün də müasir cahiliyyə dövründə nəfsani həyatın bataqlığında çırpınanlar axirətdən qaçmağa can atırlar. Əfsus!

"Məhz o gün insan: "Qaçıb can qurtarmağa yer haradadır?" – deyəcəkdir. Xeyr, (o gün) heç bir sığınacaq olmayacaqdır!". *(əl-Qiyamə, 10-11)*

Filosofların bir-birilərini təkzib etməsinin, yəni yalanlamasının səbəbi də budur. Məsələn, antik Yunanıstanda filosoflar ağıllarına görə özlərini bütləşdirərək saysız-hesabsız tanrı ortaya çıxarmış, guya onları bir-biri ilə qohum etmişdi. Eyni filosoflar ağılları ilə bütün toplumları sürü sayaraq insanları kölələşdirmiş, məhv etmişdir. Nəticədə onların, xüsusilə də Aristotel kimilərinin kitabları tozlu rəflərdə qalmışdır. Nə özlərinə, nə də bəşəriyyətə işıq saça bilməmişdir.

Bunun əksinə, peyğəmbərlər bir-birilərini təsdiq edərək gəlmiş və cəmiyyətdə ümumi hüzuru bərqərar etmişlər.



Müşriklər ölümdən sonra yenidən dirilmə həqiqətini "Böyük Xəbər" adlandırdılar.

"Birdən o böyük xəbər olan axirət və hesab gerçəkdən olsa və biz yenidən dirilsək, necə olacaq?" – deyə öz aralarında tələşlə müzakirə etməyə başladılar.

Bu gün "qlobal mədəniyyət" İslam coğrafiyasını istila etmişdir. Düşmənin bir yeri istila etməsi kimi bu gün də belə bir istila hakimdir. İnsan nəfsini təhrik edən reklamlar, lüks və dəbdəbəni qamçılayan modalar, televiziyada göstərilən lüzumsuz verilişlər, internetin qaranlıq dalanları və mənfi təlqinləri özü ilə birlikdə dəhşətli mənəvi erroziya gətirir. İnsanların ağıl və könül dünyaları dəhşətli xaosa sürüklənir.

Məqsəd və vasitə bir-birinə qarışır. Həyat keyf üçün yeyib-içməkdən ibarət olur. Qəlblər dünyanın əsiri, nəfslər şəhvani arzuların köləsinə çevrilir. Ruhlarda baş qaldıran doyumsuzluq bəşəriyyəti fərdi və ictimai böhrana sürükləyir.

İnsanlara axirət əndişəsindən uzaq, axirətsiz dünya anlayışı təlqin olunur. İslam aləmini öz dəyərlərinə yadlaşdırmaq istəyən materialist Qərb dünyasının da təlqinləri ilə insanlar addım-addım dindən-imandan uzaqlaşır, mənəvi böhranlara sürüklənirlər. Təəssüf ki, İslam layiqincə bilinmir və öyrədilmir.

Təxminən iyirmi-otuz il bundan əvvəl İstanbulda yaşanan bir hadisəni misal vermək istəyirəm:

Fransız Kommunist Partiyasının katibi **Roje Qarodi** İstanbula gəlmişdi. Yıldız sarayında konfrans verirdi. Ona belə bir sual verdilər:

“Bir vaxtlar kommunist idiniz. Üstəlik Marksın bütün fikirlərini yenidən nizamlayacaq dərəcədə bir kommunist idiniz. İndi isə müsəlman olmusunuz. Nə üçün katolik idiniz, kommunist idiniz? İndi niyə müsəlman olmusunuz?”.

Bu cavabı verdi:

“Bəli, mən katolik idim. Oxumaq üçün Amerikaya getdim. O dövrdə inhisarçı holdinqlər tonlarla buğdanı yandırır, tonlarla südü çirkaba axıdırdılar. Bunu etmələrinin səbəbi yalnız öz monopoliyalarını gücləndirmək idi. Daxilən bu mərhəmətsizliyə üsyan etmək istədim. Bu üsyan məni kommunizmə sürüklədi.

Gördüm ki, kommunizm də quru bir məfkurədən ibarətdir, heç bir mənəvi tərəfi yoxdur. Xristianlıq ilə kommunizm arasında bir körpü qurmağa, mənəviyyat verməyə çalışdım, amma bu da alınmadı.



Heyvanların belə bir yaradılış qayəsi var. Hər biri həmin qayə istiqamətində hüzur içində yaşayar. “Məgər insan elə güman edir ki, o, başlı-başına (cəzasız) buraxılacaq?!”. *(əl-Qiyamə, 36)*

Sonra mənim üçün ölüm hökmü çıxarıldı. Harda görsələr, güllələyəcəkdilər. Lakin əlcəzairli bir əsgər mənə göz yumdu və mən qaçdım.

Sosioloq olduğum üçün o əsgərin məni nə üçün buraxdığını öyrənmək istəyirdim. Axtarıb həmin adamı tapdım. Haqqımda güllələnmə əmri olduğu halda məni nə üçün buraxdığını soruşdum. Belə cavab verdi:

“Mən müsəlmanam, sənin nə günah işlədiyini bilmirəm. Səni nə üçün öldürəcəklərini bilmirəm. Buna

alət olmaq istəmədim. Ona görə sənə göz yumdum, sən də qaçdın".

O günə qədər mən İslamı qəbilə dini zənn edirdim. Bu cavab diqqətimi çəkdi. Eyni zamanda iqtisadçı olduğum üçün iqtisadi sistemini araşdırmaq istədim. Faiz nədir, kommunizmdə necədir, İslamda necədir, hara qədər qadağandır, hüdudları nələrdir? Bu kimi xüsusları araşdırdım.

(Bilal Həbəşini nəzərdə tutaraq) Bilalın yaşadığı bir hadisə məni xilas etdi. Bir gün Bilal Allah Rəsuluna bir xurma aparır. Həzrət Peyğəmbər:

"Bunu haradan aldın?", - deyə soruşduqda Bilal:

"Bizdə adi xurma vardı. Rəsulullah (s.ə.s)-in yeməsi üçün ondan iki ölçək verərək bundan bir ölçək satın aldıq", - deyir. Bunun üzərinə Hz. Peyğəmbər (s.ə.s):

"Təəssüf! Bu, ribanın/faizin elə özüdür, əsla belə etmə! Əgər keyfiyyəti yüksək xurma almaq istəsən, əlindəkini ayrı sat, sonra onun pulu ilə daha keyfiyyətlisini al!", - deyir.

Gördüm ki, Allah Rəsulu faizə azacıq da olsa, yol açmır. Bu vəziyyət məni İslamı daha çox tədqiq etməyə sövq etdi.

İslam iqtisadiyyatını araşdırarkən Əbu Hənifə kimi böyük bir dahi ilə qarşılaşdım. Çox təəssüf ki, bu gün dünya çapında Əbu Hənifə kimi bir dahini müsəlmanlar tanımırlar.



"Yoxsa sizi əbəs yerə yaratdığımızı və** (qiyamət günü dirilib haqq-hesab üçün) **hüzurumuza qaytarılmayacağınızı güman edirdiniz?"

(əl-Muminun, 115)

Əbu Hənifənin hüquq anlayışını müsəlmanlara mən öyrədirəm, halbuki yeni müsəlman olmuşam.

Siz sağlamsınız, lakin xəstə olduğunuzu zənn edirsiniz. Nəticədə xəstə olan Qərbi təqlid edirsiniz. Heç sağlam adam da xəstəni təqlid edər?!"

Deməli, hər şeydən əvvəl öz dəyərlərimizin fərqinə varmalıyıq. Bizim üçün müqəddəs olanların qədrini bilməliyik. Əks təqdirdə, Allah qorusun, xəzinənin üstündə aclıqdan ölən bədbəxtlərdən heç bir fərqimiz qalmaz.

Həqiqətən də bu gün Qərb dünyası xəstədir. Çünki mənfəətpərəstdir, həyat fəlsəfəsi praqmatikdir. "Qoy etsinlər" deyərək bütün şər və haram işləri mübah görür. Xristianlıq ruha qida olmur, çünki içərisi boşdur. Xristianlıq ilk zərbəni **Pavel**dən aldı. Pavel şəriəti aradan qaldırdı.



Roje Qarodi:

Çox təəssüf ki, bu gün dünya çapında Əbu Hənifə kimi bir dahini müsəlmanlar tanımırlar. Əbu Hənifənin hüquq anlayışını müsəlmanlara mən öyrədirəm, halbuki yeni müsəlman olmuşam.

"Siz Ata, Oğul və Ruhulqüdsə inanın, gerisini buraxın", - dedi.

"Tövratın hökmləri sizin üzərinizdən qalxmışdır, qanun və hökm vermək Sezara aiddir", - dedi.

Yəni "Ürəyiniz istəyən kimi yaşayın, dünyəvi hüququ krallar təsis edəcək", - dedi.

Bu da kralların işinə yaradı. Sonra ard-arda konsullar toplandı. Bu konsullarda xristianlığın əqidə sistemi din adamları tərəfindən yenidən təsis olundu. Yəni əqidəvi məsələlərə insanlar qərar verdi.

325-ci ildə çağırılan **İznik Konsulu Həzrət İsanın** Rəbb olduğuna qərar verdi.

381-ci ildə gerçəkləşən İstanbul Konsulu Ruhulqüdsün də Rəbb olduğunu qəbul etdi.

431-ci ildə çağırılan **Efes Konsulunda Həzrət Məryəmə** "tanrı dünyaya gətirən" sifəti verildi. Həzrət İsanın həm insan, həm də tanrı olduğu, yəni iki təbiətli varlıq olduğu qəbul edildi.

451-ci ildə gerçəkləşən **Kadıköy Konsulunda** isə Həzrət İsada bir təbiətin, yəni tanrılıq vəsfinin olduğunu söyləyən Şərq kilsələrinin (Misir qiptiləri, ermənilər, süryanilər, həbəşlilər) batil yolda olduğu elan edildi.



Roje Qarodi:

"Siz sağlamsınız, lakin xəstə olduğunuzu zənn edirsiniz. Nəticədə xəstə olan Qərbi təqlid edirsiniz. Heç sağlam adam da xəstəni təqlid edər?!"

787-ci ildə çağırılan **İkinci İznik Konsulunda** ikonalara sitayiş etməyin günah olmadığına qərar verildi. Halbuki daha əvvəl 200 il ərzində ikonalara sitayiş etməyin günah olub-olmadığı haqda mübahisə edilmiş, hətta bəzi dövrlərdə imperator ikonalara sitayişi qadağan etmişdi.

Ortodokslar (provaslavlar) ilk 7 konsulu qəbul edirlər. Katolik xristianlarsa sonuncusu 1965-ci ildə çağırılan 21 konsulun hamısını qəbul edirlər. Vatikanın təşkil etdiyi sonuncu konsulda digər məzhəb və dinlər arasında "dialoq"a dəvət oldu.

Xülasə, bugünkü xristianlığın əqidəsini konsullar formalaşdırdı. Şəriəti ortadan qaldırdılar, dinin içini boşaltdılar.

Kilsə müəyyən məbləğ qarşılığında günah çıxarma üsulu ortaya qoydu. Bir insan özü kimi başqa birinin günahını çıxarmağa başladı.

Bunun əksinə, İslam hər bir yönü ilə mühafizə altındadır. **Qurani-Kərim Allahdan Hz. Peyğəmbərə** nazil olduğu şəkildə, kiçicik bir təhrifə məruz qalmadan əlimizə gəlib çatmışdır.

Hz. Peyğəmbərin tətbiqatı olan Sünneyi-Səniyyə həssas çalışmalar nəticəsində əlimizdədir.

İlk əsrdən etibarən səhabələrin fətvaları və yetişdirdikləri tələbələri ilə yaranan məzhəblər ayaqdadır.

Bütün bu həqiqətlərə rəğmən zəmanəmizdə:

- İslamın da reforma ehtiyacının olduğu,
- Məzhəblərin əslində gərəksiz olduğu,
- Hədisi-şəriflərin tamamının və ya əksəriyyətinin uydurma olduğu,
- Ayələrin də müəyyən məkana və tarixə aid olduğu, nəticə olaraq da bu gün tətbiqinə ehtiyac qalmadığını irəli sürən əsilsiz fikirlər ortaya atılmaqdadır.

Beləliklə, xristianlıqda olduğu kimi, İslamda da reform etməyə çalışılır.

Halbuki İslam son haqq din olaraq qiyamətə qədər ilahi təminat altındadır. Əhli-sünnə vəl-cəmaat



Hər şeydən əvvəl öz dəyərlərimizin fərqinə varmalıyıq. Bizim üçün müqəddəs olanların qədrini bilməliyik. Əks təqdirdə, Allah qorusun, xəzinənin üstündə aclıqdan ölən bədbəxtlərdən heç bir fərqimiz qalmaz.

yolu adlandırdığımız bu həqiqəti Hz. Peyğəmbər belə xəbər vermişdir:

"Qiyamətə qədər hər dövrdə ümmətimdən bir qrup çıxar və həqiqətin ortaya çıxıb yaşaması üçün mücadilə aparar. Onlar daim Haqq-Təalanın yardımına məzhər olar və nəticədə qalib gələrlər". (Müslim, İman, 247; İmarə, 173)



"Qiyamətə qədər hər dövrdə ümmətimdən bir qrup çıxar və həqiqətin ortaya çıxıb yaşaması üçün mücadilə aparar. Onlar daim Haqq-Təalanın yardımına məzhər olar və nəticədə qalib gələrlər". (Müslim, İman, 247; İmarə, 173)

Yeganə haqq din olan İslam mükəmməldir. Mükəmməlinsə özündən aşağıda olana ehtiyacı yoxdur. Yəni İslam heç bir bəşəri sistemdən və ya təhrifə uğramış dindən götürüləcək hər hansı bir protezə möhtac deyil.

Cəmiyyətin dini sahədəki savadsızlığından istifadə edərək ekranlara doluşan, din xüsusunda artıq-əskik danışan, bu zəlalətləri, sapqınlığı dilə gətirənlər, İslamın təməl ünsürləri haqqında şübhə yaymağa çalışanlar müstəşriklərin fikirlərini öz fikirləri kimi insanlara sırımağa çalışanlar, təəssüf ki, saf zehinləri qəflətə sürükləməkdədirlər.

İnsan məzhəbə tabe olmayacaqsa, hədisi-şəriflərə etibar etməyəcəksə, Quranın da bu günə aid olmadığını iddia edəcəksə, geriyə nə qalar? Əlbəttə ki, deizm kimi maskalanmış inkar taktikaları. Bütün bunlar İslamın təməllərini sarsıtma tələləridir.

Necə ki, ölkəmizdə reformist, modernist ilahiyyatçı deyildikdə ağıla gələn ilk şəxsin deizmə rəvac vermək üçün

yazdığı xüsusi bir kitabının olması da təsadüf deyil. 2018-ci ildə qurulan Deizm Dərnəyinin çıxardığı broşurada həmin ilahiyyatçı ilə birlikdə Sünnəni rədd edən başqa bir ilahiyyatçıya da təşəkkür edilir.

Bizim vəzifəmiz deizmin əsla və qətiyyən məqbul iman olmayacağını, hər halı ilə əcnəbi ünsür və cahiliyyə məhsulu olan bu anlayışın digər inkar növlərindən – şirkdən, ateizmdən və s. heç bir fərqinin olmadığını ortaya çıxarmaqdır.

Bir digər vəzifəmiz imanın əhəmiyyətini insanlara çatdırmaqdır. İman qəlb adlanan çırağın işığına bənzədilərsə, onu bu cür güclü küfr küləklərinin söndürməsindən qorumaq üçün üzərinə bir fanus keçirmək lazımdır.

O fanus da:

- İnandığına əməl etməkdir.
- Haramlardan uzaq durmaqdır.
- Saleh əməllərdir.
- Saleh və sadiqlərlə birlikdə olmaqdır.



İman qəlb adlanan çırağın işığına bənzədilərsə, onu bu cür güclü küfr küləklərinin söndürməsindən qorumaq üçün üzərinə bir fanus keçirmək lazımdır.

Çünki **“İnandığı kimi yaşamayanlar, yaşadıqları kimi inanmağa başlayarlar”.**

Çünki **İmam Şafei**nin də buyurduğu kimi: **“Özünü haqq ilə məşğul etməsən, batil səni işğal edər”.**

Gənclər arasında yayılan “Mən deistəm, mən modernistəm” kimi boş sözlərin böyük əksəriyyəti şüur-

suz bir heyranlıqdan və əcnəbi dünyanı kor-koranə təqliddən başqa bir şey deyil.

Təəssüf ki, zəmanəmizdə universitet gəncliyinin yaşadığı mühit bu cür mikrobların yayılması üçün çox əlverişlidir. Bunun da çarəsi "Əsl təqlid"in nə olduğunu təkrar düşünmək dir.

Ata-analar təhsil adı ilə övladlarını bu cür mikroblu mühitlərə öz əlləri ilə göndərirlər.

Bu gün ali təhsil ocaqlarında iki təhlükə var:



İman işığını qoruyacaq fanus:

** İnandığına əməl etməkdir,*

** Haramlardan uzaq durmaqdır,*

** Saleh əməllərdir,*

** Saleh və sadiqlərlə birlikdə olmaqdır.*

• Özünə yadlaşmış və nəfsaniyyətin əsiri olmuş halda qəflət və zəlalət içində yaşayış, qarışıq qadın-kişi münasibətləri, fikri və əməli təhrifatlar... Şəxsiyyət və xarakter hərc-mərcləri...

Qəlbi bu təhlükələrdən qorumaq zəruridir.

İmam Qəzzali həzrətlərinin buyurduğu kimi, fasiqlər və qafillərlə zahiri bərabərlik zamanla zehni bərabərliyə, zehni bərabərliksə bir müddət sonra qəlbi bərabərliyə çevrilər. Bu isə insanın addım-addım həlaka sürüklənməsi deməkdir. Necə ki, Nuh (ə.s)-ın ikinci arvadı və Lut (ə.s)-ın arvadı bu səbəblə cəhənnəmə düçar olmuşdular.

Hz. Peyğəmbər (s.ə.s) Səmud qövmünün neçə əsr əvvəl əzaba uğradığı xarabalıqdan keçərkən əshabına xəbərdarlıq etdi:

"Buradan tez və hüznlü halda keçin, su götürməyin, götürmüsünüzsə boşaldın!". (Bax. Buxari, Ənbiya, 17)

Bu gün səhər-axşam ekranlardan, telefonlardan, televizorlardan və çirkab dolu küçələrdən əhli-küfrün yaydıqlarını seyr edən, təbliğatlarına məruz qalan insanımızın halını düşünək.

Əgər təlim-tərbiyə və tədris cəhdlərimizdən soyusaq, əmri bil-məruf, nəhyi anil-münkər sayılan çalışmalarımızı gərəyincə yerinə yetirməsək, bizim övladlarımız başqasının olar. Ayeyi-kərimədə şeytanın övladlara ortaq olmasından söz açılır. Belə olan halda bioloji ata-ana olmaq heç nə ifadə etmir. Əgər övladımızı şeytan əmizdirirsə, əhli-küfr bəsləyirsə, deməli, onların övladıdır. Bunlara diqqət etmək lazımdır.

- **Dini təhsildə** isə modernist və müstəşriklərdən idxal olunan xəstə düşüncələrə qarşı övladlarımızı sağlam dini təhsilə yiyələndirməliyik.



"İnandığı kimi yaşamayanlar, yaşadıqları kimi inanmağa başlayarlar".

Çünki İmam Şafeinin də buyurduğu kimi: **"Özünü haqq ilə məşğul etməsən, batil səni işğal edər".**

Rəsulullah (s.ə.s) Abdullah ibn Ömər (r.anhumə)-yə belə buyurmuşdur:

"Ey İbn Ömər, dinindən möhkəm yapış. Çünki o sənin həm ətin, həm də qanındır. Dinini kimdən öyrəndiyinə diqqət et. Dini elmləri və hökmləri istiqamət əhli olan alimlərdən öyrən, sağa-sola meyil edənlərdən öyrənmə!". (Xatib əl-Bağdadi, əl-Kifayə fi İlmir-rivayə, əl-Mədinətul-Münəvvərə, əl-Məktəbətul-İlmiyyə, s. 121)

ÜÇ FİTNƏ

Bu gün islami tədrisatın önündə üç fitnə var:

• **Birincisi:** İctihad və məzhəbləri gərəksiz göstərərək hər kəsi müctəhidə çevirməyə çalışırlar. Bu təlqinlərin nəticəsində hər kəs, hətta bir çox cahil belə "Mənə görə..." deyərək özündən yenilik kəşf edir. Bu isə, Allah qorusun, dinin zəifləyib əldən getməsi deməkdir. Bəzilərinin deizmin önünü açma cəhdləri də məhz özünə bu zəmində yer etməkdən qaynaqlanır.



Hz. Peyğəmbər (s.ə.s) Səmud qövmünün neçə əsr əvvəl əzaba uğradığı xarabalıqdan keçərkən əshabına xəbərdarlıq etdi:

"Buradan tez və hüznlü halda keçin, su götürməyin, götürmüsünüzsə boşaldın!". (Bax. Buxari, Ənbiya, 17)

Halbuki məzhəblər səhabələrdən etibarən müctəhid alimlərin ən səhih görüşlərinin bir araya toplandığı fiqh məktəbləridir. Onlardan birini seçmək zəruridir. Hamısını tərk etmək caiz deyil. Çünki hər biri Quran və Sünnə üzərinə inşa edilmiş hökmlərdir.

• **İkincisi:** İnsanların Sünneyi-Səniyyəyə baxış tərzinə şübhə qarışdırmağa çalışırlar. Bunu da, guya, Quranı ön plana çıxarmağa çalışdıqlarını iddia edərək hiyləgərcəsinə həyata keçirirlər.

Halbuki Qurani-Kərim Hz. Peyğəmbərin mübarək qəlbinə nazil olmuşdur. Quranın təbliği də, bəyanı da, təlimi də Peyğəmbərimizə aiddir. Quranın ən səlahiyyətli təfsiri Fəxri-Kainat (s.ə.s)-in sünnəsidir. Sünnə Qurani-Kərimin tətbiqatıdır. Ondan ayrı deyil. Onun ayrılmaz parçasıdır.

Kitab və Sünnə İslamın iki ana damarıdır. İki ana sütunudur.

• **Üçüncüsü:** Qurani-Kərimin hökmləri var, Rəbbimizin bizə təlimatı. Bu hökmlərdən nəfslərinə ağır gələnləri "tarixi keçib" deyərək arxa plana atmağa çalışırlar. "Bu ayələr keçmişə aiddir", - deyərək Quranın hökmünü ləğv etməyə çalışırlar. Bu da eynilə şeytanın Allah-Təalaya qarşı mücadilə etməsinə bənzəyir. Məlum olduğu kimi, Allah-Təala Hz. Adəmi yaradanda mələklərə "Adəmə səcdə edin!", - deyə əmr etdi.

Buradakı səcdədən məqsəd ibadət deyil, ehtiram idi. İblis təkəbbürlənərək, həsədə qapılaraq səcdə etmədi. Nə üçün səcdə etmədiyi soruşulduqda:

"Nəfsimə uydum, bağışlanmağımı diləyirəm", - demədi, əksinə:

"Mən oddan yaranmışam, Adəm isə torpaqdan. Mən ondan daha üstünəm", - deyə əsassız yerə ağıl yürütdü.

Halbuki Allah-Təala iblisə:

"Sən üstünsən, yoxsa Adəm?", - deməmişdi. Ona səcdə etməyi əmr etmişdi.

Beləliklə, Allaha qarşı ilk dəfə baş qaldıran İblis oldu. İblis bu təkəbbürü səbəbi ilə ilahi hüzurdan qovuldu. Əbədi lənətə düçar oldu. (Bax. əl-Əraf, 12-13; Sad, 71-78)

Bu da Quranın tarixi olduğu iddiasının çirkin halı...



"Ey İbn Ömər, dinindən möhkəm yapış. Çünki o sənin həm ətin, həm də qanındır. Dinini kimdən öyrəndiyinə diqqət et. Dini elmləri və hökmləri istiqamət əhli olan alimlərdən öyrən, sağa-sola meyil edənlərdən öyrənmə!". (Xatib əl-Bağdadi, əl-Kifayə fi İlmir-rivayə, s. 121)

Haqq-Təala qiyamətə qədər bütün insanlığa hidayət rəhbəri olan Qurani-Kərimi lütf etdi. Qiyamətə qədər başqa peyğəmbər göndərməyəcək, başqa bir kitab endirməyəcək. O kitabın içində, haşa, vaxtı keçmiş hökmün olduğunu iddia etmək Allaha atılan çox çirkin iftiradır. Dayaz ağılların sığındığı axmaqlıqdır.



"Ey İbn Ömər, dini elmləri və hökmləri istiqamət əhli olan alimlərdən öyrən, sağa-sola meyil edənlərdən öyrənmə!".
(Xatib əl-Bağdadi, əl-Kifayə fi İlmir-rivayə, s. 121)

Bu gün, təəssüf ki, ilahiyyatın bir çox sahəsində tələbələrə elm adına Kaytani və Qoldziher kimi İslam düşməni olan müstəşriklərin çürük və əsilsiz iddiaları öyrədilməkdədir. Bu da tələbənin ruhani həyatını alt-üst etməkdən başqa bir şey deyil. Bunları oxudanların da ağır məsuliyyət və vəbal altında olduğunu unutmamaq lazımdır.

Bəhs etdiyimiz üç fitnə:

- Məzhəbləri rədd,
- Sünnəni inkar,
- Hökmlərin ləğvindən ibarətdir.

Bunların ortaya atılması dini elmlərə şübhə ilə baxışı artıraraq, təəssüf ki, nəsilləri "deizm"ə sürükləməkdədir.

Bunun yeganə çarəsi doğrunu söyləməkdir.

Doğrunu öyrənən nəsillər müstəşriklərin, əcnəbilərin, qeyri-müsəlmanların pəh-pəhləyərək təqdim etdiyi zəhəri içməməlidir.

Həzrət Mövlana buyurur:

"Qurani-Kərimin ayələrini və Hz. Peyğəmbərin hədi-si-şəriflərini oxumadan əvvəl özünü düzəlt!

Gül bağçasındakı gözəl ətri ala bilmirsənsə, qüsuru bağçada axtarma, könlündə və burnunda axtar!".

Bu gün islami dəyərləri tam mənası ilə öyrənmək üçün ciddi təhsilə ehtiyac var. Bunun üçün yay kursu kifayət etməz. Bugünkü dərs proqramını və şərtləri nəzərə alsaq, heç imam-xətib də kifayət etməz.

Peyğəmbərimiz əshabına 23 il ərzində İslamı öyrətdi. Elə isə bunun ömür boyu yaşanması və yaşadılması lazımdır. Həmçinin təqva sahibi və istiqamət üzrə olan ustadlardan öyrənmək lazımdır. Bir sözlə, yaşamaq lazımdır...



İlahiyyat sahəsindəki üç fitnə:
**** Məzhəbləri rədd,***
**** Sünnəni inkar;***
**** Hökmləri ləğv etmək...***
Pərdə arxasında müstəşriklərin təlqinləri ilə meydana çıxan bu fitnələr dini elmlərə şübhə ilə yanaşmanı artırmaqda və təəssüf ki, qəsdli olaraq nəsilləri "deizm"ə sürükləməkdədir.

Lakin uşaqlıq illərində sadəcə yay aylarında məscidə gedən, məktəb vaxtı həftədə bircə saat din dərsi görən, dini savadı sadəcə bundan ibarət olan dindaşlarımız televiziya ekranlarında müşahidə etdikləri bu kimi müzakirələr qarşısında tərəddüdə qapılırlar. Əgər nəfsani duyğular da şübhəni körükləyərsə, bütün dini rəfə qaldırmaq kimi acı nəticə yaşanar.

Zəmanəmizdə Qərb dünyasından gələn cahiliyyə anlayışı hər yerə nüfuz etmişdir...

Çarəsizliyə yer yoxdur. Çarə Hz. Peyğəmbər kimi dini təbliğ etmək-

dir. İmkanı olan hər kəs buna səy göstərməlidir. Xüsusilə də insanlara İslamı öyrədəcək elmi olan kəslərin bir kənara çəkilməsinə izin yoxdur.

Bu qədər cəhalət ola-ola bəzi Quran kurslarımız dolmursa, deməli, çalışmırıq.

• Dindaşlarımıza və millətimizə əsas həyatın axirət həyatı olduğunu dönə-dönə xatırlatmalıyıq.

• Gördüyümüz hər bir işin, hər əməlimizin hesabının olduğunu bildirməliyik.

• Yaradılış qayəmizin Rəbbimizi tanımaq və Ona qulluq etmək olduğunu söyləməliyik.

• Allahın dininə yaşayaraq və yaşadaraq yardım etməliyik. Bu yolda xidmət göstərməliyik. Rəbbimiz də son nəfəsdə bizə yardım edəcəyini vəd edir.

Allah-Təala hər birimizə nəsib etsin.

Amin!..



Həzrət Mövlana:

"Qurani-Kərimin ayələrini və Hz. Peyğəmbərin hədi-si-şəriflərini oxumadan əvvəl özünü düzəlt!

Gül bağçasındakı gözəl ətri ala bilmirsənsə, qüsuru bağçada axtarma, könlündə və burnunda axtar!".



İMAN ETMƏMƏK MÜMKÜNDÜRMÜ?

Şeyx Sədi həzrətləri buyurur:

“Ağıl sahibləri üçün hər bir yarpaq mərifətullah divanıdır.

Qafillər üçünsə bütün ağaclar bir yarpaq da deyil”.



İMAN ETMƏMƏK MÜMKÜNDÜRMÜ?

Dünya **“məktəbi-aləm”**, bu məktəbdə verilən təhsilin adı “mərifətullah”dır. Məktəbin müəllimi Fəxri-Kainat (s.ə.s)-dir. Kainatda var olan hər şey bu məktəbin laboratoriyası hökmündədir. Görə bilən hər bir gözə Ondan xəbər verir, Onu göstərir.

Allah-Təalanın Qurani-Kərimdəki ilk əmri:

“Yaradan Rəbbinin adı ilə oxu!”. (əl-Aləq, 1)

Haqq-Təala yerdə və göydə, insanda və aləmdə nə varsa hamısını uca varlığına, birliyinə və qüdrətinə nişanə və təfəkkür vasitəsi olaraq xəlq etmişdir.

Görən, duyan və hiss edən qəlblər bu kainatda ilahi qüdrət və əzəmət təcəllilərindən başqa heç nə görməzlər.

Buna baxmayaraq, bu aləmdəki güllərlə, sünbüllərlə və bülbüllərlə danışa bilməyən, onların hal dilindən heç nə anlamayanlar necə də bədbəxtdirlər!..

Allah-Təalanın **"əl-Bari" və "əl-Musavvir"** isimlərinin təcəlliləriндən qafil qalan, küləklərin, dərələrin və dağların səssiz dilindən heç nə hiss etməyən laqeyd qəlblər necə də bədbəxtdir!..

Dünyada və gənc nəsillər arasında deizm kimi inkar təmayüllərinin rəvac tapmasının səbəbini mənfi təlqinlərdə axtarmaq lazımdır. Etiqadi məzhəbimiz olan **Maturidi** alimləri belə deyirlər:

"Heç bir kitabdan və peyğəmbərdən xəbərdar olmayan bir adamın Allahın varlığını və birliyini qəbul etməsi lazımdır".



"Göylərdə və yerdə nə varsa, hamısını öz tərəfindən sizin ixtiyarınıza qoyan da Odur. Həqiqətən, bunda düşünən bir qövm üçün ibrətlər vardır!".

(əl-Casiyə, 13)

Yəni kainat başdan-ayağa təfəkkür dərsxanasıdır... İman laboratoriyasıdır. Burada iman etməmək üçün ağılsız olmaq lazımdır. Axmaq olmaq lazımdır. Kor olmaq lazımdır. Ağılı heç saymaq lazımdır.

Gündüz işığında baharın yaşıllığına baxan insan gözünə görsənən çeşidli rənglər qarşısında:

"Yaşıllıqdan başqa heç nə görmədim", - deyərək bahara və yaşıllığa dalar, lakin əslində onları görməsini təmin edən işığı fərq etməz. Halbuki gördüyü bütün rəngləri işıq sayəsində idrak etmişdir. Belə olan



Kainat başdan-ayağa təfəkkür dərs-xanasıdır... İman laboratoriyasıdır. Burada iman et-məmək üçün ağılsız olmaq lazımdır. Ax-maq olmaq lazımdır. Kor olmaq lazımdır. Ağılı heç saymaq lazımdır.

təqdirdə, əslində, işıq aşkar olmasının şiddəti səbəbi ilə gizli qalmışdır.

Bir Allah dostu belə deyir:

"Əslində, Allah-Təala qeyb deyil. Lakin bizim bəşəri istedad və idrakımız nöqteyi-nəzərindən zühurunun şiddətindən görünmür".

İmtahan sirri gərəyi Rəbbimiz **Batin**dir. Açıq-aydın əlamətlər göstərsə, iman məsələsi imtahan olmaqdan çıxar, yəqinliklə / qətiyyətlə bilinən bir şey olardı.

Lakin hər şey Onun məxluqu olduğu üçün, Onun əzəmət təcəlliləri-nə və qüdrət naxışlarına şahidlik etdiyi üçün, əslində, Rəbbimiz eyni zamanda **Zahir**dir.

Bu zühur Allahın sifətləri etibarı ilə tamamilə aşkardır və yaradılmış hər şey buna açıq-aydın dəlildir.

Zatən Hz. Peyğəmbər (s.ə.s) belə buyurmuşdur:

"Allahın yaratdıqları üzərində təfəkkür edin (yəni sifət təcəlliləri, ilahi əzəmət və qüdrət naxışları üzərində Allahın varlığını və əzəmətini təfəkkür edin).

Zatı haqda düşünməyin. Çünki siz Onun qədrini (qiymət və əzəmətini Ona layiq şəkildə) əsla təqdir edə bilməzsiniz..." (Deyləmi, Müsnəd, II, 56; Heysəmi, Məcmauz-Zəvaid, I, 81)

Həmçinin hava ilə yaşayırıq, amma bizi hər tərəfdən əhatə edən havanı görə bilmirik. Sadəcə nəfəs alıb-vermək-

lə varlığını hiss edirik. Bu səbəblə onu görə bilməsək də, nəinki inkar edirik, hətta həyati bir zərurətlə:

"Hava olmasa yaşaya bilmərik", - deyirik.

Suda yaşayan canlılar da eynilə bizim kimidir. Onlar da dəryada sudan xəbərsizdirlər, halbuki su onları hər tərəfdən əhatəyə almış vəziyyətdədir.

Bir sözlə, deyə bilərik ki, Rəbbimiz **Mutəal**dır, yəni idrakımızla qavraya bilməyəcəyimiz qədər alidir. Bəşər idrakı Onu layiqincə dərk etməkdən acizdir.

Eyni zamanda **Qərib**, yəni bizə şah damarımızdan daha yaxındır. Əgər hiss edə bilsək, hər an, hər hadisədə Onun mesajını alaraq. Onun verdiyi ruzi ilə qidalanırıq. Ona dua edirik. Ona yalvarır, Ondan yardım istəyirik. Dualarımızı qəbul etdiyini hiss edirik.



(Ey İnsanlar!) ***Məgər Allahın göylərdə və yerdə olanları*** *(günəşi, ayı, ulduzları və buludları; meyvələri, bitkiləri, dənizləri, çayları və gölləri)* ***sizə ram etdiyini*** *(sizin istifadənizə verdiyini),* ***aşkar*** *(görmə, eşitmə, sağlamlıq)* ***və gizli*** *(əql, şüur, fəhm, elm və i.a.)* ***nemətləri sizə bolluca ehsan etdiyini görmürsünüzmü?***

(Loğman, 20)

Səlim ağıla sahib olan adam hiss edər ki, hər bir varlıq Onun dəlilidir. Qafillər üçünsə hər şey qəflət səbəbidir.

Hz. Mövlana belə deyir:

"İki barmağını gözünün önünə qoysan, heç nə görə bilməzsən".

Qəflət belə bir şeydir, Allah qorusun.

Ateizm Haqq-Təalanın bu kainatdakı sonsuz qüdrət axışları və misilsiz hikmət naxışları qarşısında kar

və kor olmaqdır. **Filibeli Əhməd Hilmi** necə də gözəl deyir:

Bu aləm aqillər üçün seyri-bədayi,
Axmaqlar üçünsə yeməklə şəhvət.

Görmədiyini inkar qəflətinə düşən ateizm, əslində, insanın sahib olduğu ruhu da, ağılı da inkar etməsindən fərqsizdir. Çünki heç kim nə ağlını görür, nə də ruhunu. Amma hər kəs bilir ki, bütün həyatı ağılın və canın varlığına bağlıdır.

Ağıl sahibi olan bir çox Qərb mütəfəkkiri də bu səbəblə bir yaradan olduğunu inkar edə bilməmişdir.



*"(Ey İnsanlar!) **Məgər Allahın göylərdə və yerdə olanları sizə ram etdiyini, aşkar və gizli nemətləri sizə bolluca ehsan etdiyini görmürsünüzmü?"***
(Loğman, 20)

MÜKƏMMƏL VARLIQ

Modern fəlsəfənin və rassionalizmin banisi sayılan riyaziyyatçı filosof **Dekart** "varlıq dəlili"ndən yola çıxaraq irəli sürdüyü fikirlərlə bu nəticəyə gəlmişdir:

"İnsan və kainatdakı hər şey mükəmməldir. Əbəs yoxdur. Heç nə öz-özünə mükəmməl olmaz. Onu daha mükəmməl bir varlıq (yəni Allah) mükəmməl etmişdir. Allah mükəmməldən də mükəmməl bir varlıqdır. Sonsuz mükəmməldir. İnsanın zehnindəki "ən mükəmməl varlıq" fikrinin olmadığını düşünmək yersizdir. Bu da başqa heç bir dəlil olmasa da, Allahın varlığını isbat edər.

Allah mükəmməl və nöqsansız, yanılmaz və yanıltmaz varlıqdır. Buna görə Onun bilgisi də nöqsansız və doğrudur. Dəqiq bilgi qaynağı Allahın elmidir".

Paskal da bu sözü ilə eyni fikri dəstəkləməkdədir:

"Varlığımızın dərinliklərindən gələn və bizə ölümsüz olduğumuzu bildirən bir səs var. Bu səs bizdə təcəlli edən Allahın irşad sədasıdır".

Bunlar müsəlman olmayan elm adamlarının etiraflarıdır...

Həqiqətən də, kainatdakı bu qədər möhtəşəm nizam, bu qədər mükəmməl ekoloji tarazlıq qarşısında insanın boş yerə yaradıldığını zənn etməsi və digər məxluqlar kimi məsuliyyət şüurundan uzaq yaşaması quru bir əbəsdir. Halbuki Haqq-Təala buyurur:

"Yoxsa sizi əbəs yerə yaratdığımızı zənn edirsiniz?". (əl-Muminun, 115)

Məxluqat insan üçün yaradıldı. İnsan da Allaha qulluq üçün. Əks təqdirdə yaradılışın heç bir mənası olmazdı.

İnsan bu qayə ətrafında yaşayacaq və sonunda cənnətə qayıdacaq... Mükərrəm olaraq yaradılan insan təzkiyə olacaq, təmizlənərək möhtəşəm cənnətə layiq hala gələcək.

Ona görə də Allah-Təala bəndəsinə peyğəmbərlər göndərərək, səhifə və kitablar nazil edərək və bu kainatdakı sonsuz qüdrət axışları və əzəmət təcəlliləri ilə təfəkkürünü açaraq yardım edir.



Hər bir inkar və üsyan "nə üçün var oldum?", bu kainat nə üçün yaradıldı?", "yaradılış qayəm nədir?" kimi suallara biganə qalaraq nəfsani bir həyatın əsiri olmaqdır.

Allah ateist zehniyyətə sahib qafillərə belə sual edir:

أَمْ خُلِقُوا مِنْ غَيْرِ شَيْءٍ أَمْ هُمُ الْخَالِقُونَ

“Yoxsa onlar heç bir şeydən (xaliqsiz) **yarandılar?! Yaxud onlar** (öz-özlərini) **yaradanlardır?!”** (ət-Tur, 35)



“Yoxsa onlar heç bir şeydən (xaliqsiz) yarandılar?! Yaxud onlar (öz-özlərini) yaradanlardır?!”.
(ət-Tur, 35)

Bu aləmdə Allah-Təala qullarına iki sifətin təcəllisini verməmişdir:

- Xəlq
- Bəqa.

- İnsanda xəlq (yoxdan yaratma) təcəllisi yoxdur. İnsan oğlu nə isə icad etmiş ola bilər, amma bütün icadlar Allahın yaratdığı varlıqların bir yerə toplanmasından ibarətdir.

İnsan əli ilə düzəldilmiş heç bir robot özü kimi başqa bir robot düzəldə bilməz. Heç bir təyyarə başqa bir təyyarə ərsəyə gətirməyə qadir deyil.

İnsan oğlu tamamilə Allahın yaratdığı bir aləmin içindədir. Nəyə baxsa, özü və ətrafındakı hər şey Rəbbimizin yaratdığı varlıqlardır.

- İnsanda bəqa təcəllisi yoxdur. Allahdan başqa bütün varlıqlara fanilik möhrü vurulub.

Ayeyi-kərimədə belə buyurulur:

“Hər bir kəs (canlı) **ölümü dadacaqdır**…” (Ali-İmran, 185)

"(Yer) **üzündə olan hər kəs fanidir** (ölümə məhkumdur)". (ər-Rahmən, 26)

"Allahdan başqa hər şey məhvə məhkumdur. Hökm Onundur. Siz (qiyamət günü) **məhz Onun hüzuruna qaytarılacaqsınız!"**. (əl-Qasas, 88)

Bu səbəblə məzar daşlarında xatırlatmaq məqsədi ilə "هُوَ الْبَاقِى: Huvəl-Baqi: Baqi olan yalnız Odur" – yazılır.

Kainatdakı əzəmətli ahəng və nizam da Allahın varlığının və birliyinin dəlillərindəndir. **İsmayıl Fənni Ərtoğrul** belə deyir:

"Biz bu kainatda zərrədən-kürrəyə hər şeydə Allah-Təalanın ilah olduğuna dəlalət edən əsərlərini görürük. O qədər ciddi araşdırma aparmadan da ilk baxışda aləmin bütün parçalarının "ilk səbəb"i olan bir qüdrət əli görürük. Ağlımız, cismimiz, heyvanlar, planetlər, ulduzlar, yer üzü və göy üzü, bütün bunlar mükəmməl nizam-intizam və ahəng içərisindədir. Bu sənət və hikmət bütün aləmin ruhu kimi lətif və hiss edilməyən, lakin güclü bir qüvvə ilə bütün varlıqları qayələrinə aparan və bizdən üstün olan bir ağıla və hikmətə işarə edir. Biz bu cahanın yaradılmasında və hər zərrəsində tam bir uyğunluq görürük.

Günəşdən tutmuş qarışqaya qədər hər şeydə Haqq-Təalanın sənətinin sonsuz qüdrətini müşahidə edirik". (İman həqiqətləri ətrafında suallara cavablar, s. 8)



Dekart:

"İnsan və kainatdakı hər şey mükəmməldir. Əbəs yoxdur. Heç nə öz-özünə mükəmməl olmaz. Onu daha mükəmməl bir varlıq (yəni Allah) mükəmməl etmişdir".

İsmayıl Fənni başqa bir əsərində belə deyir:

"Aləmdə hər an gördüyümüz əsərlərə böyük heyrətlə "mükəmməl" deməkdən özümüzü saxlaya bilmirik. Elə isə bunları yaradan sənətkarın qüdrətinə və hikmətinə baxaraq nə üçün "ən möhtəşəm varlıq" deməyək?

Mənə görə, Haqqın əzəmətini dərk edə bilməyənlər şübhə xəstəliyinə yaxalanmış, fəlsəfənin (vərəmli dalanlarında) qarışıq sərsəmlikləri qarşısında heyrətə düşən ağlı naqis insanlardır". (Maddiyyun Məzhəbinin İzmihlalı, s. 28)



Dekart:

"Allah mükəmməldən də mükəmməl bir varlıqdır. Sonsuz mükəmməldir. İnsanın zehnində "ən mükəmməl varlıq" fikrinin olmadığını düşünmək yersizdir. Bu da, başqa heç bir dəlil olmasa da, Allahın varlığını isbat edər".

İsmayıl Fənni Ərtoğrul varlığın təsadüfən yarandığını iddia edənlərə də bu məntiqli sualları verir:

"Bir milçək qanadının var ola bilməsi üçün milyonlarla quruma ehtiyac var. Aləmdə bir-birinə uyğun şəkillər (tamamlanmış formalar) hesabsız sayda var olduğuna görə bunlar yaranana qədər meydana gələn (natamam) şəkillərin bunlarla müqayisə edilməyəcək qədər çox olması şərt deyilmi? Nə üçün buna təsadüf etmirik?

Bunlar bir zamanlar var olduğu halda indi yox olubsa nə üçün izlərinə rast gəlmirik? Bu təbiət nə üçün qəribə heyvanlar yaratmır, daima tam bir ahəng içində yaşayan varlıqlar yaradır?". (Maddiyyun Məzhəbinin İzmihlalı, s. 54)

"…Bir yerdə hesab və intizam görüldükdə orada mühasib və nizamlayıcının olduğuna ağıl qəti olaraq hökm edər…

Fərz edək ki, sizin bir bağınız var. Onun ətrafına sıra ilə çox sayda ağac əkdirdiniz. Bir gün ora getdiniz və bu ağacların ordan-burdan bəzilərini yerə yıxılmış halda gördünüz. Bunun səbəbini soruşduğunuz vaxt bağban sizə şiddətli bir fırtınanın çıxıb onları aşırdığını söylədi. Bu cavabı qəbul edərsiniz.

Lakin başqa gün yenə bağa getdiniz. Ağacların sıra ilə, məsələn, hər dörd ağacdan sonra beşincisini yerə yıxılmış gördünüz. Bunun səbəbini soruşanda bağban yenə də eyni cavabı verdi. Buna inanarsınızmı? İnanmayacağınız və bunun pis niyyətli birinin əməli olduğunu düşünəcəyiniz şübhəsizdir. Çünki əvvəlki hadisəyə təsadüf demək mümkündürsə, buna təsadüf demək imkansızdır. Çünki bu səfər işə hesab qarışmışdır". (İman Həqiqətləri Ətrafında Suallara Cavablar, s. 21-22)



Paskal:

"Varlığımızın dərinliklərindən gələn və bizə ölümsüz olduğumuzu bildirən bir səs var. Bu səs bizdə təcəlli edən Allahın irşad sədasıdır".

Bu gün kainatdakı hər şeyi təsadüflə izah etməyə çalışanlar;

- Sabah havadakı oksigen səviyyəsinin dəyişməyəcəyindən necə əmin ola bilirlər? Tələş və həyəcan keçirmədən necə rahat yata bilirlər?

- Fəsilləri meydana gətirən həssas ölçülərin pozulması nəticəsində sabah dünyanın insanı bişirəcək qədər isti və ya donduracaq qədər soyuq olacağından nə üçün qorxmurlar?

- Vücudlarında, qəlblərində, böyrəklərində, qara ciyərlərində, bütün üzvlərində əsla müqtədir və mü-

daxil ola bilmədikləri nizamın sabah da müntəzəm şəkildə işləyəcəyindən necə əmin ola bilirlər?

Necə olur ki, bu "təsadüflər" həmişə onların xeyrinə işləyir?

Həqiqətən, bu kainatı, bu mükəmməl nizamı idarə edən bir varlığın yoxluğuna inana bilirlərmi?

Halbuki həqiqətən də belə inansalar, dəli olmalıdırlar.

İnsan içində olduğu təyyarəni idarə edən pilotların bayıldığını və ya öldüyünü xəbər alsa nə edər? Bəlkə də, qorxudan dəli olar. Belə bir təyyarənin bəzi təsadüflərin ardarda gəlməsi ilə səliqəli şəkildə yerə enə biləcəyinə inanıb rahatlıq tapa bilərmi?

Heç bir ateist və ya deist sabah oksigenin azala biləcəyini düşünüb qorxmur. Özü ilə oksigen balonu gəzdirmir. Yəni ilahi qüdrətə etimadı var. Ağıl və vicdanla Haqq-Təalanın qüdrətini qəbul etdiyi halda nəfsani olaraq qəflət bataqlığına sürüklənməkdədir.



Ateizm, küfr, inkar…

Bütün bunlar qaçışdır. Məsuliyyətdən, qulluqdan, vəzifədən qaçmaqdır. Qaçarkən buna bir don geydirməkdir.

Deizm də bunun yarımçıq qəbuludur. Hansı ki, belə bir qəbul ağıl və idraka sığmır. Yalnız könüllərin viranəyə çevrilməsidir.

Əfsuslar olsun!

Ateizm, küfr, inkar…

Bütün bunlar qaçışdır. Məsuliyyətdən, qulluqdan, vəzifədən qaçmaqdır. Qaçarkən buna bir don geydirməkdir.

Deizm də bunun yarımçıq qəbuludur. Hansı ki, belə bir qəbul ağıl və idraka sığmır. Yalnız könüllərin viranəyə çev-

rilməsidir. Yaradanla bağlı belə bir inanc daşımaq axirətdə heç nə ifadə etməz.

Mütləq yaradanı inkar etmək üçün axmaq olmaq lazımdır.

Deist olan guya yaradanı inkar etmir, lakin onun rəbb olmasını inkar edir. Dinini, kitabını, peyğəmbərini və hökmlərini inkar edir.

Kainatdakı möhtəşəm sonsuz sirr və hikmətlər qarşısında Peyğəmbəri, kitabı və axirəti inkar etməyi bir fikir halına gətirməyə çalışmaq əslində ağıl və idrakı inkardan başqa bir şey deyil. Deizm adlanan bu inkar şəkli nə qədər acınacaqlı haldır.



İsmayıl Fənni:

"Aləmdə hər an gördüyümüz əsərlərə böyük heyrətlə "mükəmməl" deməkdən özümüzü saxlaya bilmirik. Elə isə bunları yaradan sənətkarın qüdrətinə və hikmətinə baxaraq nə üçün "ən möhtəşəm varlıq" deməyək?". (Maddiyyun Məzhəbinin İzmihlalı, s. 28)

Ateizm;

- Səbəbləri görüb o səbəblərin səbəbkarını görməməkdir.

- Əsəri görüb Müəssiri görməzlik etməkdir.

- Sənəti görüb Sənətkarı inkar etməkdir.

Deizm isə bu səbəblərin, əsərin və sənətin boş yerə yaradıldığını, qayəsiz, məqsədsiz və əbəs olduğunu iddia etmək sayılır ki, bunun da inkar nöqteyi-nəzərindən ateizmdən heç bir fərqi yoxdur.

Şeytanın hiylələrindən biri də batili bəzəyərək adını dəyişməkdir.

Məsələn, zinaya gəzmək, faizə qazanc, qumara oyun kimi müxtəlif

adlar qoyaraq insanı aldatmağa çalışır. Deizm və bu kimi adlar qoymaq inkarı və kafirliyi dəyişməz.

Allah-Təala qəlblərimizi iman və yəqinlə doldursun. Şübhə və vəsvəsə kirlərindən təmizləsin. Bizi hüzur tapanlardan etsin!..

Amin!..



İsmayıl Fənni:

"Mənə görə, Haqqın əzəmətini dərk edə bilməyənlər şübhə xəstəliyinə yaxalanmış, fəlsəfənin (vərəmli dalanlarında) qarışıq sərsəmlikləri qarşısında heyrətə düşən ağlı naqis insanlardır".

(Maddiyyun Məzhəbinin İzmihlalı, s. 28)



VƏSVƏSƏ MƏNGƏNƏSİNDƏ VERİLƏN SUALLAR

"Allah məni yaradarkən məndən soruşdumu?"
qəbilindən yersiz və əsilsiz atmacalarla qarşılaşırıq.
Allah-Təala:
"Sən bir heç idin, səni Mən yaratdım", - buyurur.
"Heç" olan "Sonsuz Qüdrət"
qarşısında nə ifadə edər?
Həmçinin heç bir qüsuru olmayan ali iradə və
hökmün tamamən qüsurlu olan bir heçdən nə isə
soruşması nə qədər məntiqlidir?
"Heç" olana nə sual verilə bilər?



VƏSVƏSƏ MƏNGƏNƏSİNDƏ VERİLƏN SUALLAR

Elmi araşdırmalar[1]dan irəli gələrək internetdə və media-da deizm və ateizmlə əlaqəli bəzi suallar dolaşır. Bu sualların bəzisi ta qədimdən kəlam alimləri tərəfindən cavablandırılan və vəsvəsədən doğan suallardır. Lakin bu sualların bir çoxu tamamilə mənasız ifadələrdən ibarətdir. Cavab vermək üçün ciddiyə alınmayacaq boşboğazlıqdan başqa bir şey deyil.

Bu tərz iddiaları çürütmək məqsədi ilə də olsa, dilə gətir-mək və qələmə almaq mömin bir qəlbə ağır gəlir.

Lakin fikri bulananlara xeyirli bir təbliğ, təfəkkürlərə hə-yat verici təlqin etmək, o cümlədən zəhərli şübhə və vəs-vəsələri aradan qaldıraraq xəstə könüllərə şəfa olmaq da böyük əhəmiyyət kəsb etməkdədir.

1. Yard. Dos. Dr. Fatma Günaydın, İmam Xətib Liseylərində İnanc Soru(n)ları, Din Əleyhinə Müasir Cərəyanlar və Deizm Simpoziumu, Van, 2017, s. 321.

Bunları birbaşa izah etməklə yanaşı, qəzet, kitab kimi yazılı, yaxud səsli və görüntülü vasitələrlə insanlara çatdırmaq zəmanəmizin ən mühüm xidmətlərindəndir, əmri bil-mərufdur.

Yaşadığımız dövr cahilliyin həddən artıq qüvvətli olduğu, həm inkar cərəyanlarının, həm də zəlalətə dəvət edən fikri cərəyanların hər yana yayılmağa çalışıldığı bir dövrdür.

Bu səbəblə həmin sualların bəzisini cavablandırmaq istərdik. Bu sualların bir qismi qədər məsələsi ilə əlaqəlidir. Qədər isə insan idrakının fövqündə olan, təslimiyyətlə yanaşılmalı olan bir xüsusdur. Təslimiyyətlə yoluna davam edə bilməyənlər ya qədəri inkar, ya da iradəni inkar bataqlığına düşərlər. Yaxud da, haşa, sonsuz elm və qüdrətindən dolayı Haqq-Təalanı ittiham etməyə qalxmaq kimi bir zəlalətə və yanlışa sovrularlar.



Ağıl alətdir. İki ucu da kəskin bıçaq kimidir, xeyrə də, şərə də vasitə ola bilər.

Ağılı şərə alət edərək Yaradana ilk dəfə baş qaldıran şeytan oldu. İlahi hüzurdan qovuldu, insanları azdırmağı özünə vəzifə bildi.

- Haqq-Təala sonsuz elm və qüdrət sahibidir. Rəbbimiz bəşəri sifətlərdən uzaqdır. Biz gələcəkdə nə olacağını bilmərik, ancaq Allah üçün qeyb yoxdur. O, bəndələrinin aqibətini də bilir.

- Allah-Təala qullarını imtahan edir. Onları bu imtahanda əldə edəcəkləri nəticələrlə Hesab günü cənnətə, yaxud cəhənnəmə sövq edəcəkdir.

Bu iki həqiqəti zehndə birləşdirə bilməyənlər Rəbbimizi bəşər yerinə qoyaraq, məntiqsiz bir izahla sadəcə birtərəfli suallara qapılırlar. Hissiyyat-

sız, şüursuz və laqeyd həyat sürmək üçün bəhanələr axtararaq əsassız fikirlər irəli sürürlər. Məsələn:

"Allah bizim cənnətə və cəhənnəmə girəcəyimizi bilirsə, nə üçün imtahan edir?" – deyirlər. Yaxud da: "Allah hər şeyi bildiyi halda bizi nə üçün yaratdı?" – deyirlər.

Düşünmürlərmi ki,

Özləri qiymət cədvəli və diplom adlı kiçicik bir kağız parçasını vermək üçün təhsil adı altında illərlə imtahan və sınaqlar keçirirlər. Tənbəllərin kəsiləcəyini, çalışqanların keçəcəyini bildikləri belə edirlər. Daha sonra hər hansı bir adamı işə götürəcəkləri zaman bütün bu imtahanların müvəffəqiyyət ölçüsünə görə verilən diplomunun olub-olmadığını soruşurlar. Bu kağız parçası olmadığı təqdirdə müraciət edəni qapıdan qaytarırlar.



Ağıl əslində nəfs və şeytanın tələlərinə düşməmək üçün insana bəxş edilən ilahi tərəzidir. İnsanda xeyir və şəri bir-birindən ayırd edici şüur mərkəzidir. O tərəzini nəfsin və şeytanın əlinə verməmək lazımdır.

Elə isə bütün dünyada bu nizama görə hərəkət edən bir insanın eyni şəkildə Rəbbi tərəfindən imtahan edilib bunun qarşılığında mükafatlandırılmasına etiraz etməsi öz-özünü axmaq yerinə qoymasıdır.

İnsan özü hər kəsə imtahan və diplom sisteminə görə məhrumiyyət və ya nailiyyət yaşatdığı halda Allahın belə etməsinə hansı məntiqlə yanlış deyir?

Hökmlər imtahana görə deyil, necəgəldi verilsəydi, yəni insan özünü anidən cəhənnəmdə görsəydi, o zaman "Allah

məni nə üçün imtahan etmədi?" – deyə sual etməzdimi? Bəli, o zaman bu sualı verəcəkdi, amma "Allah əzəli elmi ilə mənim cəhənnəmlik olduğumu bilir. İmtahan etməsinə gərək yoxdur", - deməyəcəkdi.

Bu kimi suallardakı **"bildiyi halda nə üçün"**ün cavabı budur. Allah-Təala insanları imtahan edərkən onların əsla etiraz edə bilməyəcəyi şahid və dəlillər ortaya qoyur. Mələklər şahiddir, əməl dəftərlərinə hər şey yazılır. Hətta bədən əzaları, əllər, ayaqlar şahidlik edəcək. Məkanlar belə şahidlik edəcək. Üstəlik insanın öz vicdanı da ona veriləcək hökm barəsində etirafçı olacaq.



Deizmin axmaqlığı: "Allah-Təala bu kainatı yaradıb, haşa, sonra bir kənara çəkilib". Yəni bir növ, heyvanları yaradıb başıboş buraxdığı kimi, insanı da yaradıb başıboş buraxmışdır. Lakin əsla elə deyil! Zərrədən-kürəyə bütün məxluqat ali bir qayəyə xidmət edir. Yaradılan hər şey insan üçün təfəkkür və idrak vəsiləsidir.

Allah-Təala heç kimlə müqayisə olunmaz. Lakin məsələni anlamaq üçün belə bir bənzətmə etmək mümkündür:

Təcrübəli bir müəllim tələbəsinə:

"Çalışmasan, sinifdə qalarsan", - dedikdən sonra imtahanlar başlayır və həmin tələbə sinifdə qalır. Tələbənin müvəffəqiyyətsizliyinin səbəbi müəllimin xəbərdarlığıdır? Yoxsa onun müvəffəq olmayacağını bilməsidir? Əlbəttə ki, yox. Bu suallar əslində:

"Allah nə üçün imtahana çəkir?"

"Nə üçün onu inkar edənlərə, əmrini yerinə yetirməyənlərə əzab verir?" – deyə soruşmaq üçündür. Bu xüsusda həddimizi bilməliyik.

Çünki Allah-Təala **"Faili-Mütləq"**dir, istədiyini edə biləcək yeganə güc və qüdrət sahibidir. **"Malikül-Mülk"**dür, bütün kainat Onun mülküdür. **"Faili-Muxtar"**dır, yəni mülkündə istədiyi kimi səlahiyyət sahibidir. Heç kimin, haşa, Ondan hesab soruşmağa haqqı yoxdur. Heç kimin belə bir həddi də yoxdur.

Rəbbimiz imtahan etmək istəmişdir. Cənnəti ucuz deyil, cəhənnəmi də lüzumsuz deyil.

Haqq-Təala bu imtahanda sonsuz mərhəmət sərgiləmişdir.

• Bu imtahanda insanı istedad sahibi qılmışdır. Ona ağıl və idrak vermişdir. Ağlı olmayanları, kiçikləri imtahandan kənar tutmuşdur.



Heyvanların yaradılışında belə müəyyən bir qayə var. Arı bal hazırlayır. Toyuq yumurtlayır. İnək süd verir. Qarışqalar nizam-intizam içində işləməyin ən gözəl nümunəsidir. Daha nələr, nələr... İnsan necə başıboş ola bilər?

• Kainatdakı hər şeyi təfəkkür vəsiləsi qılmışdır. Əgər insan Allahın verdiyi ağıl və qəlbdən gözəl və yerində istifadə edərsə, təfəkkür onun üçün iman açarı olacaqdır.

• Allah-Təala insana verdiyi ağıl və idraka yol açacaq səmavi kitablar və peyğəmbərlər göndərmişdir. Onların yetişdirdiyi təbliğ, əmri bil-məruf və nəhyi anil-münkər vəzifəsini yerinə yetirən Haqq dostları qiyamətə qədər davam edəcəklər.

Ayeyi-kərimədə buyurulur:

"Biz peyğəmbərləri (möminlərə) **müjdə gətirən və** (kafirləri) **əzabla qorxudan kimi göndərdik ki, daha in-**

sanlar üçün peyğəmbərlərdən sonra Allaha qarşı bir bəhanə yeri qalmasın. Allah yenilməz qüvvət sahibi, hikmət sahibidir!". (ən-Nisa, 165)

• Allah-Təala idrak etməyə yetəcək qədər ömür vermişdir. Axirətdə ağlayıb-sızıldayanlara belə söylənəcəyi bildirilir:

"Məgər orada sizə öyüd-nəsihət qəbul edəcək kimsənin öyüd-nəsihət qəbul edə biləcəyi (düşünəcək kimsənin düşünəcəyi) **qədər ömür vermədikmi?! Hələ sizə** (siz kafirləri Allahın əzabı ilə) **qorxudan peyğəmbər də gəlmişdi.**

Dadın (cəhənnəm əzabını)**!**

Zalımların imdadına çatan olmaz!". (əl-Fatir, 37)

• Haqq-Təala insanı inkar və günahı səbəbi ilə əzaba düçar etməmiş, son nəfəsə qədər tövbə və islah üçün möhlət vermişdir.

• Günahların əfvi üçün bir çox vəsilələr xəlq etməkdə, şərləri ancaq misli ilə cəzalandırmaqda, saleh əməlləri isə ən azı 10 misli ilə mükafatlandırmaqdadır.

Bütün bunlara rəğmən cəhənnəmlik olanlar səbəbi ilə Allah-Təalanı, haşa, ittiham etmək ədəbsizlik və həddi aşmaqdır.

Məşhur təfsirçi Elmalılı Hamdi Əfəndi belə deyir:



*"Qeybin açarları (Allahın) **yanındadır. Onları ancaq O** (Allah) **bilir.** (Allah) **suda və quruda nə varsa bilir. Yerə düşən elə bir yarpaq yoxdur ki,** (Allah) **onu bilməsin. Yerin zülmətləri içində elə bir toxum,** (kainatda) **yaş-quru elə bir şey yoxdur ki, açıq-aydın kitabda** (lövhi-məhfuzda) **olmasın!"***
(əl-Ənam, 59)

“Allah-Təalanın əzabı ədalət, məğfirəti isə fəzli-ehsandır”.

Yəni Rəbbimiz əzab verirsə, bu, zülm deyil. Tamamilə ədalətdir. Bağışlayırsa və cənnəti bəxş edirsə, bu da bəndənin layiq olmasından deyil. Tamamən Rəbbimizin comərdliklə ikram etməsidir.

Ədalət nemətlərin qarşılığını ödəyib-ödəməmək xüsusundadır. Lütfdə ədalət axtarmazlar. Allahın bizi var etməsi Onun lütfündəndir. Bu, bizim haqqımız deyil. Lütf edən istəyərsə verər, istəməzsə verməz. İstədiyinə az, istədiyinə çox ehsan edər. Bu barədə heç kim Ondan hesab soruşa bilməz.



“Ən kiçikdən böyüyə qədər yaradılmış olan hər şey ibrət lövhəsi və sənət xariqəsidir...

Elə isə,

Əsərdən müəssirə, sənətdən sənətkara, səbəblərdən səbəbkara yol tapmamaq ağılın sərsəmliyi deyilmi?”.

Qul isə daima hesaba tabedir. Çünki ona nemətlər, məsuliyyətlər və vəzifələr verilmişdir.

Biz də heç bir qarşılıq ödəmədiyimiz halda, tamamən Allahın lütfü ilə yoxdan var edildik. Varlıqlar içərisində insan, insanlar içərisində də ümməti-Muhammədden olduq. Heç bir qarşılıq ödəmədən nail olduğumuz bütün bu nemətlərə görə qarşılıq verib axirətə köçəcəyik.

Yəni bu dünyada şükür borcumuzu ifa etmək məsuliyyəti ilə yaşadıqdan sonra Rəbbimizin hüzuruna çıxacağıq. Orada dünya imtahanının qiymət cədvəli sayılan əməl dəftərimizi oxuyacağıq. Həyat lentimizi seyr edəcəyik. Böyük-kiçik heç nəyin unudulmadan qeyd edildiyi həyat dosyelərimiz önü-

müzə sərildikdə Rəbbimizdən **"ədalət"** deyil, **"mərhəmət"** dilənəcəyik.

Çünki bu dünyada işlədiyimiz saleh əməllər Rəbbimizin bizə olan lütfləri qarşısında sanki bir heç mövqeyində olacaq.

Necə ki, bir dəfə Rəsulullah (s.ə.s) belə buyurmuşdu:

"Heç kim əməl (və ibadəti) sayəsində qurtuluşa qovuşmaz".

Əshabi-kiram heyrətlə soruşdu:

"Siz də qurtula bilməyəcəksiniz, ey Allahın Rəsulu?".

Hz. Peyğəmbər (s.ə.s) buyurdu:

"(Bəli) mən də yalnız Allahın rəhmət və kərəmi ilə qurtula bilərəm".
(Müslim, Münafiqin, 76, 78)

Hüquqda mənfəət və zərər tarazlığı var.

Bu imtahanın sonunda əbədi cənnət kimi böyük bir nemət var. Bütün ilahi yardımlara baxmayaraq müvəffəq olmayanların əbədi xüsrana düçar olması tam bir ədalətdir.

İnsan fani məxluq olduğu halda Allah tərəfindən əmrinə verilmiş yer üzündəki digər varlıqlar üzərində təsərrüf edərkən özünü sərbəst hiss edər.

Məsələn, insan:



Zərrədən kürəyə, mikro aləmdən makro aləmə ağıl və idrakı ən gözəl şəkildə irşad edən saysız-hesabsız uca həqiqətlər və ilahi mənzərələr qarşısında duyğusuz və nadan qalmaq ağılın sərsəmliyi deyilmi?

• Qoyun, inək, toyuq və balığın ətindən, südündən, yumurtasından istifadə edir. “Buna haqqım varmı?” – deyə özünə sual verməz.

• Varlıqları dəyərli və dəyərsiz kateqoriyasına bölərək dəyərsiz gördüyünü zibilliyə atar, qiymətli gördüyünü saxlayar. “Buna nə haqqım var!” - deməz.

• İşçi çalışdırar, “Ona əmr etməyə nə haqqım var?”, - deməz. “Onsuz da pulunu verirəm”, - deyər.

Belə olan təqdirdə:

Allah-Təalanın şəxsən var etdiyi, can verdiyi, ağıl, fikir, idrak və ömür bəxş etdiyi, peyğəmbər və kitab göndərdiyi qullarından zay çıxanları, üsyan edənləri əzaba ayırmasına kim nə haqla etiraz edə bilər?



İnsanın öz daxilində və üfüqlərdə, bütün aləmlərdə fasiləsiz olaraq tamaşa edilən bu fövqəladə mükəmməl nizamı səbəbsiz, qayəsiz, məqsədsiz və adi sayan adam ağlı ilə qürrələnərək könlünü viran edən zavallı deyilmi?

Yuxarıdakı suallara bənzər bəzi məntiqsiz suallar da belədir:

Sual: Allah bizi sevirsə, nə üçün günah işləməmizə izin verib sonra da oda atır?

Sual: Allah nə üçün pisliklərə mane olmur?

Sual: Qədərdə cənnətə və cəhənnəmə gedəcəyimiz bəllidirsə, nə üçün ibadət edirik?

Bəşəri sistemdə belə imtahan edilərkən cavablar imtahan edilənə bağlıdır. Hansısa müəllim tələbəni sevir deyə

onun imtahanda səhv cavab verməsinə müdaxilə edib cavabı özü yazarsa, etdiyi bu hərəkətinə görə işindən kənarlaşdırılar.

Bəs dürüst müəllim olmağın şərti nədir?

Sevdiyin tələbə də olsa, imtahanda heç bir müdaxilə etməmək. Yəni bir tələbəyə imtahanda səhv və ya düz yazmasına qarışmayıb sonra da sinifdə saxlamaq, müəllimin ona olan sevgi və ya sevgisizliyi ilə dəyərləndirilə bilməz. Əksinə, belə bir müəllim öz peşəsinə sədaqətli olduğu üçün tərifə layiqdir. İnsan üçün belədirsə, Allah üçün niyə əksini düşünürük?

Həmçinin cənnətə və cəhənnəmə gedəcəklərin bəlli olması xüsusunda gəzən bir sıra kəlmə oyunları yalnız ağıl tərəzisi xarab olanların işidir. Bu oyunlar düzgün işləyən heç bir tərəzidə keçməz.



Zavallı insan qoyun, inək, toyuq və balığın ətindən, südündən, yumurtasından istifadə edir. Lakin "buna haqqım varmı?" – deyə özünə sual vermir. Amma "Allah məni yaradarkən fikrimi soruşdumu?" – deyir.

Çünki **cənnət**ə iman və ibadət edənlərin gedəcəyi bəllidir. Allah-Təalanın ayələri bunu bəyan edir. **Cəhənnəm**ə də inkar və üsyan edənlərin gedəcəyi bəllidir. Yəni "Nə qədər imanlı, ibadətli, təslimiyyətli və Allahın rəhmətinə sığınmış da olsan, cəhənnəmlik yazılmısansa çarəsiz cəhənnəmə gedəcəksən" deyə ilahi hökm yoxdur.

Yaxud da "Nə qədər inkarçı, zalım, asi və şeytana bağlı da olsan, narahat olma, cənnətlik yazılmısan-

sa, cənnətə girəcəksən", - deyə heç bir ilahi hökm yoxdur.

Hökm inkar edənlərin cəhənnəmə, iman əhlinin cənnətə gedəcəyi şəklindədir.

Buradakı söz oyunu:

Hökmü tərsinə çevirib söyləməkdir. Yəni nəticəni önə, başlanğıcı sona qoymaqdır. Lakin həqiqət tamamilə fərqlidir. "Cəhənnəmliklərdən yazılan adam nə üçün boş yerə gözəl əməllər işləsin?" məntiqi yanlışdır. Belə bir gerçək yoxdur.



Cənnətə və cəhənnəmə gedəcəklərin bəlli olması xüsusunda gəzən bir sıra kəlmə oyunları yalnız ağıl tərəzisi xarab olanların işidir. Bu oyunlar düzgün işləyən heç bir tərəzidə keçməz.

Əsl həqiqət budur ki, son nəfəsə qədər imtahan müddəti var. Bu müddət ərzində düzgün iman, saleh əməllər, təslimiyyət və rəhməti-Rəhman ilə dolu keçən bir həyata cəhənnəm yazılmayacaq.

Allah-Təala Qurani-Kərimdə belə bir həyat üçün cəhənnəmlik ifadəsi işlətməmişdir.

Bəs bu qəbildən qurulan cümlələr kimə aiddir?

Əlbəttə ki, "tərtəmiz südün çıxdığı məməyə geri qayıtmayacağı" gerçəyini bilməyən qəsdli qafillərə və cahillərə aiddir.

Bu da onu göstərir ki, doğru olan bir düsturu imkansız şəkildə əksinə çevirmək həqiqət üçün yox, fəsad çıxarmaq üçün atılan addımdır. Yəni Allah "küfr, zülm, üsyan əhli cəhənnəmə girəcək" deyirsə, bu hökmü tərsinə çevirib, guya əvvəlcə cəhənnəmlik yazılıb sonra cənnətlik əməllərə

məcbur edilirmiş kimi iddia qaldırmaq heç bir doğruluq tərəzisində qəbul olunmaz. Arxa planda imtahandan boyun qaçırmaq üçün ortaya atılan bu fəlsəfə ən acı əzaba yaxalanmağı seçməkdən başqa bir şey deyil.

Xeyri də, şəri də yaradan Allahdır. Lakin Rəbbimizin şərə rizası yoxdur. Amma imtahan məqsədi ilə şəri də yaratmışdır.

Rəbbimizin insanın günah işləməsinə izin verməsi imtahan şərtləri səbəbi ilədir.

Əslində buna da hər zaman izin vermir. Bir çox günah niyyət, yaxud təşəbbüs mərhələsində olduğu halda Rəbbimizin izin verməməsi səbəbindən əmələ sirayət etmir.

Lakin əksini fikirləşək. Əgər Allah-Təala heç bir günahın işlənməsinə izin verməsəydi, o zaman imtahanın nə mənası qalardı? Cənnətin də heç bir mənası qalmazdı.



Bütün çağlar şahiddir ki, İnsan imək-ləyə-iməkləyə elmə can atır. Hər dövrdə insana verilən əski və yeni məlumatlar, əslində daim ilahi əzəmət və qüdrəti yada salmaq üçün Allahın bizə rəhməti, ehsanı və ikramıdır.

Gəlin, dünyada imtahan keçirilən məktəbləri düşünək. Hər kəsə imtahansız tibb diplomu verilsəydi, həkim olmağın bir dəyəri qalardımı?

İnsanın fitrətində yarışma, bir-birini keçmə, mücadilə etmə və ən azından bir az da olsa nəyəsə layiq olma şüuru var. Allah-Təala buyurur:

“...Xeyirli işlərdə bir-birinizlə yarışın!..” (əl-Maidə, 48)

Ayeyi-kərimədə belə buyurulur:



Bu kainat kitabının hikmət və həqiqət yüklü sətirlərini layiqincə oxuyan, anlayan və dərin təfəkkür dəryasına dalanlar necə də bəxtəvərdirlər.

اَيُّكُمْ اَحْسَنُ عَمَلاً

“Hansınızın əməlcə daha gözəl olduğunu sınamaq (bəlli etmək) **üçün ölümü və həyatı yaradan Odur…”** (əl-Mülk, 2)

Onu da dərk etmək lazımdır ki, dünyadakı bir insan yoxdan var etmədiyi halda, sadəcə maaşını verib işlətdiyi bir işçisini əmrinə itaətsizlik etdiyi üçün işdən çıxardar. Onu işsiz qoyar, bəlkə də, bu yolla aclığa düçar edər. Lakin buna görə heç bir narahatlıq keçirməz. “Əmrimi yerinə yetirməyəcəksə, boş yerə nə üçün bəsləməliyəm?” – deyər.

Bəs Allah-Təala əmrini yerinə yetirməyən, hətta zatını inkar edən qullarını nemətlər içində yaşatmağa məcburdurmu? Haşa!..

O, istədiyini edər. Lakin zülm etməz. Ədalətlə, mərhəmətlə və hikmətlə rəftar edər. Məhz bu səbəblə dünyada saysız üsyanlarına rəğmən inkarçıların belə ruzisini kəsməz. Ayeyi-kərimələrdə buyurulur:

اِنَّ اللّٰهَ لَا يَظْلِمُ النَّاسَ شَيْـًٔا
وَلٰكِنَّ النَّاسَ اَنْفُسَهُمْ يَظْلِمُونَ

“Həqiqətən, Allah insanlara zərrəcə zülm etməz, lakin insanlar özləri özlərinə zülm edərlər!” (Yunus, 44)

وَمَا ظَلَمَهُمُ اللّٰهُ وَلٰكِنْ اَنْفُسَهُمْ يَظْلِمُونَ

“...Onlara Allah zülm etmədi, lakin onlar özlərinə zülm edirlər”. (Ali-İmran, 117. Həmçinin bax. ən-Nəhl, 33)

Bu suallar da yuxarıdakılara bənzəyir:

“Bu dünyaya gəlməyi mən özüm seçmədim. Allah mənim bunu yüklədiyimi və xatırlamadığımı söyləyir”.

Bunu söyləyən insan; sənin həyatda və əşyada həyata keçirdiklərin də belə deyilmi?

Daşı işləyib ortaya sənət əsəri qoyanda bunun seçimi daşa aiddir, yoxsa sənə?

Əlbəttə ki, sənə. Məntiqli olan da bu deyilmi? Budur. Seçim daşa aid olsaydı, necə olardı?

Allaha qarşı işlətmək istədiyin bu xüsusdakı çəp məntiqi daşda olduğu kimi özün və şəkil verdiyin əşyalar arasında işlətsən, yaşaya bilməzsən.

İştahla seçib yediyin meyvələrdən onların seçimini soruşursanmı?

İştahla yediyin ət, balıq, toyuq və digər qidaların seçimini soruşursanmı?

İstədiyin kimi yonduğun daşlardan buna razı olub-olmadığını soruşmaq barəsində düşündünmü?

Həmçinin həmin daşlar sənin sənətini özləri yüklənmiş olmurmu? Olur! Yaxşı, bəs eyni məharəti bir kağız parçası da o nisbətdə əks etdirə bilərmi? Xeyr.



Mütəfəkkirlərdən birinin dediyi kimi:

“Elmlə din bir-birindən ayrıldığı təqdirdə (elmsiz) din insanları geriqalmışlığa, (dinsiz) elm isə ateizmə sürükləyər”.

Xristianlıq tarixdə bu yanlışa düşdüyü üçün pozuldu.

Bir şeyi yüklənmək o şeyi icra etməyə münasib olmaqla mütənasibdir. Əks təqdirdə yanlış olar.

Məsələn, qovaq ağacından böyük bir binanın ana sütununu düzəltmək olmaz. Qovaq bu yükü çəkə bilməz. Qırılıb devrilər. Çünki quruluşu buna münasib deyil, nəticə olaraq bu vəzifəni üzərinə götürməmişdir. Lakin şabalıd ağacı bunu yüklənir və əsrlərlə daşıyır. Çünki quruluşu buna münasibdir, o da bunu üzərinə götürmüşdür.

İnsanın ilahi əmanəti yüklənməsi də eynilə bu qəbildən dəyərləndiriləcək bir həqiqətdir. Bütün varlıqların daşımaqdan aciz qaldığı həqiqəti insan daşımağa qadir olduğu üçün təbii olaraq bu əmanət ona yüklənmiş və məsul görülmüşdür.



Dinin batil olanına qarşı çıxmaq yerinə, haqq olanına da qarşı çıxmaq eynilə insanın qidalanmada zəhərli və zərərli maddələrdən uzaqlaşmaqdansa, şəfa və dərman olsa belə, tamamilə qidadan uzaq durması kimidir. Bu da açıq-aşkar intihar deməkdir.

Belə olan təqdirdə "Mənim seçimim deyil" ifadəsində təkəbbür var. Eyni zamanda **məntiq xətası** da var.

- İnsan var olmadıqca ondan seçimi və tərcihi soruşula bilməz.

- Var olduqda, yəni yaradıldıqda isə artıq soruşulacaq bir şey qalmamışdır.

Zatən yuxarıda da nisbətən ifadə edildiyi kimi:

Hər əsər özünün deyil, sənətkarının seçimi olmaq məcburiyyətindədir. İnsan maşın düzəldir, bu icraat o əşyanın

seçimi deyil, onu düzəldən ustanın məharətidir. Buna heç kim etiraz etməz, əksinə, heyran qalar. Üstəlik istifadə edər.

Həmçinin insan divan-kreslo düzəldir, rahatlıqla istifadə edir. Lakin bu, ağacın seçimi deyil. Sənətkarın ustalığıdır.

Belə olan təqdirdə insan Allaha sual olaraq ünvanladığımız zənn etdiyi bu uydurma məntiqi öz etdikləri haqqında işlətsə, nə bir alət düzəldə bilər, nə də bir bina tikə bilərdi. Belə bir sualı şərt qoşmaq həyatı iflic edərdi.

Çünki heç bir maddənin öz seçimi ilə ayaqqabı, ev, maşın və təyyarə olmaq arzusu yoxdur, hər biri insanın seçimi ilə olur.

Yəni dünya imtahanında yalnız iki ehtimal var:

Ya yoxluq, ya da imtahana tabe olmaq.

İmtahandan qaçış yoxdur!

"Həm var olum, həm də imtahan olmasın" kimi arzular boş bir xəyaldır.

Üstəlik var olmaq nemətdir. Belə bir nemət qarşısında "yaradılarkən məndən soruşmadılar" kimi boşboğazlıq etmək eynilə buna bənzəyir:

Bir yanğın əsnasında tələşlə yanğın çıxan yeri boşaldan adamlar yatan birini görüb oyandırırlar. O isə nankorcasına deyir:

"Mənim oyanmaq istəyib-istəmədiyimi soruşdunuzmu ki, yuxudan oyadırsınız?".



Allah qatında qəbul görməyən xristianlıq bu gün quru addan başqa bir şey deyil. Mənsublarına heç bir mənəviyyat və vicdan hüzuru verə bilməyən quru ad...

Belə bir sual soruşulsa, onsuz da yuxudan oyatmış olacaqlar. Üstəlik kim yanmağı istəyər? Yox olmağı, var olmamağı kim istəyər axı?

İnsanı aldadan başqa bir xüsus da boş istəklər və xəyallarla təskinlik tapmasıdır. Yolun sonunda zərərə düçar olanların "Kaş bir daha imtahan olaydıq, kaş torpaq olaydıq, kaş ölüb yox olaydıq..." kimi faydasız istəklərə əl atacaqları ayeyi-kərimələrdə bildirilmişdir.

Rəbbinin lütfü olan insan olmaq şərəfi ilə yaşamaq, Ona qulluqla varlığın tacı olmaq və sonsuz ehsanlarına nail olmaq var ikən bu kimi arzular da qeyd etdiyimiz qaçış ifadələrindən başqa bir şey deyil.



Papa Fransisko ***çıxışlarının birində belə deyir:***

"Eynilə bizim müqəddəs mətnlərə etdiyimiz kimi, müsəlmanların da Quran üzərində tənqidi cəhətdən çalışmaları onlar üçün yaxşı olar. Tarixi və tənqidi izahlar onların inkişafına kömək edəcək".

Allah-Təala insanı yaradılmışların ən şərəflisi sayılan "insan" olaraq xəlq etmiş, mükərrəm/üstün qılmış və ona öz ruhundan üfürmüşdür. Hətta ayeyi-kərimədə buyurulduğu kimi, onu yer üzündə özünə xəlifə seçmişdir:

"(Ey insanlar!) **Verdiyi nemətlərlə sınamaq üçün sizi yer üzünün varisləri təyin edən, dərəcələrə görə birinizi digərinizdən üstün edən Odur..."** (əl-Ənam, 165)

Şeyx Qalib necə də gözəl söyləyir:

Xoşca bax zatına kim zübdeyi-aləmsən sən,
Mərdumi-dideyi-əqvan olan adəmsən sən...

Yəni: Ey insan, könül gözü ilə özünə yaxşı bax. Sən aləmin, yəni yaradılmışların özü və kainatın göz bəbəyi olan adəmsən/insansan.

Burada sual etmək yerinə düşər:

İnsan, insan olaraq dünyaya gəlmək üçün hər hansı bir qarşılıq verdimi? Yaxud da hansı xidməti səbəbi ilə Allah-Təala onu insan olaraq yaratdı?

"İnsan olmaq mənim seçimim deyil", - deyən adama sual etmək lazımdır:

Dəyişməyə razısanmı?

Belə bir imkanın olsa, insanlıq varlığını, ağlını, ruhunu, insanlıq heysiyyətini hər hansı bir soxulcanla, siçanla dəyişərsənmi?

Seçirsən, yoxsa yox?



Bu dünya imtahan yurdudur. Burada imtahandan qaçış yoxdur!

"Həm var olum, həm də imtahan olmasın" kimi arzular boş bir xəyaldır.

Bir adama heç bir haqqı və tələbi olmadığı halda hər cür ehtiyacını artıqlaması ilə qarşılayacaq böyük bir xəzinə hədiyyə edilsə, o adam xəzinə bağışlayan kəsə: "Sən bu xəzinəni mənə necə hədiyyə edirsən? Məndən izin aldınmı?" tərzində narazılıq ifadələri dilə gətirə bilərmi? Belə demək üçün ağıl nemətindən məhrum olmaq lazımdır. Çünki sağlam ağıl sahibi olan bir adamın belə bir hədiyyə qarşısında edəcəyi iş ancaq minnət, məhəbbət və təşəkkür ədası ilə özünü o hədiyyəni verənə borclu bilməsidir.



Rəbbinin lütfü olan insan olmaq şərəfi ilə yaşamaq, Ona qulluqla varlığın tacı olmaq və sonsuz ehsanlarına nail olmaq var ikən "imtahan olmasaydı" demək qaçış ifadələrindən başqa bir şey deyil.

Bu fani dünyada insan bir stəkan su verən adama qarşı təşəkkür etməyi özünə borc bilir. Elə isə başda insanlıq neməti olmaqla quluna saysız-hesabsız nemətlər bəxş edən Allaha qarşı işlənən belə bir söz nə qədər də çirkin bir ifadədir.

İnsan layiq olduğu və ya hər hansı bir qarşılıq ödədiyi üçün yaradılıb dünyaya göndərilmir. Əksinə, heç bir sərmayə qoymadan, yoxdan var edilib dünyaya göndərilir. Sahib olduğu hər şey tamamilə Allahın lütfüdür.

Allah-Təala onu yerdə sürünən ilan kimi də yarada bilərdi və buna heç bir etiraz edə bilməzdi. Çünki insan və cinlərdən başqa heç bir məxluq imtahan olunmadığı üçün onlarda Allahın əmrinə müxalif davranacaq heç bir seçim səlahiyyəti də yoxdur.

Heyvanların da yaradılışı əbəs yerə deyil. Onların öz aralarında müəyyən bir nizam var. Onlar Allah-Təalanın **"əl-Bari"** və **"əl-Musavvir"** isimlərinin təcəllisidirlər. Hər biri misilsiz şəkildə yaradılmışdır və hər birinin özünəxas xüsusiyyətləri var. Onlar bu dünyada öz həmcinsləri arasında bəxtiyardırlar. Öz çevrələrindən ayrılanda həmcinslərinə doğru qaçarlar.

Bu da Allah-Təalanın başqa bir qüdrət təcəllisidir ki, hər heyvana öz həmcinslərini sevdirmişdir. Onlar bu hallarından razıdırlar. Heyvanların sakit və hüzurlu hallarını bu misal necə də gözəl ifadə edir:

“Ey insan oğlu, aləm yaradıldığı gündən bəri heç bir quş qonşusundan daha çox yuva qurmağa çalışmadı. Heç bir tülkü gizlənmək üçün sadəcə bir yuvası olduğuna görə kədərlənmədi. Hələ indiyə qədər heç bir dələ bir deyil, iki qışa yetəcək qədər qoz yığmadığı üçün tələşdən ölmədi. Heç bir köpək qocalıq dövrünə sümük yığıb saxlamadığı üçün yuxusu ərşə çəkilmədi”.

Yəni bütün məxluqat Allah-Təalanın onun haqqında yazdığı təqdirinə riza halında yaşayır. Çünki Haqq-Təala yaratdığı hər bir məxluqu səadət içində yaşayacağı şəkildə xəlq etmişdir.

Məsələn, ilan öz həmcinsləri arasında xoşbəxtdir. Rəngarəng quşlar həyatlarından məmnundurlar. Hətta **Mövlana həzrətləri**nin buyurduğu kimi:

“Taxtanın içində yaşayan qurd “Kimin belə dadlı halvası var”, - deyərək həyatını xoşbəxtcəsinə davam etdirir. Onların yeganə narazılığı insan oğlunun onları təbii həyat şərtlərindən qoparıb heyvanxanalarda qəfəsə salması, yaxud da sirk arenalarında əyləncə vasitəsinə çevirməsindən qaynaqlanır. İnsanların quşu qəfəsə, balığı akvariuma salması da onlara edilən ağır zülmlərdəndir.



Ey insan oğlu, aləm yaradıldığı gündən bəri heç bir quş qonşusundan daha çox yuva qurmağa çalışmadı. Heç bir tülkü gizlənmək üçün sadəcə bir yuvası olduğuna görə kədərlənmədi.

Elə isə insanın məmnuniyyətsizlik və üsyan içində sanki Rəbbindən hesab soruşmağa qalxması ona bəxş edilmiş olan yüksək vəsflərə qarşı **dəhşətli bir qəflət, axmaqlıq və**

böyük nankorluq sayılar. Bu qədər cahil bir hərəkət insana verilən ağıl və idrakı heçə saymaqdan fərqsizdir.

Həmçinin insanın belə bir xətaya düşməsi Yaradanla yaradılan arasındakı münasibəti insanlar arasındakı münasibət kimi zənn etməsindən qaynaqlanır.

Unutmamaq lazımdır ki, Allah-Təala yaradan və yoxdan var edən **"Xaliq"**, insan isə yoxdan var edilən "məxluq"dur.

Bu sualı daha çirkin formada, *"Allah məni yaradarkən fikrimi soruşdumu?"* tərzində axmaq bir üslubla ortaya atdıqlarını da eşidirik.



Ey insan oğlu, hələ indiyə qədər heç bir dələ bir deyil, iki qışa yetəcək qədər qoz yığmadığı üçün tələşdən ölmədi. Heç bir köpək qocalıq dövrünə sümük yığıb saxlamadığı üçün yuxusu ərşə çəkilmədi.

Haqq-Təala "Sən bir heç idin, səni Mən yaratdım", - buyurur.

"Heç" olan bir şey **"Sonsuz Qüdrət"** qarşısında nə ifadə edər? Üstəlik heç bir qüsuru olmayan ali iradə və hökmün tamamən qüsurlu olan bir heçdən nə isə soruşması nə qədər məntiqlidir? Məgər içiboş bir heçdən nə isə soruşarlar?

Qaldı ki, ey insan!

Yediyin qidalardan "Mənim üçün ruzi olarsınızmı?" – deyə soruşdunmu? Yediklərindən heç razılıqlarını aldınmı? Kimdən soruşub onları çeynəyirsən? Kəsib-doğradığın əşyadan, ətindən, südündən, dərisindən faydalanmaq üçün canını aldığın heyvandan fikrini soruşdunmu? Razılıqlarını

aldınmı? Zövq üçün budağından qopartdığın o zərif çiçəklərdən izin alırsanmı?

Lakin hər şeyə rəğmən Allah-Təala səndən soruşur:

"Ey insan, cənnəti istəyirsən, yoxsa cəhənnəmi?".

Gedəcəyin yeri seçməyi sənin ixtiyarına verir. Yəni seçim insana aiddir. Allah kitab göndərib soruşur:

"Ey insan, cənnəti istəyirsən, yoxsa cəhənnəmi?".

Peyğəmbərlər vəsiləsi ilə soruşur:

"Ey insan, cənnəti istəyirsən, yoxsa cəhənnəmi?".

Sonra da belə buyurur:

"İstər şükür et, istər nankorlardan ol!". (Bax. əl-İnsan, 3)



İnsan layiq olduğu və ya hər hansı bir qarşılıq ödədiyi üçün yaradılıb dünyaya göndərilmir. Əksinə, heç bir sərmayə qoymadan, yoxdan var edilib dünyaya göndərilir. Sahib olduğu hər şey tamamilə Allahın lütfüdür.

Ey qafil və cahil, Allahın sənə verdiyi bu seçim haqqını görməyib "Yaradarkən məndən soruşmadı", - deyə boş-boşuna cəhalət sözləri söyləyirsən.

Heyrət! Allahın yaratdığı və əmanət etdiyi bu aləmdə sənin hər şeyi etməyin haqq, haşa, Allah üçün haqq deyil?

Bu nə nankorluqdur!

Unutma ki, bu dünyada sənə təsərrüf haqqını Rəbbin verdi. Ayeyi-kərimədə buyurulur:



Allah-Təala insanı yerdə sürünən ilan kimi də yarada bilərdi və buna heç bir etiraz edə bilməzdi. "Nə üçün insan olaraq yaratdı?" demək necə də böyük nankorluqdur.

"Göylərdə və yerdə nə varsa, hamısını öz tərəfindən sizin ixtiyarınıza qoyan da Odur. Həqiqətən, bunda düşünən bir qövm üçün ibrətlər vardır!". (əl-Casiyə, 13)

Unutma!

Allahın sənə heç bir ehtiyacı yoxdur. O, lütf və kərəmi ilə səni yaratdı. Sadəcə tərbiyə etmək və beləliklə insani sifətini ucaltmaq, yəni fəzilətli bir qul halına gətirərək cənnətində qonaq etmək istəyir. Bu ayəni təkrar-təkrar oxumalısan:

"Ey insan! Səni kərim olan Rəbbinə qarşı aldadan (və ya: məğrur edən) **nədir? O Rəbbin ki, səni** (yoxdan) **yaratdı, düzəldib qaydaya** (insan şəklinə) **saldı. Sənə Özü istədiyi surətdə biçim verdi".** (əl-İnfitar, 6-8)

Aldanış içərisində söylənən bütün laqqırtılar cəhalət və hikmətdən uzaq olmanın əsəridir.

Buna bənzər sözlərlə insanları yoldan çıxaranlara sual verilsəydi, görəsən həqiqətən yoxluğu seçərdilərmi? Yoxsa cənnəti istəyərdilər?

Bu xüsusda təfəkkürə qapı açan bir sualı da biz verək:

Nə üçün Allah qullarından soruşmaq məcburiyyətində olsun? Nəzəriyyə baxımından belə bir məcburiyyət yoxdur axı.

Belə ki, trafikə çıxanlar avtomatik olaraq yol hərəkəti qaydalarını qəbul edirlər. Bir ölkədə dünyaya gələn vətəndaşlar avtomatik olaraq o ölkənin qanunlarına tabe olurlar.

Həyata gələn insanlar da həyatın qaydalarına qarşı çıxa bilmir, məcburən təslim olurlar. "Od nə üçün yandırır, soyuq nə üçün dondurur?" – deyə fizika qanunlarını sorğulamaq haqqını özlərində tapa bilmirlər. Bu qaydaları qəbul edilməsi məcburi olan əsaslar kimi minimsəyirlər.

Fəqət söhbət mənəvi həyatın şərti olan imtahana gəldikdə absurd qəflət fəlsəfəsinə sığınırlar.



İnsan absurd vəsvəsələr icad etdiyi üçün imtahandan qurtula bilməyəcək. Ayeyi-kərimədə buyurulur:

"Gör onlar özlərinə qarşı necə yalan deyirlər. Özlərindən uydurub düzəltdikləri bütlər də onlardan qeyb olacaq *(yox olub gedəcək)!".*

(əl-Ənam, 24)

Unutmamaq lazımdır ki, insan ancaq bildikcə sükuta bürünür. Ancaq mərifəti artdıqca heçlikdəki idrakı artar. İdraksızlar da pis əməllərini və nöqsanlarını örtbasdır etmək üçün verdikləri: *"Allah qəlblərini möhürlədiyi insanları nə üçün cəhənnəmlə cəzalandırır?"* kimi sualların bataqlığında boğulurlar.

Qul möhürlətmədikcə Allah öz yaratdığı qulun qəlbini möhürləyərmi? İşə yaramaz hala gəlmədən bir əşyanı kim zibilqabına atar? Qəlbi möhürlənmiş adamda, hər şeydən əvvəl, görəsən, nə üçün qəlbinin möhürləndiyinə baxmaq lazımdır.

Bu düsturu da unutmamaq lazımdır:

Allah sonsuz rəhmət və hikmət sahibidir. Qullarına zülm etməz. Əbəs, qayəsiz və mənasız bir iş də görməz.

Yəni əgər Allah bir qulunun qəlbini möhürləyirsə, bunun bir hikməti və səbəbi vardır. hər nə qədər biz bunu bilməsək də…

Necə ki, Rəbbimiz Qurani-Kərimdə: "لَا يَهْدِى / Allah (bu vəsfə sahib olanlara) hidayət etməz!" ayələri ilə səbəblərin bəzisini bizə bildirmişdir.

Nəticə olaraq, nankorluq, zülm, fisq, fücur və yalançılıq kimi pis xislətdə israr edənlərin qəlblərini möhürləməkdədir.[2]



Ey qafil və cahil, sən "Yaradarkən məndən soruşmadı", - deyə boş-boşuna cəhalət sözləri söyləyirsən. Allah-Təala buyurur: "İstər şükür et, istər nankorlardan ol!".

(Bax. əl-İnsan, 3)

Allah-Təala sevdiyi və sevmədiyi vəsfləri zikr etmişdir. Buna görə də, Rəbbinin sevmədiyi vəsflərdə israr edənlərin hidayətdən məhrum olmalarına təəccüblənməmək, haşa, bunu bir zülm kimi görməmək lazımdır.

Buraya qədər toxunduğumuz sualların hər biri varlıq səbəbimiz olan imtahanı sorğulamağa çalışır. Onda məntiq xətası axtarmağı hədəfləyir. Halbuki həqiqət açıq-aydın meydandadır. Labirintli yollara düşməyə lüzum yoxdur. Həmçinin insan bu kimi vəsvəsə icad etdiyi üçün imtahandan da qurtulmayacaq. Ayeyi-kərimədə buyurulur:

2. Bax. əl-Bəqərə, 258, 264; Ali-İmran, 86; əl-Maidə, 51, 67; əl-Ənam, 144; ət-Tövbə, 19, 24, 37, 80, 109; ən-Nəhl, 107; əl-Qasas, 50; əz-Zumər, 3; əl-Mumin, 28; əl-Əhqaf, 10; əs-Saff, 5, 7; əl-Cumuə, 5; əl-Munafiqun, 6.

“Gör onlar özlərinə qarşı necə yalan deyirlər. Özlərindən uydurub düzəltdikləri bütlər də onlardan qeyb olacaq (yox olub gedəcəklər)**!”.** (əl-Ənam, 24)

Bəziləri: *“Öldükdən sonra diriləcəyiksə, nə üçün ölürük?”* - kimi boş və mənasız fikirlərə qapıla bilirlər.

AXİRƏTİN QAPISI – ÖLÜM

Halbuki, ölüm insanın imtahanında ikitərəfli bir vəsilədir.

Allaha və axirət gününə inanmayanlar ölümün son olduğunu zənn edərlər. Yəni ölümün varlığı ölümdən sonra yaşanacaqlar üçün bir pərdə olar. Həşri inkar edənlər çürümüş sümükləri əllərinə alıb:

“Bunu kim dirildəcək?”, - deyə istehzalı suallar verirdilər.

Amma düşünmürdülər ki,

“Onu ilk dəfə yaradan kimdirsə, o da dirildəcəkdir”. (Bax. Yasin, 78-79)

İman edənlərsə ölümün əsas həyat olan axirətə açılan bir qapı olduğunu dərk edərlər. Ölümü təfəkkür edərək bu fani həyatın aldadıcı tələlərinə düşməzlər. Bu aləmin bir dayanacaq olduğunu qəbul edib ona bağlanmazlar.

Ölüm faniliyin elanı olduğu üçün əslində o da həyat və ömür kimi bir



Allah sonsuz rəhmət və hikmət sahibidir. Qullarına zülm etməz. Əbəs, qayəsiz və mənasız bir iş də görməz. Yəni əgər Allah bir qulunun qəlbini möhürləyirsə, bunun bir hikməti və səbəbi vardır; hər nə qədər biz bunu bilməsək də…

nemətdir. Mülk surəsində belə buyurulur:

“Hansınızın əməlcə daha gözəl olduğunu sınamaq (bəlli etmək) **üçün ölümü və həyatı yaradan Odur. O, yenilməz qüvvət sahibidir,** (çox) **bağışlayandır”.** (əl-Mülk, 2)

Həzrət Mövlana buyurur:

“Oğul, hər kəsin ölümü öz rəngindədir. İnsanı Allaha qovuşdurduğunu düşünmədən ölümə nifrət edənlərə və düşmən olanlara ölüm qorxulu düşmən kimi görsənər. Ölümlə dost olanların qarşısına isə dost kimi çıxar.

Ey ölümdən qorxub qaçan can, məsələnin əslini, sözün doğrusunu bilmək istəsən, əslində sən ölümdən qorxmursan, sən özündən (günahlarından) qorxursan.

Çünki ölüm güzgüsündə görüb hürkdüyün, qorxduğun şey ölümün çöhrəsi deyil, öz çirkin üzündür.

Sənin ruhun ağaca bənzəyir. Ölümsə o ağacın yarpağıdır. Hər yarpaq ağacın cinsinə görədir”.

Əgər bu imtahanda ölüm olmasaydı, qiyamətə qədər doğulacaq hər kəs yaşamağa davam etsəydi, imtahan daha ağır olardı. Halbuki yaşlanmaq, orta yaşlardan sonra güc və qüvvətin azalmağa başlaması və nəhayət ölmək bu dünyanın fani olduğunu, əsas həyatın axirət olduğunu göstərən bir vasitədir.



Rəbbimiz Qurani-Kərimdə: “لَا يَهْدِى / Allah (bu vəsfə sahib olanlara) hidayət etməz!” ayələri ilə səbəblərin bəzisini bizə bildirmişdir. Nəticə olaraq, nankorluq, zülm, fisq, fücur və yalançılıq kimi pis xislətdə israr edənlərin qəlblərini möhürləməkdədir.

Əlbəttə ki, görən və idrak edənlər üçün...

Yasini-Şərifdə buyurulur:

"Hər kimə uzun ömür versək, onu xilqətcə dəyişib tərsinə çevirərik, başqa şəklə salarıq. Məgər dərk etməzlərmi?" (Yasin, 68)

Ölüm ona görə var ki, insan öz acizliyini dərk etsin. Allah-Təala Vaqiə surəsində ölən adamın başındakı adamlara belə səslənir:

"(Can) **boğaza yetişdiyi** (ölüm gəlib çatdığı) **zaman, siz** (ona) **baxıb dursunuz** (əlinizdən heç bir şey gəlmir)**. Biz ona sizdən daha yaxınıq, amma siz** (bunu) **görmürsünüz! Əgər sizdən** (dediyiniz kimi, qiyamət günü əməllərinizə görə) **haqq-hesab çəkilməyəcəksə, Və əgər** ("öləndən sonra heç bir dirilmə, haqq-hesab yoxdur" sözünü) **doğru deyirsinizsə, bəlkə,** (o çıxan canı) **geri** (bədənə) **qaytarasınız?!"** (əl-Vaqiə, 83-87)



Həzrət Mövlana:

"Oğul, hər kəsin ölümü öz rəngindədir. İnsanı Allaha qovuşdurduğunu düşünmədən ölümə nifrət edənlərə və düşmən olanlara ölüm qorxulu düşmən kimi görsənər. Ölümlə dost olanların qarşısına isə dost kimi çıxar".

Ölüm ona görə var ki, insan yenidən dirilişdən sonrakı əbədi həyatın Allahın iradəsi ilə gerçəkləşdiyini yaxşı dərk etsin. Əgər ölüm olmasaydı, insanlar "Biz onsuz da əbədi varlıqlarıq", - deyə düşünərdilər. Ehtirasla bir-birilərini yeyərdilər.

İnsan düşünməlidir ki, bu dünyaya gələn nə üçün gəlir, gedənlər hara gedir?

* Kimin mülkündə yaşayırıq?

* Kimin verdiyi ruzi ilə qidalanırıq?

* Bu gediş harayadır?

Bu suallar ətrafında təfəkkürə dalmaq insanın bu dünyanın məktəbi-aləm olduğunu, imtahan diyarı olduğunu idrak etməsinə vəsilə olar.



Həzrət Mövlana:

"Ey ölümdən qorxub qaçan can, məsələnin əslini, sözün doğrusunu bilmək istəsən, əslində, sən ölümdən qorxmursan, sən özündən (günahlarından) qorxursan".

BƏRABƏRLİK BAŞQA, ƏDALƏT BAŞQA

Sual: *Biz müsəlman ailədə dünyaya göz açdığımıza görə Allaha inanırıq. Allaha iman etməyən ailədə doğulanların nə günahı var?*

Sual: *Allah nə üçün bir quluna əziyyət verərkən digərinə rahatlıq bəxş edir? Nə üçün Rəbbimiz bu məsələdə ayrı-seçkilik edir?*

Hər iki sual qədər sirri ilə əlaqəli olduğu üçün birlikdə cavablandıraq.

İnsanlar çox vaxt bərabərliklə ədaləti bir-birinə qarışdırırlar. Bərabərlik hər zaman ədalət mənasına gəlmir.

Əgər bərabərlikdən bəhs etsək, yuxarıda sadaladığımız ağıl və idrak nemətlərini Allahın qullarına bərabər şəkildə verdiyini xatırlatmaq istərdik.

Qeyri-bərabər şərtlərdə yaşayan insanlar bir-biriləri ilə eyni şərtlərdə mühakimə edilsələr, o zaman ədalətsizlikdən danışmaq mümkündür.

Halbuki Haqq-Təalanın mühakiməsi və hesabı hər bir fərdə görə xüsusidir. Allah-Təala insanların bu xüsusdakı narahatlığını aradan qaldırmaq üçün belə buyurmuşdur:

"Allah hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyər (bir işə mükəlləf edər)**..."** (əl-Bəqərə, 286)

Hər kəs ömür sürdüyü şərtlərə görə imtahana çəkilir. Həmçinin Allah-Təala bu həyatdakı bütün çətinlikləri, müsibət və sıxıntıları əcr vəsiləsi qılmışdır.

Məsələn, bu dünyada gözdən əlil vəziyyətdə yaşayanlar səbir etsələr, axirətdə nail olacaqları nemətlər qarşısında dünyada ikən gözlərinin görməməsinə şükür edəcəklər.



"Hər kimə uzun ömür versək, onu xilqətcə dəyişib tərsinə çevirərik, başqa şəklə salarıq. Məgər dərk etməzlərmi?"
(Yasin, 68)

Allah qullarına əsla zülm etməz. Ayeyi-kərimədə buyurulur:

إِنَّ اللَّهَ لَا يَظْلِمُ مِثْقَالَ ذَرَّةٍ

"Həqiqətən, Allah (heç kəsə) **zərrə qədər zülm etməz..."** (ən-Nisa, 40)

Bəli, iman bu prinsiplərə də inanmağı gərəkli qılır. Mömin Allahın rəhmətindən şübhəyə düşməz. Onun zülm edəcəyini ağlına belə gətirməz.

Bəziləri İslam dininin mütləq həqiqət olmadığını iddia etmək üçün

yuxarıdakı sualda yer alan zehniyyəti istismar edərək belə deyirlər:

"Hər kəs öz ata-anasının, yaşadığı cəmiyyətin dininə inanır. Onda belə çıxır ki, mütləq mənada doğru bir inanc yoxdur. İnanc izafidir. Hər kəsin doğrusu özünə görə doğrudur..."

Əlbəttə ki, bu yanaşma tərzi doğru deyil. İslamiyyət əsrlərdən bəri təbliğin yetişmədiyi bir coğrafiyada başladı. Oradakı insanlar "biz ata-babalarımızın dinindən ayrılmarıq", - dedilər. Hz. Peyğəmbər bu təəssüblə mücadilə apardı.



***"Hansınızın əməlcə daha gözəl olduğunu sınamaq** (bəlli etmək) **üçün ölümü və həyatı yaradan Odur. O, yenilməz qüvvət sahibidir,** (çox) **bağışlayandır".** (əl-Mülk, 2)*

Hər insanın daxilindəki imtahanı şəxsi olaraq cərəyan edər. Məscidin kölgəsində yaşayan neçə-neçə insan var ki, təəssüf ki, imanını itirmiş və ya günaha dalmışdır. Lakin İslam dininin hakim olduğu bölgələrdən minlərlə kilometr uzaqda yaşayan bir çox insana da hidayət nəsib olmuşdur.

İman qədərlə bağlı ilahi sirdir.

İllər uzunu Peyğəmbərimizə qol-qanad gərən **Əbu Talib**ə iman nəsib olmadığı halda Hz. Həmzəni qətl etdirib ciyərini dişləyən **Hind**ə iman nəsib olmuşdur. Bu nəsiblərin hikmətini biz bilmirik. Çünki ağlımız məhduddur.

Necə ki, Kəhf surəsində Musa (ə.s) ilə Xızır (ə.s) arasındakı qissədə Musa (ə.s) Hz. Xızırın göstərdiyi üç hadisəni

ağılla çözə bilməyib etiraz etdi. Lakin hikmətini Xızırdan öyrəndikdən sonra ürəyi rahatlaşdı.

Məsələn, **Əbu Talib**in iman gətirməməsinin batini səbəbini bilmirik, lakin zahiri olaraq belə demişdi:

"Ey qardaşımın oğlu, sənə iman etsəm, Qüreyş qadınları mənə lağ edərlər..." (Bax. Vahidi, Əsbabu Nüzulil-Quran, s. 268 / ət-Tövbə, 113)

Yəni Qüreyş qadınlarının qınağına tuş gəlməməyi Allah Rəsuluna tabe olmaqdan üstün tutdu.

Digər tərəfdən, kəlam alimləri heç bir ilahi dəvətin yetişmədiyi, peyğəmbər səsi eşitməyən bir adamın bu dünyadakı min bir əzəmət və hikmət təcəlliləri nə baxaraq Allahın varlığını və birliyini təsdiq etməsini zəruri görmüşlər.



İnsanlar çox vaxt bərabərliklə ədaləti bir-birinə qarışdırırlar. Bərabərlik hər zaman ədalət mənasına gəlmir. İnsanların qədər gərəyi müxtəlif şərtlərdə dünyaya gəlməsi ədalətsizlik deyil.

Onu da unutmamaq lazımdır ki, Allah-Təalanın rəhməti də, qəzəbi də kiçicik bir şeylə təcəlli edə bilər. Bunun hikmətini anlamaq bizim idrakımızı aşar.

Başqa bir sual və ya vəsvəsə isə belədir:

Sual: *"Sonsuzluq məfhumu ağlasığmaz bir məfhumdur. Allahın sonsuz olmasını dərk edə bilmirəm".*

İnsan məhdud varlıqdır. İnsanın idrakını da qarışqa anlaya bilməz.

OKEANI STƏKANA SIĞDIRMAQ MÜMKÜNDÜRMÜ?

Sonsuzluğu dərk etməyi bir kənara qoyun, yaradılmış bu dünyanı da anlamaqdan acizik. Makro aləmlərdəki sayları tələffüz edəcək sözlərimiz belə yoxdur... Trilyon dəfə trilyon deyib izah etməyə çalışırıq.

Mikro aləmdə də idrakımız tükənir.

İdrak edə bilmədiyimiz bir şeyə "yoxdur" deyə bilmərik. Bir çoxları riyaziyyat sahəsində xeyli məsələni anlamır. Onlar anlamır deyə həmin məsələ ortadan qalxmaz. Biz acizik. Elə isə Haqq qarşısında heçliyimizi dərk edək.



Haqq-Təalanın mühakiməsi və hesabı hər bir fərdə görə xüsusidir. Allah-Təala insanların bu xüsusdakı narahatlığını aradan qaldırmaq üçün belə buyurmuşdur:

"Allah hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyər *(bir işə mükəlləf edər)..."* *(əl-Bəqərə, 286)*

Həmçinin bunu da ifadə edək:

Dinimiz bütün dünyanı əhatə etdiyi üçün, eyni zamanda zəif və güclü olan bütün idrakı hədəflədiyi üçün zehinləri çətinlik qarşısında qoyacaq dərin nəzəri vəzifələr verməmişdir. İman və ibadət vəzifələrimizə təslimiyyətlə yanaşdığımızda hər kəs tərəfindən gerçəkləşdirilə biləcək qədər asan və fitri olduğunu görərik. Zatən Allah-Təala zatının təfəkkür edilməsini əmr etmir. Hətta hədisi-şəriflər bizi bu sahədə düşünməkdən çəkindirir. Hədisi-şərifdə buyurulur:

"Allahın yaratdıqları üzərində təfəkkür edin, (yəni sifət təcəlliləri, ilahi əzəmət axışları və qüdrət naxışları üzərində Allahın varlığını və əzəmətini təfəkkür edin).

Zatı haqda düşünməyin. Çünki siz Onun qədrini (qiymət və əzəmətini Ona layiq surətdə) əsla təqdir edə bilməzsiniz...” (Deyləmi, Müsnəd, II, 56; Heysəmi, Məcmauz-Zəvaid, I, 81)

Biz Rəbbimizin sifətlərini, sonsuz əzəmət və qüdrət axışlarını təfəkkür edərik və bunlar da bizim üçün iman açarı olar.

Bir stəkana nəhəng okeanı sığdırmaq mümkündürmü? Dolan kimi daşmağa başlayar. Bəsit bir misalla izah etsək, birinci sinif şagirdinə universitet kitabları oxutmaq olmaz.

Qulun Allahı idrak etməyə can atması bundan daha imkansızdır. Hüdudları və çərçivələri olan bir varlıq qeyri-məhdud olan varlığı anlaya bilməz.



Kəlam alimləri heç bir ilahi dəvətin yetişmədiyi, peyğəmbər səsi eşitməyən bir adamın bu dünyadakı min bir əzəmət və hikmət təcəllilərinə baxaraq Allahın varlığını və birliyini təsdiq etməsini zəruri görmüşlər.

Ayeyi-kərimədə buyurulur:

“Əgər yer üzündəki bütün ağaclar qələm, dərya da arxasından yeddi dərya qatılaraq (mürəkkəb) **olsaydı, yenə də Allahın sözləri** (yazmaqla) **tükənməzdi. Həqiqətən, Allah yenilməz qüdrət, hikmət sahibidir!”.** (Loğman, 27)

Sual: *“Qədərdə nə vaxt öləcəyimiz bəllidirsə, sədəqə ömrü necə uzadır?”*

Allah-Təalanın bu dünyadakı hadisələri təqdir etməsinə qədər deyirik. Allahı idrak edə bilməyəcəyimizə görə Onun elmini “öncə və sonra”

kimi bizə aid zaman şərtləri ilə dəyərləndirə bilmərik.

Məsələn, qədərimiz bəllidir, lakin ibadət edirik, qədərimiz bəllidir, amma dua edirik, sədəqə veririk. Çünki bizim bilgimiz nöqsandır.

Əgər dua ediriksə və ya sədəqə veririksə, qeybi bilən Rəbbimiz bunu da bilir və zatən qədərimizdə dua edib, sədəqə verəcəyimiz də yazılmış deməkdir.



Allah-Təalanın rəhməti də, qəzəbi də kiçik bir şeylə təcəlli edə bilər. Bunun hikmətini anlamaq bizim idrakımızın fövqündədir. Qulun borcu Ona sığınmaqdır.

Əgər Rəbbimiz bizim qədərimizi və cüzi iradəmizlə aldığımız qərarları, əməllərimizi və davranışlarımızı bilməsəydi, bu, haşa, Onun üçün nöqsan olardı. Halbuki Allah-Təala hər cür nöqsandan uzaqdır. Qeybi/gələcəyi bilməmək insana məxsus olan xüsusiyyətdir. Allah-Təalanı bu xüsusdan tənzih edirik.

Qədər mövzulu münaqişələrin heç kimə faydası yoxdur. Tarixən ağlı əsas alan bir çoxları bu münaqişələrin sonunda ya qədəri inkar ediblər, yaxud da iradənin olmadığı nəticəsinə gəliblər. Hər ikisi həqiqətdən uzaq olan nəticədir.

Əslində bizə veriləcək sualların dərdini çəkməliyik. Qiyamət günü bizdən "Qədər müəmmasını aydınlaşdıra bildinmi?", - deyə soruşmayacaqlar.

"Ömrünü harada tükətdin?"

"Elminlə hansı işləri gördün?"

"Malını haradan qazanıb haraya xərclədin?"

“Bədənini harada tükətdin?” – kimi suallar verəcəklər.

Bu sual da cəhalətlə verilmiş və ilahi qüdrəti təfəkkürdən məhrum bir sualdır:

Sual: *“Allahın ehtiyacı olmadığı halda bizi nə üçün sınağa çəkir?”*

Allah-Təalanın heç nəyə ehtiyacı yoxdur. Ehtiyac aciz olan varlıqlara aiddir.

Lakin biz möhtacıq.

Var olmaq üçün Allahın bizi yaratmasına möhtac idik, bizi yaratdı.



“Əgər yer üzündəki bütün ağaclar qələm, dərya da arxasından yeddi dərya qatılaraq *(mürəkkəb)* ***olsaydı, yenə də Allahın sözləri*** *(yazmaqla)* ***tükənməzdi. Həqiqətən, Allah yenilməz qüdrət, hikmət sahibidir!”.***

(Loğman, 27)

Həyat, ağıl və səhhət nemətlərinin hər birinə möhtac idik, bizə bəxş etdi.

İndi də fani həyatla razılaşmırıq. Əbədi həyatı, yəni cənnəti istəyirik. Onun da yollarını göstərdi və bizə bələdçilər göndərdi.

Buna rəğmən “bizi nə üçün imtahan edir, niyə sınağa çəkir”, - demək rəvadırmı?

Əksinə, şükür etməliyik. Bütün bu nemətləri bizə heç bir qarşılıq almadan verdi.

Rəbbimiz: “Məhdud ömründə sənin üçün həddən artıq asanlaşdırılan qulluq vəzifələrini əda et, əbədi cənnəti bəxş edim”, - deyir.

Biz isə bunun müqabilində:

“Nə üçün qarşılıqsız vermirsən?”, - deyirik. Bu cür düşünmək ağıl işi deyil.

Sual: *“Cənnətdə bir adamı istəyirəm, o da başqa birisini istəyir. Bu necə olacaq?”*

Cənnətdə hər istədiyimizin olması, əlbəttə ki, digər cənnətliklərin də arzuları ilə yanaşı olacaq. Həqiqətən, Rəbbimizin rizasına nail olmuşuqsa, istədiyimiz digər adamın da qəlbini bizi istəyəcək hala gətirə bilər. Yaxud həmin adam buna layiq deyilsə, qəlbimizdən ona qarşı olan istəyimiz silinə bilər.



Qiyamət günü bizdən: “Qədər müəmmasını aydınlaşdıra bildinmi?”, - deyə soruşmayacaqlar.

“Ömrünü harada tükətdin?”

“Elminlə hansı işləri gördün?”

“Malını haradan qazanıb haraya xərclədin?”

“Bədənini harada tükətdin?” – kimi suallar veriləcək.

Bu kimi düşüncələr məhşərdə yaşanacaq qorxunc hadisələr qarşısında o qədər də əhəmiyyət kəsb etmir.

Cənnətdə əməlisaleh yoldaşlar, övladlar və ata-analarla birlikdə olacağımıza dair müjdə verilir. (Bax. ər-Rad, 23; əl-Mumin, 8)

Ayeyi-kərimədə qiyamət günü yaşanacaq bu mənzərədən söz açılır:

Məhşər meydanına toplaşan insanlardan Allaha qul olan və cənnətə gedəcəklər böyük mərasimlə qarşılanacaq, onlara təntənəli surətdə:

سَلَامٌ قَوْلًا مِنْ رَبٍّ رَحِيمٍ

“Rəhmli Rəbdən (onlara) **“salam” deyiləcəkdir”.**
(Yasin, 58)

Lakin ən yaxınları da olsa, dünyada Allaha üsyan içində yaşayanlara isə belə səslənəcəklər:

وَامْتَازُوا الْيَوْمَ اَيُّهَا الْمُجْرِمُونَ

“Ey günahkarlar! Bu gün (möminlərdən) **ayrılın!”**
(Yasin, 59)

O gün ən həzin ayrılıq yaşanacaq. Bu səbəblə əbədi ayrılığa düçar olmamaq üçün həm özümüzü, həm də ailəmizi, sevdiklərimizi atəşdən qorumalıyıq. Buna görə də övladlarımıza İslam xarakter və şəxsiyyətini miras qoymaq ən mühüm vəzifələrimizdən biridir.



İnsanlığa hüzur vəd edən kapitalistlər nə üçün pul qazanmaq naminə: “Laisser faire, laisser passer / yol verin etsinlər, yol verin keçsinlər” deyərək hər cür pisliyi mübah gördülər, qaniçən kartellərin önünü açdılar?

Dini bilməməkdən qaynaqlanan, cəhalət dolu cümlələrdən biri də belədir:

Sual: *“Bütpərəstləri tənqid edirik, amma özümüz də Kəbənin başına fırlanırıq”.*

Kəbə işarə nöqtəsidir.

KƏBƏ: İSTİQAMƏT NÖQTƏSİ

Rəbbimizin şiarları - nişanələri var. Kəbə, Həcərul-Əsvəd, Səfa və Mərvə təpələri, həcc ibadətində vəqfəyə durduğumuz Ərəfat və Müzdəlifə, meracın gerçəkləşdiyi ilk qibləmiz Beytul-Məqdis kimi yerlər Al-

lahın “məşərşiar” olaraq təyin etdiyi müqəddəs məkanlardır.

Bunlara hörmət etmək təqvadandır.

İnsanların özlərindən uydurduqları müqəddəs varlıqlar isə rədd edilmişdir. Dini qaydalar qoyma səlahiyyəti Rəbbimizə məxsus olduğu kimi, ibadət üçün qiblə, məkan və rükn kimi ünsürlərin təyin edilmə səlahiyyəti də Ona aiddir.

Allah-Təala mələklərə xitabən:

“Adəmə səcdə edin!”, - buyurmuşdur. Mələklər bu əmrə itaət etmiş, iblis isə üsyan etmişdir.

Həzrət Adəmə edilməsi əmr olunan səcdə ona qulluq səcdəsi deyildi. Adəm (ə.s) orada Allaha göstəriləcək təzimin, ediləcək səcdənin mərkəz nöqtəsi, istiqamət nişanəsidir.

Kəbə üçün də eyni xüsus keçərlidir. Kəbə Allaha ediləcək səcdənin istiqamət nöqtəsidir. Qiblənin bir olması pərakəndəliyi aradan qaldırır, möminləri bir nöqtədə cəm edir.



Kapitalistlər öz mənfəətləri uğruna qocaman məmləkətləri viranəyə çevirdilər. Suriya, Fələstin, Qəzza, Misir, Yəmən və digərləri göz qabağındadır. Hər biri matəm və fəlakət yurduna çevrildi. Lakin o kapitalistlər tarix boyunca olduğu kimi bu gün də məhrumlara, məzlumlara, kimsəsizlərə və acizlərə qarşı duyğusuz ruhla daima kar və kor oldular. Onların “halımıza acıyın” deyə səsli və səssiz fəryadlarını əsla eşitmədilər. Heç eşitmək istəmədilər də.

Məscidi-Həram ərazisində birlikdə namaz qılan camaatın o möhtəşəm halı necə də gözəl bir vəhdət mənzərəsidir.

Dinimizdə hər şey Kitab və Sünnə kimi əsaslara söykənir. Bunlara ədilleyi-şəriyyə, yəni şəriətin dəlilləri deyilir.

Kəbə bütlərə bənzədilməməlidir. Hz. İbrahim tərəfindən Allahın əmri ilə inşa edilmişdir.

Mövzunu daha yaxşı anlamaq üçün bu qissəni oxumaq yerinə düşər:

Həzrət Ömər Həcərül-Əsvədə yaxınlaşıb onu öpərək belə demişdir:

"Mən yaxşı bilirəm ki, sən zərəri və mənfəəti olmayan bir daş parçasısan... Lakin Rəsulullah səni öpdüyü üçün öpürəm".

Fiqhdə belə bir qayda var: Deyək ki, Kəbə yerindən oynasa, yerindən oynayan o binanın müqəddəsliyi aradan qalxar. Çünki müqəddəslik məkandadır, daşda və divarda deyil. Necə ki, tarixdə bir neçə dəfə yenilənmişdir.



Hanı kapitalistlərin vəd etdiyi bolluq, hüzur və səadət? Sadəcə bir ovuc xoşbəxt insana komfort, rahatlıq və sərvət... Gerisi öz bəxtindən küssün! Eləmi? Ah, qətran rənginə bürünmüş vicdanlar!

Sual: *"Birdən xristianlar və ya ateistlər haqlı çıxsa?"*

Onların haqlı olmasına heç bir ehtimal yoxdur. Hər şey açıq-aydın meydandadır. Xristianlığın necə bəşər məhsulu bir dinə çevrildiyini əvvəlki səhifələrdə izah etdik. Ateizmin nə cür korluq və axmaqlıq olduğunu da dilə gətirdik. Bütün bunlara rəğmən "birdən haqlı çıxsalar" kimi düşüncəyə qapılmaq tamamilə yersizdir.

Lakin burada bir hadisəni yada salaq:

Dəhri (ateist, axirəti inkar edən) bir nəfər Həzrət Əliyə belə deyir:

“Bu dünyada boş yerə özünüzü yorursunuz. Birdən cənnət və cəhənnəm olmasa, nə edəcəksiniz?”.

Hz. Əli bu cavabı verir:

“Sizin dediyiniz doğru çıxarsa, mən heç nə itirmirəm. (Onsuz da İslamın əmrləri gözəl insan olmaq üçün gərəklidir).

Amma mənim dediyim doğrudursa və cənnət varsa, siz nə itirdiyinizin fərqindəsinizmi? Cəhənnəm haqdırsa, əlbəttə ki, haqdır, siz haraya gedəcəyinizin fərqindəsinizmi?”.



Kommunistlər bərabərlik vəd edərək yola çıxdılar. Hakimiyyətlərini milyonlarla kəllə üzərində qurdular. Lakin sonra nə üçün öz partiyalarına yol açdılar? Kapitalizm və ya kommunizmə insanların azacıq da olsa ümidi qaldımı?

Din həyatın bütün sahələrini əhatə etməlidir. Bəşər övladının bütün suallarına cavab verməlidir. Bəşəri dinlər bu xüsusda naqisdir. Çünki həyatın sadəcə müəyyən nöqtələrinə təmas edə bilmiş, onda da gerçək nailiyyət əldə edə bilməmişdir.

Hər suala cavab verən bir din yalnız Allahdan gələ bilər. Bu din də İslamdır. Ayeyi-kərimədə buyurulduğu kimi:

“Allah yanında (haqq olan) **din, əlbəttə, İslamdır…”**
(Ali-İmran, 19)

FİZİKA QANUNLARI ÖZ YARADICISINI MƏHDUDLAŞDIRA BİLƏRMİ?

Sual: *“Kəlam dərsində möcüzələrin olduğunu oxuyuruq, amma heç birinin dəlili yoxdur. Sadəcə belə deyilir, amma heç bir dəlil yoxdur”.*

Bu etirazı irəli sürənlərə xatırlatmaq lazımdır ki, o möcüzələrə şahid olanların da bir çoxu iman etmədilər. “Bizə sehr etdin, gözümüzü boyadın”, - deyib inkar etdilər.

Şübhəsində mənfilik olan insanların möcüzəni qəbulda inad etməsi bu kimsələrin zehninin kainatda baş verən qanunları mütləq və zəruri qəbul etməsindən irəli gəlir.

Halbuki bir az fikirləşsələr, həmin qanunları da Allahın qoyduğunu anlayarlar.

Haqq-Təalanın qoyduğu qanunlar Onun sonsuz qüdrətinə əngəl ola bilməz.

Həmçinin onu da bilmək lazımdır ki, bəşəriyyət həmin qanunların hamısını lazımi şəkildə dərk etməmişdir. İstisnalardan xəbərsizdir.



Zəkat, infaq, sədəqə, fitrə, vəqf, kəffarə kimi ibadət və mükəlləfiyyətlərlə zəngindən kasıba doğru maddi imkanları dövr etdirən və bunu zorla deyil, ibadət vəcdi ilə gerçəkləşdirən İslamdan başqa nizam varmı?

Məsələn, daha əvvəl heç vaxt maqniti görməyən bir insan daşa bənzər bir maddənin bəzi metalları özünə çəkdiyini qəbul edə bilməz. Amma görüb öyrəndikdən sonra artıq buna təəccüb etmir. Möcüzələri var edən Allah-Təalanın daha üstün qanunları var. Biz bunları bilmiriksə, möcüzəni də anlaya bilmərik. Lakin inkar etməyimiz əsla doğru deyil.

Bu gün insanlar fantastik filmlərdə fərqli məkanlarda pəncərələrin açıldığını, əşya və insanın uzaqlara şüalandığını, zamanda yolçuluq edildiyini seyr edir və həmin məntiqə əsasən bunları qəbul etməkdə çə-

tinlik çəkmir. “Bu texniki nailiyyətə yiyələnməsək də, ssenaridə təsvir olunan dünyada belə bir şey mümkündür”, - deyərək seyr edir.

Eyni məntiqə sahib insan aləmlərin Rəbbi olan və hər şeyi yaradan Allahın yaratmaq istədiyi şeyi dərhal yarada biləcəyini nə üçün qəbul etmir?

İnsanlar qədimdə “beta, qamma və alfa” şüalarından da xəbərsiz idilər. Lakin bu gün xəbərdardırlar. Allah-Təala insana verilən elmin az olduğunu bildirmişdir. (Bax. əl-İsra, 85) İnsan azacıq elmi ilə min illər içərisində addım-addım bu kəşfləri edə bilmişdir.



Deist, kapitalist, sekulyar... Bu dünya quruluşunun gələcəyi sənə ümid verirmi? Budur Myanma, Suriya, Yəmən!.. Bunlar kimin əsəridir?

İnsanın iməkləyə-iməkləyə inkişaf etdirdiyi texniki tərəqqiyə inanırsan, Allahın sonsuz qüdrətini qəbul edə bilmirsən?

Hətta bəzi alimlər möcüzələrin insana elmi və texniki baxımdan yol göstərdiyini deyirlər.

Necə ki, **Həzrət İbrahim** atıldığı tonqalda möcüzə nəticəsində yanmadı. Bu gün insanlar odda yanmayan paltarlar, boyalar və s. icad edirlər.

Həzrət İsa möcüzə göstərərək ölüləri diriltdi, müalicəsi olmayan xəstələri və anadangəlmə korları sağaltdı. Bu gün tibb sahəsində dayanan ürəkləri şokla yenidən həyata qay-

tarma kimi müdaxilələr və keçmişdə məlum olmayan müalicə üsulları kəşf edilmişdir.

Həzrət Süleyman külək sayəsində bir aylıq məsafəni bir günə gedirdi. Bu gün bəşəriyyət təyyarə ilə dünyanın bir ucundan digər ucuna səfər edir.

Bunlar belə möcüzələrin həqiqət olduğunu dərk etməmizə yardım edəcək xüsuslardır.

Çünki insan çalışaraq, cəhd edərək dünən edə bilmədiyini bu gün etməyə qadir ola bilirsə, Qadiri-Mütləq olan Allah-Təalanın möcüzələrinə necə təəccüb edə bilərik?

Sual: "Allah nə üçün əvvəlki ilahi kitabların təhrif olunmasına izin vermişdir?".

Allah-Təala Quranı qiyamətə qədər qoruyacağını vəd etmişdir. Çünki ondan sonra bir daha kitab gəlməyəcək. Əvvəlki dinlərdə isə davamlı olaraq peyğəmbər və vəhy yenilənirdi.



Abort vicdandan məhrum olan bir çox ağıla və rassional sistemə görə məsum bir addımdır. Hətta haqq və hürriyyətdir... Cinayəti haqlı görən bir ağıl əxlaqı...

Çünki insanların ehtiyacı və cəmiyyətin quruluşu dəyişə-dəyişə irəliləyirdi. 124000 peyğəmbərin hər biri əqidədə sabit olmaq şərti ilə göndərildikləri cəmiyyətin xüsusiyyətlərinə uyğun şəriətlə gəlmişdilər.

Sual: "İçki ilk dövrdə yaşayanlara yavaş-yavaş qadağan edildiyi halda bizə nə üçün birdəfəyə haram sayılır?".

Tədricilik vəhy nazil olarkən gerçəkləşmişdir. Nəhayət, din kamil şəkildə tamamlanmışdır. Əlbəttə ki,

tamamlanan və kamil hala gələndən geri qayıtmaq olmaz. Bu, məsuliyyətsiz əməl olar.

Lakin təlim-tərbiyədə bu tədricilik yenə də davam edir. Məsələn, bu gün İslamla ilk dəfə tanış olan bir fərd, yaxud cəmiyyətə təbliğ edərkən, təbii ki, tədricilik əsas alınmalıdır. Lakin bu üsulla hərəkət etmək şəriəti inkar etmək mənasına gəlməz. Bu, sadəcə müsəlman fərasətindən və bəsirətindən qaynaqlanan asanlaşdırma metodudur.

Məsələn, Peyğəmbərimiz **Hz. Muazı** Yəmənə göndərərkən belə buyurdu:

"Sən kitab əhli olan bir bölgəyə gedirsən. Onları Allahdan başqa ilah olmadığına və mənim Allahın Rəsulu olduğuma şahidlik etməyə dəvət et.

Əgər onlar bu dəvətə tabe olsalar, Allahın bir gün və gecədə beş vaxt namazı onlara fərz qıldığını bildir.

Əgər buna da itaət etsələr, Allah-Təalanın zənginlərdən alıb kasıblara verilmək şərti ilə onlara zəkatı fərz qıldığını bildir.

Buna da tabe olacaqları təqdirdə mallarının ən yaxşısını və qiymətli olanını almaqdan çəkin. (Yəni ən bahalısını və dəyərlisini alma, orta səviyyəli olanları al).



Sən ürəyi döyünən kiçicik bir körpənin sırf anası istəmədiyi üçün öldürülməsinə razısanmı? Vicdanın belə bir cinayəti götürürmü? İslam buna izin vermir, amma modern ağıl izin verir!.. Öldürülən o körpənin yerində sən olsaydın, buna razı olardınmı?

Məzlumun bədduasını almaqdan da ehtiyat et, çünki onun bədduası ilə Allah arasında heç bir pərdə yoxdur". (Buxari, Zəkat, 41, 63; Məğazi, 60, Tövhid, 1)

Din təkmilləşdikdən sonra tədriciliyə ehtiyac qalmaz. Ancaq Allah-Təala insanların hidayətə gəlməsi üçün dini təbliğ edərkən "qövlən-leyyinə" - mülayim üslubdan istifadə etməyi əmr edir. Ayeyi-kərimədə dini gözəl üslubla təbliğ etməyin əhəmiyyətinə belə diqqət çəkilir:

اُدْعُ اِلٰى سَبِيلِ رَبِّكَ بِالْحِكْمَةِ وَالْمَوْعِظَةِ الْحَسَنَةِ
وَجَادِلْهُمْ بِالَّتِى هِىَ اَحْسَنُ

"(Ya Rəsulum!) **İnsanları hikmətlə** (Quranla, tutarlı dəlillərlə)**, gözəl öyüd-nəsihət** (moizə) **ilə Rəbbinin yoluna** (İslama) **dəvət et, onlarla ən gözəl surətdə** (şirin dillə, mehribanlıqla, əqli səviyyələrinə müvafiq şəkildə) **mübahisə et..."** (ən-Nəhl, 125)



Başda çevrəni məhv etmək olmaqla nəsli kəsilən məxluqlar, kütləvi qırğın silahları, zülm və istismarlar, bütün bunlar ağıl və texnikanı əsas alan modern dünyanın əsəri deyilmi? Harda qaldı ağılı sərsəmləməkdən və vəhşilikdən qoruyacaq çarə?

Sual: *"Allahın tez-tez "Mən etdim, Mən yaratdım" deməsi qəribimə gəlir".*

Allah aciz bir insan deyil ki, Onun "Mən" deməsi narahat etsin. Ən böyük, ən güclü, hər şeyin yaradıcısı olan Rəbbimizin "Mən" deməsindən narahatlıq duymamaq lazımdır. Ayələrdə yer alan "Mən" və "Biz" ifadələri Onun əzəmətini ifadə edir.

Sual: *"Nə üçün Quranda qadın və kişi bərabər deyil?".*

İslamiyyətdə kişi və qadın zənəmizin söylədiyi kimi bərabərlik çərçivəsində deyil, ədalət müvazinəti içindədir.

QADININ ŞƏRƏFİ İSLAMDADIR

Allahın hüzurunda qadın və kişi bərabərdir. Qadınla kişi iman, ibadət, məsuliyyət xüsuslarında Allah qatında tamamən bərabərdirlər. Kişi də, qadın da iman etməklə, namaz qılıb oruc tutmaqla, zəkat verib həccə getməklə mükəlləfdir. Bu ayeyi-kərimələr bəhs etdiyimiz bərabərliyi daha da qüvvətləndirir:



Qərb mədəniyyətinin çirkin və iyrənc üzü!

Qərbi texnologiya və maddi gücün sərxoşu olmadan; ailə, insan kimi dəyərlərlə yenidən dəyərləndirdikdə heyran olacaq bir tərəfi ilə qarşılaşmaq mümkündürmü?

Yoxsa o, tək dişi qalmış bir canavardır?

"Mömin olmaqla bərabər, yaxşı işlər görən kişilər və qadınlar Cənnətə daxil olarlar. Onlara zərrə qədər haqsızlıq edilməz!". (ən-Nisa, 124. Həmçinin bax. Ali-İmran, 195; ən-Nəhl, 97; əl-Mumin, 40)

"Həqiqətən, Allah məhz:

- **Müsəlman kişilər və qadınlar,**
- **Mömin kişilər və qadınlar,**
- (Allaha) **müti kişilər və qadınlar,**
- **Doğru danışan kişilər və qadınlar,**
- **Səbirli kişilər və qadınlar,**

• **Təvazökar kişilər və qadınlar,**

• **Sədəqə verən kişilər və qadınlar,**

• **Oruc tutan kişilər və qadınlar,**

• **Ayıb yerlərini qoruyub saxlayan kişilər və qadınlar**

• **Allahı çox zikr edən kişilər və qadınlar, üçün** (axirətdə) **məğfirət** (bağışlanma) **və böyük bir mükafat** (Cənnət) **hazırlamışdır!".** (əl-Əhzab, 35)

İslamdan başqa bir çox dində qadın ikinci sinif və şərin qaynağı sayılır.

İslamda isə əməlisaleh qadın dünyanın ən dəyərli nemətlərindən biri sayılır. Cənnətin əməlisaleh anaların ayaqları altında olduğu bildirilir.



Dünənin insanı daha çox məsud idi, yoxsa bu günün insanı? Üstəlik bu qədər bolluğa, rahatlığa və dəbdəbəyə rəğmən...

Bəli, buna baxmayaraq kar və kor olan vicdanların pəncəsində matəm yurduna çevrilən ölkələr, qəriblər, əsirlər və yalnızlaşan insanlar!..

Lakin qadın və kişi yaradılışda bərabər deyil. Onlar bir-birilərini tamamlayıcı xarakterə malikdirlər. Fiziki cəhətdən və hissiyyat baxımından da bərabər deyillər. Bu səbəblə kişi ilə qadın arasında ictimai nöqteyi-nəzərdən fitrətə uyğun bir vəzifə bölgüsü mövcuddur. İslam da fitri din olduğuna görə həqiqətdə var olan bu fiziki və hissi müxtəlifliyi kişi və qadının haqq və vəzifələrinə əks etdirmişdir.

Hədisi-şərifdə buyurulur:

"Hamınız çobansınız. Hamınız güddüyünüz sürüdən məsulsunuz.

- *İmam (idarəçi) çobandır və güddüyü sürüdən məsuldur.*
- *Kişi ailəsinin çobanıdır və sürüsündən məsuldur.*
- *Qadın ərinin evində çobandır və sürüsündən məsuldur.*
- *Xidmətçi ağasının malından məsuldur".* (Buxari, Əhkam 1; Müslim, İmarə 20)

Zəmanəmizin "müasir" dünyasında isə qadını kişi ilə bərabərlik şüarları altında istismar etməkdədirlər.



Maşın qəzası, təyyarədə hava boşluğuna düşmə, zəlzələ... Mütləq bu və ya buna bənzər bir an yaşamısan. Belə bir anda yaşadığın dəhşətli qorxu nədir? Məhz belə bir anda daxilən hər şeyə gücü çatan bir varlığa sığınma, yalvarma duyğusu keçirdin, elə deyilmi?

Qadın insanın böyüyüb boya-başa çatacağı ülvi ailə ocağının xanımı və anası olmaq vəzifəsini icra etməlidir. Bu səbəblə də ağıl və məntiq tərəfindən daha çox hissiyyatı ön planda olacaq şəkildə yaradılmışdır. Ona görə də İslamiyyət qadını həya, iffət və təsəttür kimi hikmətlərlə mühafizə edir. Onu ailə qalası içərisində qoruyur.

Qadın-kişi bərabərliyindən söz düşəndə Qərb dünyasının bərbəzəkli və maskalı üzünü deyil, əsl sifətini görmək lazımdır. Evliliyə rəğbətin azaldığı, bir çox evliliklərin boşanma ilə nəticələndiyi, qeyri-rəsmi münasibətlərin (zinanın) yayğınlaşdığı, əhali sayının azaldığı, yaşlı anaların yalnızlığa məhkum edildiyi və tənha evlərində öldüyü bir cəmiyyətdə

qadının kişi kimi qəssab və avtobus sürücüsü olmasında fəzilət axtarmağın nə yeri var?

Yeri gəlmişkən qeyd etmək də lazımdır ki, İslam məhrəmlik şərtlərinə riayət olunduğu təqdirdə qadının işləməsinə, müxtəlif sənət və peşələrlə məşğul olmasına da qarşı deyil. Həzrət Aişə anamızın 300-ə yaxın tələbəsi olmuşdur. Osmanlıda qadınlar tərəfindən qurulan minlərlə vəqf vardı.

Lakin təmiz vicdan qəbul edər ki, xanımların ən ülvi peşəsi ana olmaq müqəddəs ailə ocağının baş tacı olmaqdır. Yüksək nailiyyət əldə etmiş hər bir şəxsiyyətin arxasında mütləq mənada əməlisaleh bir ana var. Çanaqqala zəfəri üçün cəbhədə canından keçən igid oğullarımız qədər onları xınalayıb orduya göndərən analara da minnətdarıq.

Xülasə, İslam həyatın bütün sahələrini əhatə edir. Hər iki dünyada səadət qayəsini gerçəkləşdirmək üçün bütün suallara cavab verir. Bütün bu cavablar mənzuməsi içərisində əsla təzad olmaz. Dinimiz mükəmməl intizama malikdir. **Mükəmməldən də mükəmməldir.** Zülcənaheyndir, yəni ikiqanadlıdır, mənsublarına həm dünyada, həm də axirətdə səadət bəxş edər.



Həzrət Peyğəmbər (s.ə.s) 632-ci ildə Haqqın rəhmətinə qovuşdu. Lakin elə hədislər var ki, sanki günümüzü təsvir edir. Belə bir şəxsiyyətin axirət haqqında bildirdiklərinə inanmamaq nə qədər doğrudur?

İslam mənzuməsində əqaid, əhkam, müamilələr, ictimai nizam və gözəl əxlaq var.

İslam kainatın və insanın yaradılış qayəsini dərk etməyimizi təmin edir. Qundaqla kəfən arasındakı həyatın tamamını, hər sahəsini tənzimləyir.

Hətta aldığımız hər nəfəsə, atdığımız hər addıma qədər...

Allah-Təala bizə bunu yaşamağı və yaşatmağı nəsib etsin!..

Haqq-Təala ağıllarımızı və könüllərimizi vəhyin tərbiyəsi ilə kamilləşdirərək bizi nəfs və şeytanın hiyləsinə qapılmaqdan mühafizə etsin. Hissiyyatımızı və fikrimizi rizası ilə yoğursun.

Biz aciz qullarını lütf-kərəmi ilə ilahi əfvinə, rəhmət və məğfirətinə məzhər eyləsin.

Amin!..



Çürük və sağlam almalara eyni dəyəri vermək məntiqsizlik olar. Eynilə bunun kimi təhrif edilmiş dinlərlə heç bir təhrifə məruz qalmamış, ən doğru və yeganə haqq din olan İslamı hansı məntiqlə tərəzinin eyni gözünə qoymaq olar?



MÜTLƏQ HƏQİQƏT VƏ HAQQ DİN

İslam həyatın bütün sahələrini əhatə edir. Hər iki dünyada səadət qayəsini gerçəkləşdirmək üçün bütün suallara cavab verir. Bütün bu cavablar mənzuməsi içərisində əsla təzad olmaz. Dinimiz mükəmməl intizama malikdir. Mükəmməldən də mükəmməldir. Zülcənaheyndir, yəni ikiqanadlıdır, mənsublarına həm dünyada, həm də axirətdə səadət bəxş edər.



MÜTLƏQ HƏQİQƏT VƏ HAQQ DİN

Deistlər dindən uzaqlaşmaqlarına bu batil inancları bəhanə gətirirlər:

Batil anlayışlarına görə, yer üzərində var olan bütün dinlər bəşər məhsuludur. Hər kəs qeyri-ixtiyari olaraq öz yaşadığı bölgədə mövcud olan dinə girməkdə və onu seçməkdədir.

Batil anlayışlarına görə, dinlər insanın ictimai təkamülünün bir parçasıdır və hökmünü itirmişdir.

Batil anlayışlarına görə, bütün dinlər müharibəyə təşviq etməkdə, insanları bir-birinə düşmən etməkdədir.

Elə isə onların iddiasına görə, bu dinlər tərk edilməlidir. Guya, sadəcə ağıl və vicdana əsaslanan bəşəri əxlaq qanunlarına bağlı "təbii" bir din olan **deizm** yetərlidir.

Bu iddia keçən əsrlərdə pozitivizmi müdafiə edənlər tərəfindən də irəli sürülmüşdü. Onların fikrinə görə də din insanın sosial təkamülünün bir parçasıdır və artıq zamanı keçmişdir. Guya onun yerini "elm" tutacaqdır.

Həmçinin **sosializm** və **kommunizm də** dinin toplumları uyuşduran tiryək afyon olduğunu iddia etmiş və dini sosial nizamdan kənarlaşdırmağa çalışmışdır. Sovet İttifaqı, Çin və bu kimi kommunist dövlətlər öz praktikalarında 70-80 il dini kənarlaşdırmağa çalışsalar da, yox edə bilmədilər. Təhrif olunmuş dinlər belə yox olmadı. Bütün təbliğatlara və təzyiqlərə baxmayaraq din öz varlığını qoruyub saxladı. Çünki inanmaq insanın fitrətindən gəlir.

Haqq din olan İslam isə bütün məhvedici hücumlara baxmayaraq həyatda qaldı. Çünki o, Allahın mühafizəsi altındadır.



İslam ideologiya deyil. Lakin bütün ideologiyaların fövqündə; həqiqi, mükəmməl, fərd və topluma iki dünya səadəti bəxş edən bir dünya görüşünə sahibdir.

Dinin hökmünü itirməsi, dövrünün keçməsi kimi boş və batil fikirlər əslində haqq din olan **İslamı** tanımamaqdan qaynaqlanır.

İslamın necə mükəmməl bir nizama sahib olduğunu bilənlərin, onun hər iki dünyaya səadət bəxş edən qaydalarını və əsaslarını öyrənənlərin bu iddialarda israr etməsi düşünülə bilməz.

Lakin iftira, həqarət və böhtanların kölgəsində, islamofobiya hücumları təsiri ilə, qərəzli hökmlərlə İslama yaxınlaşanlar haqq din barəsində

sahib olduqları məlumatları gözdən keçirməlidirlər.

DİGƏR DİNLƏR və İSLAM

Əslində, İslamiyyətdən savayı bütün dinlər həqiqətdən uzaqdır. Hər biri ya bəşər tərəfindən icad edilmiş bir dindir, yaxud da təhrifə məruz qaldığı üçün bəşər tərəfindən edilən müdaxilələrlə həqiqətdən uzaqlaşmışdır.

Əqidə, ibadət və hüquq sahəsində xristianlığın başına gələn təhrifləri əvvəlki bölümlərdə ifadə etdik. Yeri gəlmişkən burada da bir misal verək:

Əndəlüsdə yaşayan müsəlmanlara verdiyi ağır zülm və işgəncələrlə məşhur olan Kastiliya kraliçası İzabellanın başqa bir adı da **Pinti İzabella**dır. Çünki təhrif olunmuş xristianlığa görə yuyunmaq və təmizlənmək dünyaya dəyər vermək mənasına gəlirdi. Qatı katolik olan İzabella qətiyyən yuyunmadığı üçün ondan gələn natəmiz qoxu səbəbi ilə yanına yaxınlaşmaq mümkün deyildi. Ömrü boyu cəmi iki dəfə yuyunmuşdur.

Yalnız kraliçaya deyil, guya dindar olan digər evli qadınlara da məhz bu yanlış anlayış səbəbi ilə yaxınlaşmaq mümkün olmadığından kişilər sırf yuyunduqları üçün fahişə qadınlara meyil etmiş, nəticədə cəmiyyəti dərindən yarala-



Hər mədəniyyət öz insan tipini formalaşdırır. Bizim mədəniyyətimiz Quran və Sünnə mədəniyyətidir. Tarixən bu əsaslara bağlı qalan xülafayi-raşidin, Ömər bin Abdülaziz və Osmanlının ilk üç əsri kimi dövrlər insanlıq tarixinin üzağı olmuşdur.

yan fahişəlik rəvac tapmışdır. Beləliklə, ailəni məhv edən zina xəstəliyi ruhları və nəsilləri pərişan etmişdir.

Bu da təhrifə məruz qalmış, insan məhsulu olan dinin acınacaqlı halı!..

Paveldən bu yana durmadan təhrif olunan xristianlıq bu gün də ateist təzyiqlər qarşısında təhrifə məruz qalmaqdadır.

Nə qəribədir ki, **Hollandiya** kimi bəzi ölkələrdə kilsə tərəfindən kişi ilə kişi arasında nikah kəsilir. Halbuki yaxın tarixə qədər kilsə buna qarşı çıxmağa çalışırdı. Lakin hazırda buna göz yumur. Yəni kilsə insanı cəmiyyətin ən aşağı mərtəbəsinə yuvarlayan ağır bir günahı və üsyanı öz əlləri ilə nikahlayır. Günah və üsyanı qanuni sayıb evləndirməklə taclandırmaq mümkündürmü? Bu necə bir azğınlıqdır?!



Durmadan təhrif olunan xristianlıq bu gün də ateist təzyiqlər qarşısında təhrifə məruz qalmaqdadır. Nə qəribədir ki, Hollandiya kimi bəzi ölkələrdə kilsə tərəfindən kişi ilə kişi arasında nikah kəsilir.

İnsanlardan gələn etirazlara boyun əyən, mətanətsiz bir din olarmı? Belə bir din insana səadət bəxş edə bilərmi? Əlbəttə ki, yox.

Yəhudilik də bundan fərqsizdir. O da təhrifçilərin oyuncağına çevrilmiş haldadır. Sırf öz irqinə xidmət üçün bəşəriyyətə düşmən kəsilən, zülmü diniləşdirən bir din.

Yəhudilik həqiqətdən o qədər uzaqlaşmışdır ki, insanlığı öz dininə belə dəvət etmir. Çünki bu din sadəcə müəyyən bir irqə məxsusdur!..

Xürafat şifahi və yazılı mədəniyyətlərini işğal etmiş vəziyyətdədir. Əllərindəki Tövrat və Zəbur mətnləri

o qədər təhrif olunub ki, həmin səhifələrdə peyğəmbərlərə, haşa, tanrı ilə güləşmək, küfrə düşmək və zina etmək kimi rəzillikləri rəva görməkdən çəkinmirlər.

İbadətlər də təhrifə məruz qalıb. Buna **Kaparot** ayinini misal göstərmək olar:

Xristianlıq kimi qruplara ayrılan yəhudilərin ultra ortodoks (provaslav) mənsubları tərəfindən həyata keçirilən bu qondarma ibadətin şəkli belədir:

Bir yəhudi dini bayram sayılan Yom Kippurdan əvvəl bir toyuq alaraq ona dua oxuyub üç dəfə başına çevirir. Guya günahları ona keçir. Sonra da həmin toyuğu kəsərək günahlardan təmizlənmiş olur...



Təhrifolunmuş dinlərdəki təzadlar ucbatından inancdan soyuyanlar Haqq din olan İslamla tanış olsalar, bu kimi təzadların Haqq dində olmadığını və İslamın mükəmməldən də mükəmməl olduğunu görə bilərlər. Beləcə, din haqqında yanlış fikrə düşməkdən qurtular, iki dünya səadətinə nail olarlar.

Əslində bu ayinin heç bir əsasının olmadığını özləri də etiraf edirlər. Süleyman məbədi yıxılmazdan əvvəl günahlarını bir keçiyə yükləyərək onu çölə buraxaraq günahlarından xilas olurlarmış. Anadolu türkcəsində bir adamın xətalarını günahsız birinə yükləməsi mənasına gələn **"günah keçisi"** deyimi də məhz buradan gəlir. Lakin məbəd yerlə-yeksan edildikdən sonra həmin ayini toyuq üzərində icra etməyə başladılar.

Hər iki dində də günahlardan xilas olmaq bəsit səbəblərə bağlanılır. Halbuki İslamda günahları bağışlayan yalnız və yalnız Allah-Təaladır və dünya həyatında bundan əmin

olmaq imkansızdır. İnsan son nəfəsə qədər Allaha dua və istiğfar etməlidir.

Burada mərhum Necip Fazıldan eşitdiyim bir xatirəni nəql etmək istəyirəm.

Məşhur sosioloq Toynbi Misirə gedir. Sosioloq olduğu üçün qərib bir dilənçiyə yaxınlaşıb soruşur:

- Sənə pul versəm, nə edərsən?

Dilənçi bu cavabı verir:

- Sənin üçün Allaha dua edərəm.

- Yaxşı, bəs sənin duanı Allah qəbul edərmi? – deyə Toynbi dilənçi ilə arasındakı dialoqu davam etdirir. Dilənçi:

- Bəyim, mən dua edirəm, gerisinə qarışmıram. Allah istərsə qəbul edər, istərsə etməz, - cavabını verir.



Günah bağışlatmaq necə də aldadıcı axmaqlıqdır. Bir insan başqa bir insanın Allaha qarşı işləmiş olduğu günahı necə bağışlaya bilər? Məhz bu kimi təzadlar insanları inancdan soyudur.

Toynbi heyrətlə belə deyir:

"Bizim ali təhsilli papazlar özləri kimi bir insanın günahını bağışlaya bildiklərini iddia edirlər. Burada isə başqa bir dinin ən zavallı mənsubu belə "Allah istərsə qəbul edər, istərsə etməz", - deyir.

Budur İslamın təhrif olunmuş dinlərdən fərqi... Eyni zamanda mənsublarına qazandırdığı şüur...

Başqa bir misal da belədir:

Kilsə mənsublarından birindən soruşurlar:

- Bir adam günah işlədə nə etməlidir?

- Papazın yanına gedib pul verməli və günahını bağışlatmalıdır.

- Yenə günah işlədə?

- Yenə papazın yanına gedib pul verməlidir. Papaz onu əfv edər.

- Bəs işlədiyi günahda başqa bir insanın da haqqına giribsə onda necə? Papaz bu günahı necə əfv edəcək?

- ...

Məhz bu suala heç bir cavab yoxdur...



İslamda günahları bağışlayan yalnız və yalnız Allah-Təaladır və dünya həyatında bundan əmin olmaq imkansızdır. İnsan son nəfəsə qədər Allaha dua və istiğfar etməlidir.

Günah bağışlatmaq necə də aldadıcı axmaqlıqdır.

Bir insan başqa bir insanın Allaha qarşı işləmiş olduğu günahı necə bağışlaya bilər? Axı kim malını oğurlayan birinin, zülmünə məruz qaldığı bir adamın başqa bir adam tərəfindən bağışlanmasına razı olar? Haqq-hüququn ortadan qaldırılmasına kim razı olar?

Məhz bu təzadlar insanları təhrifolunmuş dinlərdən soyudur.

Təhrifolunmuş dinlərdəki təzadlar ucbatından inancdan soyuyanlar Haqq din olan İslamla tanış olsalar, bu kimi təzadların Haqq dində olmadığını və İslamın mükəmməldən də mükəmməl olduğunu görə bilərlər. Beləcə, din haqqında yanlış fikrə düşməkdən qurtular, iki dünya səadətinə nail olarlar.

Uzaq Şərq dinləri isə sağlam təfəkkürdən tamamilə uzaqlaşmışdır.

* İnsan hürriyyətinə düşmən kəsilən kasta sistemi, insanlara qıyan zalım adət-ənənələr...

* Axirəti inkar etmək üçün uydurulmuş reinkarnasiya, təsəlsüllə məntiqini itirən, ədalətə, haqq və hüquqa xidmət etməyən, qayəsiz və səfeh ruhi böhran...

* Qayəsi olmayan mistisizm, heykəllərə sitayiş, bütpərəstlik, rəzalət və çirkab içində üzən məbədlər...

* Mifoloji varlıqlarla, əfsanələrlə dolu, yaradıcısı və axirəti olmayan uydurmalar...

* Heyvani qidalardan uzaq durmaq, meditasiya və yoqa kimi pəhriz, düşüncə və idmana bənzəyən, qərblilərə qismən mistik həzz verən tərəfləri olsa da, tanrısı, qibləsi və qayəsi olmayan bu dinlərdə səadəti tapmaq imkansızdır.



İslam təhrifə məruz qalmadığı kimi, İslamda Allah adına bəzi din adamlarının söz söyləmək, əqidəvi mövzularda qərar vermək, halal-haram təyin etmək səlahiyyəti də yoxdur. Çünki İslamda iradə Allaha aiddir.

Bunlardan əlavə Afrika kimi yerlərdə də batil dinlər var. İnsanı qurban edən, daşlara tapınan yarımvəhşi dinlər...

Üstəlik bu qəbildən olan heç bir din bəşəriyyətə bir səadət düsturu göstərmir. Fərdə, ailəyə, cəmiyyətə, iqtisadi həyata, ata-anaya, uşağa, yaşlıya, kasıba və qəriblərə çarə olmur;

Əsli etibarı ilə bəlkə də ta qədimdə doğru olsa belə, təhriflər nəticə-

sində sadəcə həyatın az bir hissəsinə təmas edə bilir.

Bu kimi batil dinlərə baxıb din haqqında ümumi hökm vermək doğru deyil.

İslam Haqq dinin adıdır. İslam da bu kimi məntiqdənkənar, zalım, təkəbbürlü və axmaq səhnələrə şahid ola bilmərik.

İslam təhrifə məruz qalmadığı kimi, İslam da Allah adına bəzi din adamlarının söz söyləmək, əqidəvi mövzularda qərar vermək, halal-haram təyin etmək səlahiyyəti də yoxdur. Çünki İslamda iradə Allaha aiddir.

İslam bütün əsaslarını Allahın kəlamı olan Quran və Rəsulullahın təlimat və tətbiqatı olan Sünnədən götürür.



İslam bütün həyatı tənzimləyib nəfsani yaşayışa qapı açmadığı üçün bu gün ona qarşı olan hücumlar daha da gücləndi. Bu səbəblə islamofobiyanın işarə etdiyi qorxular icad edildi. Halbuki İslam mömin qulları bütün fani qorxulardan əmin qılaraq cənnət yolçusu edər.

Alimlər sadəcə sonradan qarşılaşdıqları məsələləri Quran və Sünnədəki hökmlərə qiyas edə bilərlər. Ancaq Quran və Sünnənin ruhuna uyğun gələn məsləhətlərlə ictihad edilə bilər.

İslam bütün həyatı tənzimləyib nəfsani yaşayışa qapı açmadığı üçün bu gün ona qarşı olan hücumlar daha da gücləndi. Bu səbəblə islamofobiyanın işarə etdiyi qorxular icad edildi. İslamı qaralamaq, onunla insanların arasına girmək üçün iftiralar ortaya atıldı. Halbuki İslam mömin qulları bütün fani qorxulardan əmin qılaraq cənnət yolçusu edər.

Digər inanc və sistemlərdə insanı formalaşdıran hər hansı bir məsuliyyət olmadığı üçün onlara daha mülayim yanaşırlar.

İnsan tanımadığına düşməndir. İslama qarşı çıxan bir çox insan əslində onu lazımi qədər araşdırmamışdır.

Bu mənada İslamın mahiyyətini qısaca xülasə edək:

"Din"in mahiyyəti həyatın hər sahəsini əhatə etməkdir. Qayəsi iki dünya səadətidir. Bu səbəblə də səadət axtarışında olanların bütün suallarına cavab verir. Bu cavablar mənzuməsində əsla təzad olmaz. Sistemli və müntəzəmdir. İslam ən mükəmməldir. Zül-cənaheyndir, yəni həm dünyada, həm də axirətdə mənsublarına səadət hazırlayır və bunu həyata keçirir.



Quran ən müəzzəm və ən möhtəşəm olandır. İnsanlığın dünənini və bu gününü işıqlandırdığı kimi, sabahına da bələdçilik edəcək yeganə dünya görüşü İslama aiddir.

Zəmanəmizin axirəti unutduran modern cahiliyyəsində vicdanlara və məbədlərə həbs edilmiş, sadəcə əxlaq normativlərindən ibarət, liberal bir din anlayışı var.

Şəriətdən və əhkamdan uzaq olan **"deizm"** və əhkamı heçə saymaq olan **"tarixilik"** kimi batil anlayışlar ortaya atılmaqdadır.

Haqq din olan İslam isə mükəlləflərin sadəcə ibadət həyatını tənzimləməz. Fərddən ailəyə, ailədən cəmiyyətə, yeyib-içməkdən iqtisadiyyata – həyatın hər mərhələsində möminin yaşam tərzini ən ideal ölçülərlə nizama salar. Mükəlləflərin bütün felləri haqqında hökm inşa edər.

Din kainatın və insanın yaradılış qayəsini idrak etməmizi təmin edir. Qundaqla kəfən arasındakı həyatın bütün möhtəvasını, hər mərhələsini tənzimləyir. Hətta aldığımız nəfəsə, atdığımız addıma qədər...



Din kainatın və insanın yaradılış qayəsini idrak etməmizi təmin edir. Qundaqla kəfən arasındakı həyatın bütün möhtəvasını, hər mərhələsini tənzimləyir. Hətta aldığımız nəfəsə, atdığımız addıma qədər...

Din insanı dünyada vicdan rahatlığına, axirətdə isə əbədi səadətə hazırlayan qayda-qanunlar mənzuməsidir.

Qurani-Kərimin ehtiva etdiyi elmlər bu beş başlıq içərisində xülasə edilə bilər:

1. Əhkam elmi

* Əqidə mövzusuna dair əsasları, səhih inanc düsturlarını təlim edir.

* İbadət hökmlərindən xəbər verir.

* Əxlaq qaydaları qoyur.

* Allahdan uzaqlaşdıran pis vəsfləri, yəni zahiri və batini haramları bəyan edir.

* Cəmiyyətin islahına xidmət edən hökmləri, yəni zahiri və batini fərzləri təyin edir.

* İqtisadi və maddi tənzimləmələr, ümumi hüquq prinsipləri qoyur.

* Ailəyə aid hökmlər qoyur.

* Hərb hüququnu elan edir.

* Hərb əsirlərinə dair hüququ təyin edir.

* Ağılı vəhy çərçivəsində təslimiyyət ilə hüzura qovuşdurur və qəlbi tərəqqi qazandırır.

2. Cədəl elmi

Tövhid əqidəsinə zidd olan iddialara cavab verir. Batil və təhrifin çürük olduğunu ortaya qoyur.

3. Kainat ayələri

Allahın nemətlərini xatırladaraq təfəkkürə dəvət edir. Daxilimizdə və ətrafımızda mövcud olan Allahın sənətini tamaşa etdirərək sənətdən Sənətkara, səbəbdən Müsəbbibə, əsərdən Müəssirə aparır.



Kastiliya kraliçası Pinti İzabella qətiyyən yuyunmadığı üçün ondan gələn natəmiz qoxu səbəbi ilə yanına yaxınlaşmaq mümkün deyildi. Onun dövründə kişilər yuyunmayan arvadlarını tərk edib fahişə qadınlara meyil edirdilər. Bu da təhrifolunmuş dinin acınacaqlı halı!..

4. Qissədən hissələr

Allahın insanlıq tarixinə müdaxilələrini, peyğəmbər qissələrini, əhli-kitabdan ibrətli səhnələri və Sodom-Qomorre kimi qövmlərin başına gələn fəlakətləri insanlığın dərs alması üçün izah edir.

Bizim üçün üsveyi-həsənə olan Peyğəmbərimizin həyatının, yəni siyəri-nəbinin də ən böyük qaynağı Qurani-Kərimdir.

5. Ölüm və sonrasında yaşananlardan xəbər verir. İnsanı əsas həyat olan əbədiyyətə hazırlayır. Axirətin o ağır günündə qorxu və hüzndən

azad ola bilmək üçün Haqq-Təalaya dost olmağın yollarını təlim edir.

Bütün bu saydıqlarımız Quranın ümumi mahiyyətini açıqlayır. Quran ən müəzzəm və ən möhtəşəm olandır. İnsanlığın dünənini və bu gününü işıqlandırdığı kimi sabahına da bələdçilik edəcək yeganə dünya görüşü İslama aiddir.

Həyatın bütün sahələrində Quranın yolunu bizə izah edən yeganə mürşid Hz. Peyğəmbərdir.

Rəsulullah (s.ə.s)-dən Quranın təlimlərini ən gözəl formada öyrənən də əshabi-kiram və Allah dostlarıdır.

İslam ideologiya deyil. Lakin bütün ideologiyaların fövqündə; həqiqi, mükəmməl, fərd və topluma iki dünya səadəti bəxş edən bir dünya görüşünə sahibdir.



Bir yəhudi dini bayram sayılan Yom Kippurdan əvvəl bir toyuq alaraq ona dua oxuyub üç dəfə başına çevirir. Guya günahları ona keçir. Sonra da həmin toyuğu kəsərək günahlardan təmizlənmiş olur... Təhrifolunmuş dinin acınacaqlı halı...

Hər mədəniyyət öz insan tipini formalaşdırır. Bizim mədəniyyətimiz Quran və Sünnə mədəniyyətidir. Tarixən bu əsaslara bağlı qalan **xüləfayi-raşidin, Ömər bin Abdüləziz və Osmanlı**nın ilk üç əsri kimi dövrlər insanlıq tarixinin üzağı olmuşdur.

Həqiqətən də dünyada ən məsud insanlar düzgün imana sahib olanlardır. Allah hüzur halını saleh və dindar qullarına nəsib edir. Ən ağır şərtlərdə belə onlar daima hüzur içərisində yaşayarlar. Ən böyük fəlakətlərin baş verdiyi həngamədə belə onlar daima hüzur içində ömür sürərlər.

İnanc və təqva insana hüzur (mənəvi rahatlıq) və vəcd (mənəvi rahatlıq) halı qazandırar. Ona görə də dindar olan şəxs hər kəsə şəfqət və mərhəmətlə baxar. **Həbibi-Nəccar** kimi, **Həllac Mənsur** kimi özlərini daşlayanlara da mərhəmət edər, bağışlanmaları üçün dua edərlər.

Məsələn, əsri-səadətdə baş verən bütün hadisələr, demək olar ki, rəvayət halında bizə nəql edilmişdir. Bu xəbərlər arasında səhabeyi-kiramın hər hansı psixoloji sarsıntı keçirdiyinə dair heç bir məlumat yoxdur. O qədər məşəqqət və iztirabın içində hamısı hüzur və səadət içində yaşayırdılar...

Lakin qafil və dindən uzaq insanların ən dəbdəbəli şərtlərdə həyat sürməsinə baxmayaraq hüzurdan məhrum qaldıqlarını görürük. Ən böyük psixoloji problemlərlə üzləşdiklərini müşahidə edirik.



Hüzurun yolu yalnız İslamdan keçir. Hüzur Allah-Təalaya iman edib, saleh əməllər işləyərək təqva və əxlaq ölçüləri içərisində yaşamaqla əldə edilə bilər.

Yəni insan haqq dinə bağlandıqdan sonra olduğu vəziyyət və şərtlər hər nə qədər ağır da olsa daima hüzur içində yaşayar. Lakin haqq dindən və ali əxlaq prinsiplərindən uzaqlaşdıqca da hər cür ruhi böhranın girdabında boğulmağa məhkum olar.

Məhz budur Qərb dünyasının acınacaqlı halı...

Hər məsələdə doyumsuzluq yaşayan Qərb dünyasının aqibəti **qətl, intihar, oğurluq, narkotika asılılığı və homoseksuallıqdan** ibarətdir. Bu halda da təbii olaraq belələ-

rinin qəlbindən mərhəmət duyğusu silinir, vicdanları daşlaşır və getdikcə sadizm xəstəliyinə yoluxurlar. Bu gün Fələstin, Suriya, Yəmən və Myanmada baş verən sonugəlməz zülmlərin əsl səbəbi də məhz budur...

Dünyada və axirətdə hüzur tapmaq istəyənlər bilməlidirlər ki, hüzurun yolu yalnız İslamdan keçir. **Hüzur** Allah-Təalaya iman edib, saleh əməllər işləyərək təqva və əxlaq ölçüləri içərisində yaşamaqla əldə edilə bilər.



Hüzur mütləq ədalətin təmin olunacağı, heç bir haqsızlığın hesabsız qalmayacağı axirət gününə inanmaqdadır. Hüzur yaradılış qayəsinə uyğun yaşamaqdadır.

Hüzur mütləq ədalətin təmin olunacağı, heç bir haqsızlığın hesabsız qalmayacağı axirət gününə inanmaqdadır.

Hüzur yaradılış qayəsinə uyğun yaşamaqdadır.

ASAN VƏ FİTRƏTƏ UYĞUN ŞƏRİƏT

Haqq-Təala son kitabı və son Peyğəmbəri ilə göndərdiyi İslamiyyəti xüsusilə asanlaşdırılmış bir şəriətlə göndərmişdir.

Qurani-Kərimin ayələrindən də başa düşürük ki, Allah-Təala İsrail oğullarının günah və üsyanları səbəbi ilə onlara daha ağır hökmlər endirirdi. Məsələn;

* Şənbə günü hər hansı bir iş görmək qadağan idi.

* Dəvə kimi təkdırnaqlı heyvanların ətini yemək də qadağan idi.

* İnək və qoyun kimi heyvanların piyi də haram idi.

Həmçinin rəvayətlərə görə,

* Zəkat dörddəbir idi.

* Fərz namazların vaxtları daha çox idi.

* Qənimət yasaq idi.

* Məbəddən başqa heç bir yerdə ibadət etmək olmazdı.

* Nəcasət yuyulmaqla təmizlənməzdi. Paltarın nəcis dəyən hissəsi kəsilib atılmalı idi.

* Bəzi günahlara tövbə etmək üçün insan özünü də öldürməli idi.

Qurani-Kərim bunları "isr/ağır şəriət" adlandırır. "Əmənər-rəsulu"nu oxuyarkən bizə belə dua etməyimiz tələb edilir: **"Ey Rəbbimiz, bizdən əvvəlkiləri yüklədiyin kimi, bizi ağır yükləmə!".** (əl-Bəqərə, 286)



Dünyada ən məsud insanlar düzgün imana sahib olanlardır. Allah hüzur halını saleh və dindar qullarına nəsib edir. Ən ağır şərtlərdə belə onlar daima hüzur içərisində yaşayarlar.

İslam şəriəti ilahi rəhmət sayəsində **"əl-Hanəfiyyətus-səmha** / asan Həniflik" adlandırılır.

Ayeyi-kərimədə buyurulur:

"O (Öz dini üçün) **sizi seçdi və dində sizin üçün heç bir çətinlik yeri qoymadı – atanız İbrahimin dini** (dinində olduğu) **kimi..."** (əl-Həcc, 78)

Dinimizdə insana məşəqqət verməmək üçün xəstəlik və səfər kimi üzrlü hallarda bir çox asanlıqlar gətirilmişdir.

Ramazan orucunu əmr edən, həmin günlərdə səfərdə, yaxud xəstə olanların başqa gündə qəza etmək şərti ilə oruc tutmamaları üçün icazə verən ayədən sonra belə buyurulur:

"...Allah sizin üçün ağırlıq deyil, yüngüllük istər..." (əl-Bəqərə, 185)

Su tapılmadıqda təyəmmüm almağı əmr edən ayeyi-kərimədə belə buyurulur:

"...Allah sizi çətinliyə salmaq istəməz, lakin O sizi pak, təmiz etmək və sizə olan nemətini tamamlamaq (artırmaq) **istər ki, bəlkə, şükür edəsiniz!"** (əl-Maidə, 6)

Həqiqətən, Rəbbimizin bütün əmrləri bizim xeyrimizə və faydamızadır.



Qafil və dindən uzaq insanların ən dəbdəbəli şərtlərdə həyat sürməsinə baxmayaraq hüzurdan məhrum qaldıqlarını ən böyük psixoloji problemlərlə üzləşdiklərini müşahidə edirik.

DİNLƏR VƏ MÜHARİBƏLƏR

Ateist və deistlər dünya tarixində baş verən müharibələrdən dinləri məsul tuturlar. Dinləri insanları bir-birinə düşürən, kin-küdurəti körükləyən zərərli bir ideologiya kimi görürlər.

Qeyd edək ki, insanın təbiətində ehtiras var. Zatən Haqq dinin göndərilməsinin səbəblərindən biri də insanı təbiətindəki bu zülm və cəhalətdən qurtarmaqdır.

Yer üzündə ilk cinayət Qabilin qardaşı Habili öldürməsi ilə işlənmişdir. Həmin hadisəni nəql edən qissədə Habil belə deyir:

"Sən məni öldürməkdən ötrü mənə əl qaldırsan da, mən səni öldürmək üçün sənə əl qaldıran deyiləm..." (Bax. əl-Maidə, 28)

İnsanlar başqasının əlindəki mal, mülk və bu kimi şeyləri qəsb etmək, onlara hökm etmək ehtirasları səbəbindən bir-biri ilə müharibə ediblər.

Bu ehtirasla yola çıxanlar əsasən təhrif olunmuş dinlərdən də bir vasitə olaraq istifadə ediblər.



İslam sülh və əmin-amanlığı əsas götürmüş, lakin fitnə və zülmə mane olmaq üçün qaçılmaz olduğu təqdirdə vuruşmağı da əmr etmişdir. Lakin müharibədə də riayət olunacaq haqq, hüquq və nizam qoymuşdur.

Bunun bəhanə olduğunu asanlıqla aydınlaşdırmaq mümkündür.

Məsələn, Abbasilər dövründə, guya, şiəlik davası güdən üsyançılarla mərkəzi hökumət arasındakı qarşıdurmaların yeganə səbəbi siyasət və hakimiyyət ehtirası idi.

Çünki Abbasilər də Əhli-Beyt davası adı ilə Əməviləri yıxmışdılar.

Lakin Haqq din bu haqsız şüurların qarşısında durmuşdur. Fitnə və zülmlərə mane olmaq üçün başqa çarə yoxdursa, vuruşmağı da əmr etmiş, lakin müharibədə də riayət

ediləcək hüquq normativləri qoymuşdur.

Həzrət Peyğəmbərin təlimatları açıq-aşkardır:

"Uşaqları, məbədə çəkilib ibadətlə məşğul olanları, qadınları, yaşlıları və məişət işləri üçün muzdla tutulanları öldürməyin!

Kilsələri viran qoymayın, ağacları kökündən kəsməyin!". (Əhməd, I, 300; Təbərani, Kəbir, XI, 224/11562; Buxari, Cihad, 148; Müslim, Cihad, 24, 25; Təbərani, Əvsat, I, 48/135; İbn Macə, Cihad, 30; Vaqidi, III, 912; Abdurrəzzaq, Müsənnəf, V, 220)



Tarixə insafla baxanlar müsəlmanların hərb hüququna riayət etdiklərini, fəth olunan bölgələrdə yaşayan əhalinin sevincini, İslamla idarə olunan yerlərdəki din və vicdan azadlığını, yaşanan hüzur və səadəti inkar edə bilməzlər.

Müharibə tarixini düşünək:

Xaçlı səfərlərini papalar təşkil edirdi. Bəli, lakin onlar dini duyğulardan çox quldurluq və talançılıq məqsədi güdən, gözüdönmüş kütlələr idi.

Əlbəttə ki, müsəlmanlar bu haqsız hücumlar qarşısında özlərini və vətənlərini müdafiə etdilər.

Mahir İz hisslərinə qapılan, lakin məntiqdən uzaq qalaraq müharibə əleyhdarlığı edən **Tövfiq Fikrəti** məntiqli izahlarla belə tənqid edir:

"İki cür insan var: biri yaxşı, biri pis. Yaxşı insanı təmsil edən ***"Habil"****, pisi təmsil edən isə* ***"Qabildir"****. Dünya yarananda bəri bu iki tip insan bir-biri ilə mücadilə aparır.*

Bütün dinlərin hökmləri hər kəsin Habil təbiətli olmasını istəyir.

Hissiyyatı bir kənara qoysaq, bəşər tarixi boyunca yaşanan müharibələr insanların dünyada qan tökmədən yaşaya bilmədiklərini isbat etmişdir.

Belə olan təqdirdə dünyada acınacaqlı halda olan və qorunmağa möhtac məzlum insanlar mövcuddur. Zalımın varlığı fitri olduğu üçün, eyni zamanda bütün dinlər və qanunlar məzlumu himayə edib, zalımı cəzalandırdığından müharibəyə və sərkərdəyə hücum etmək tamamilə hissiyyata qapılaraq zəiflik göstərməkdir". (Mahir İz, Ustadım Mehmed Akif. (Hazırlayan: Ertuğrul Düzdağ, s. 51)



Bütün savaşları eyni anlayışla ittiham etmək haqsızlıq olmazmı? İşğal etmək üçün döyüşənlə canını, ailəsini, dinini, vətənini və malını qorumaq üçün döyüşən eyni ola bilərmi?

Məsələni bir az da izah etməli olsaq deyə bilərik ki, bütün insanları bir düşüncədə görmək haqsızlıqdır.

İşğal etmək üçün hücum edənlə özünü, ailəsini, dinini, vətənini və malını mühafizə etmək üçün savaşanlar eyni ola bilərmi?

İmtahan dünyasında xeyir və şər, haqq ilə batil arasındakı mücadilə daim davam edəcək. Davam etdiyi müddətdə də müharibə olacaqdır. Belə bir hadisə qarşısında **"Vuruşmayaq, din müharibə etməyə izin verməsin"** demək,

işğalçıların işinə yarayacaq hiylədən başqa bir şey deyil.

Olmaya deistlər insanların vətənlərini işğal etmək istəyən düşmənlərinə müqavimət göstərmələrini qəbahət sayırlar?

Yoxsa **deizm** sözün tam mənasında işğal edilə bilməyən İslam torpaqlarını Qərb istilalarına açıq hala gətirmək üçün icad edilən iflicetmə, liberallaşdırma və kölələşdirmə səylərinin məhsuludur?



İmtahan dünyasında xeyir və şər, haqq ilə batil arasındakı mücadilə daim davam edəcək. Davam etdiyi müddətdə də müharibə olacaqdır. Belə bir hadisə qarşısında "Vuruşmayaq, din müharibə etməyə izin verməsin" demək, işğalçıların işinə yarayacaq hiylədən başqa bir şey deyil.

Həqiqətən, Balkan Müharibələri, Birinci Dünya Müharibəsi və Milli Mücadilə ilə on beş il davam edən müharibələrdən əvvəl əcnəbi heyranı olan Osmanlı ziyalıları Qərb dünyasını xilaskar zənn edirdilər. Müharibələr başladıqdan sonra neft kimi sərvətləri ələ keçirmək üçün çaqqal sürüsü kimi müsəlman torpaqlarına necə hücum çəkdiklərini gözləri ilə gördülər.

Mehmed Akif deizm və **ateizm**i də meydana çıxaran materialist fəlsəfənin hakim olduğu Avropa mədəniyyətini belə ifadə edir:

"Mədəniyyət!" sizə çoxdan bəridir diş biliyor;
Əvvəla parçalamaq, sonra da yutmaq diliyor.

...

Mədəniyyət deyilən masqara məxluqu görün:
Tükürün maskalı vicdanına əsrin, tükürün!"

Zəmanəmizdə də dünyanın qüsurlu gedişatından İslamı məsul görmək imkansızdır.

Əksinə, dünyadakı mövcud vəziyyət kapitalist, sosialist, faşist, materialist, siyonist və bu kimi bəşəri sistemlərin mənfəətpərəst və eqoist hücumlarının nəticəsidir.

Dünyanın ən amansız silahı olan atom bombasını dindarlar deyil, guya ağıl və vicdanla qərar verən elm adamları icad etmiş və guya bundan demokratiya, insan haqları kimi məfhumları müdafiə edən ölkələr istifadə etmişdir.

Həmin bombanın atıldığı yerdə məsum insanlar – yaşlılar, qadınlar, uşaqlar, heyvanlar və bitkilər məhv olmuşdur.



Dünyanın qan gölünə dönməsindən əsla İslam məsul deyil. Əksinə, dünyadakı mövcud vəziyyət kapitalist, sosialist, faşist, materialist, siyonist və bu kimi bəşəri sistemlərin mənfəətpərəst və eqoist hücumlarının nəticəsidir.

Dinlərin müharibəni körüklədiyini iddia edənlər insafla desinlər, milyonlarla insanın öldüyü İkinci Dünya Müharibəsinin kiçicik bir dini səbəbi varmı?

Hitlerin, **Mussolini**nin hər hansı bir dini qayəsi vardımı?

Yüz minlərlə insanın kəlləsi ilə özünə hakimiyyət qülləsi inşa edən **Stalin**in dini vardımı?

Yoxsa din düşməni idi?

İki əsrə yaxındır ki, müsəlmanlar daima məzlum haldadırlar.

Fərdin də, cəmiyyətin də yeganə xilası İslamın bütünlüklə yaşanmasındadır.

İslam bir mənası da "sülh" olan **"salam"** sözündən yaranmışdır. Həqiqətən də müharibəni deyil, sülhü və əmin-amanlığı əsas götürür.

Deistlərin iddialarından biri də budur:

MÜTLƏQ HƏQİQƏT YOXDUR!

Belə deyirlər:

"Hamı öz yaşadığı cəmiyyətin, öz ata-anasının dinini yaşayır. Mütləq mənada həqiqət yoxdur. Hamı özünə görə doğrudur..."

Bu iddia tamamilə mövzudan yayınmadan ibarətdir.

Bu iddianı cavablandırmaq üçün aşağıdakı hədisi-şərifi başlanğıc nöqtəsi götürək:



Dünyanın ən amansız silahı olan atom bombasını dindarlar deyil, guya ağıl və vicdanla qərar verən elm adamları icad etmiş və guya bundan demokratiya, insan haqları kimi məfhumları müdafiə edən ölkələr istifadə etmişdir.

"Hər uşaq anası tərəfindən fitrət üzrə dünyaya gətirilər. Onun bu halı dil açma çağına qədər davam edər, sonra (əgər ona haqq din tanıdılmazsa) ata-anası onu xristian, yəhudi və ya məcusi edər". (Əbu Davud, Sünnə, 18; Tirmizi, Qədər, 5)

Həzrət Peyğəmbər insanların yaşadıqları cəmiyyətdə mövcud olan inancı asanlıqla mənimsəyəcəklərinin fitri səbəbindən xəbər verir.

Yəni hər insanın fitrətində (təbiətində) inanma duyğusu olduğu üçün ailədə və cəmiyyətdə gördüyü hər hansı bir inancı mənimsəmək ona asan gəlir.

Əslində bu, fitrətdəki xüsusiyyətin israfı sayılır.

Əgər biz müsəlmanlar təbliğ vəzifəmizi layiqincə yerinə yetirə bilsək, dünyada haqq və həqiqətdən xəbərsiz adam qalmaz.

Əshabi-kiram bu şüurda idi. Ona görə də yaşadıqları zamanın məhdud imkanlarına baxmayaraq dünyanın bir çox yerinə İslamı çatdırdılar.

İslam qısa zaman ərzində şərqdə Çin və Hindistana, qərbdə İberiya Yarımadasına (İspaniya), şimalda Balkan Yarımadasına, Qafqaza, bütün Orta Asiyaya və cənubda Afrikanın mərkəzinə, İndoneziyaya qədər yayıldı.



Dinlərin müharibəni körüklədiyini iddia edənlər insafla desinlər, milyonlarla insanın öldüyü İkinci Dünya Müharibəsinin kiçicik bir dini səbəbi varmı?

İslam təbliğinin yetişmədiyi kəslərin məsuliyyəti, əlbəttə ki, daha yüngüldür. Onlar Allaha inanmaq və Ona şərik qoşmamaqla mükəlləfdirlər.

İslam mütəfəkkirlərindən **İbn Tüfeylin Hayy bin Yaqzan** əsəri var. Əsər bir adada tənha böyüyən uşağın təfəkkür edərək Allahı tapmasından bəhs edir.

Daniel Defonun adada yalnız qalan *Robinzon Kruzo* romanı da bu əsəri təqlid nəticəsində qələmə alınmışdır.

Lakin bu gün insanlar üzərində bioloji valideynlərin və cəmiyyətlərin təsiri qat-qat azalmış vəziyyətdədir. İnternet və televizor kimi imkanlar yalnız mənfi mənada deyil, eyni zamanda müsbət mənada da təsirli ola bilir. İnternet vasitəsi ilə araşdırmalar apararaq, ali həqiqəti taparaq İslamı seçənlərin də sayı az deyil.



Hitlerin, Mussolininin hər hansı bir dini qayəsi vardımı? Yüzminlərlə insanın kəlləsi ilə özünə hakimiyyət qülləsi inşa edən Stalinin dini vardımı? Yoxsa bir nömrəli din düşməni idi?

Məsələn, dünyanın o biri başında yaşayan **Haitidən olan bir qardaşımız** internetdə qadın haqlarını araşdırarkən ingilis dilinə tərcümə olunmuş kitablarımızla qarşılaşmış, oxuyaraq İslamı qəbul etmiş və Davud adını almışdır.[1]

Yüzlərlə bu kimi hidayət hekayəsi var. **Məhəmməd Əli, Malkolm X, Yusuf İslam** və bir çox məşhur simalar da bunlardan sadəcə bir neçəsidir.

Bu gün dünyanın hər bir guşəsində müsəlman məscidləri və camaatları var.

Deməli, içərisində yaşadığımız cəmiyyət, sahib olduğumuz mədəniyyət və ya ailə əslində həqiqəti axtarıb tapmağımıza mane deyil.

Burada bir xüsusu da yada salaq:

İnsanlar zaman-zaman dünya mənfəəti əldə etmək üçün səfərə çıxırlar. İmkan daxilində əyləncə, təhsil və s. məqsədlərlə uzaq diyarlara gedirlər.

1. Yüzakı jurnalının 2017-ci ilin may buraxılışında (147-ci sayı) "Haitidən Eyyuba bir hidayət hekayəsi" başlıqlı reportajı oxuya bilərsiniz.

İnsanın haqq dini araşdırmaq məqsədi ilə də cəhd etməsi lazımdır.

Həqiqətin yalnız yaşadığı cəmiyyətdə, öz ata-anası tərəfindən təlqin edilməsi şərtdirmi?

İnsan hansı şərtlər altında yaşamasından asılı olmayaraq bu suallar üzərində təfəkkür etməli və cavabını tapmalıdır:

- İnsan dünyaya nə üçün gəldi?

- Kimin mülkündə yaşayır?

- Kainatda mövcud olan bu qədər saysız-hesabsız əzəmət və qüdrət təcəlliləriндən məqsəd nədir?



İnsan hansı şərtlər altında yaşamasından asılı olmayaraq bu suallar üzərində təfəkkür etməli və cavabını tapmalıdır:
- İnsan dünyaya nə üçün gəldi?
- Kimin mülkündə yaşayır?
- Kainatda mövcud olan bu qədər saysız-hesabsız əzəmət və qüdrət təcəlliləriندən məqsəd nədir?

İnsan harada olursa olsun, bu həqiqəti tapmalıdır.

Digər tərəfdən, İslam cəmiyyətində, inanclı bir ailədə dünyaya gələnlər də bəxş edilmiş bu ilahi lütf qarşısında şükür və minnət içində yaşamalıdırlar. Bu neməti nəsib edən Allaha həmd etməli, bu həqiqəti onlara çatdıran möminlərə də vəfa göstərməli, dua etməlidirlər.

Müşahidələrimiz göstərir ki, xristianların və ya buddistlərin arasında yaşayan insan da İslamı seçə bilir. Digər tərəfdən, məscidin qonşuluğunda yaşadığı halda haqq dindən xəbərsiz ömür sürən ateistlər də mövcuddur. Deməli, inanc xüsusunda ətraf təsirlərdən daha çox şəxsi iradə böyük rol oynayır.

Deməli, İslamı təbliğ xüsusunda nümunəvi şəxsiyyət sərgilənməli və bu şəxsiyyət uzaq-yaxın demədən hər kəsə nümayiş etdirilməlidir ki, imandan məhrum olanlar da hidayətə can atsınlar...

Yəni Allah-Təalanın **Hadi** sifətinə sarılaraq bir çox məhrum könüllərin hidayətinə vəsilə olmaq üçün əlimizdən gələni etməliyik.

Haqq-Təala lütf-kərəmi ilə hər birimizi hidayət üzrə yaşatsın və hidayətlərə vəsilə etsin...

Amin!..



Biz nə qədər ixlasla, təqva ilə, eşq və şövqlə İslamı yaşasaq, övladlarımız, tələbələrimiz və qarşımızdakı insanlar üzərində bir o qədər təsirli olarıq. Allahın izni ilə ətrafımızdakıların imana can atdığının şahidi olarıq.



TƏBLİĞ ÜSLUBU

Allah-Təala insanların hidayətə gəlməsi üçün dini təbliğ edərkən "qövlən leyyinə / mülayim dil"li olmağı əmr edir. Ayeyi-kərimədə dini gözəl üslubla təbliğ etməyin əhəmiyyətli olduğu bildirilir:

اُدْعُ اِلٰى سَبِيلِ رَبِّكَ بِالْحِكْمَةِ وَالْمَوْعِظَةِ الْحَسَنَةِ وَجَادِلْهُمْ بِالَّتِى هِىَ اَحْسَنُ

"(Ya Rəsulum!) İnsanları hikmətlə, gözəl öyüd-nəsihətlə Rəbbinin yoluna dəvət et, onlarla ən gözəl surətdə mücadilə et…" (ən-Nəhl, 125)
Bu mücadilə qəlblərin fəthi üçündür.



TƏBLİĞ ÜSLUBU

Bu əsərdə deizmin nə olduğunu, necə meydana çıxdığını, maddi və mənəvi səbəblərini, zehinləri qarışdırmaq məqsədi ilə verilən sualları və cavablarını qələmə almağa çalışdıq. Oxuculara bir xəbərdarlıq etmək istərdik.

Əqaidin əsaslarına görə *"Əməl imandan bir cüz (hissə) deyil".*

Yəni əməldə işlənən qüsurlar, işlənən günahlar, unudulan və ya tərk olunan fərzlər insanın mənəvi dünyasına böyük zərər versə də, imanını yox etməz. Onu birbaşa küfrə salmaz.

Lakin bu anlayış insanı həddi aşmağa sövq edərsə, yəni "Necə də olsa qeyri-İslami həyat tərzi, haramlara əl atmaq imana zərər verməz. Əsas olan sevmək və qəlbin təmiz olmasıdır" deyə tarixdə yaşamış **"Mürciə firqəsi"**nin açdığı yola sürükləyərsə, bilmək lazımdır ki, bu yol batildir.

Bu düşüncədə olan qafil insanları irşad etmək, onlara doğru yolu başa salmaq lazımdır. Onların qəlbinə gedən bir damar tapmaq lazımdır.

Damarı tapmadan iynə vurulduğu zaman orqanizmə zərər verər. Lakin həmin iynəni qəlbə gedən damarı tapıb vurduqda insanın şəfa tapmasına vəsilə olar. Eynilə bu cür, yəni insanların qəlbinə və ruhuna gedən damarı taparaq onlara həqiqətləri izah etdiyimiz zaman mənəvi çarə və hidayətə vəsilə olmaq mümkündür.



İrşada möhtac olanların ruhuna gedən damarı axtarmaq lazımdır. Damarı tapmadan iynə vurulduğu zaman orqanizmə zərər verər. Lakin həmin iynəni qəlbə gedən damarı tapıb vurduqda insanın şəfa tapmasına vəsilə olar. Eynilə bu cür, yəni insanların qəlbinə və ruhuna gedən damarı taparaq onlara həqiqətləri izah etdiyimiz zaman mənəvi çarə və hidayətə vəsilə olmaq mümkündür.

Məsələn, Həbəşistanda Nəcaşinin hüzurunda İslamı təbliğ etmək üçün **Həzrət Cəfər**in əlinə fürsət düşmüşdü. Ondan Quran oxumasını istədikləri vaxt qarşısındakı xristianların qəlbinə gedən bir damar taparaq Məryəm surəsindən Həzrət İsanın dünyaya gəlməsi ilə əlaqəli ayələri oxudu. Nəcaşi həddən artıq təsirləndi; rəvayətə görə, orada və ya daha sonra müsəlman oldu.

Cəfər (r.a) orada kafirlərə xitab edən və müşriklərə cəhənnəm vəd edən ayələri də oxuya bilərdi. Lakin elə etsəydi, eyni təsir meydana gələrdimi?

Deməli, təbliğ edənlərin bəsirət sahibi olması lazımdır. Haqq-Təalanın qüdrət və əzəmətini təfəkkür etdirəcək, ilahi sənətini tamaşa

etdirəcək ortaq bir nöqtə taparaq oradan təbliğ etmək lazımdır.

Bu səbəblə Haqqı inkar sayılan hər şeyi fikrən, elmən və dinən tənqid etmək islami vəzifəmizdir. Lakin inkar bataqlığına düşmüş qafil kəslərin şəxsiyyətini hədəf alaraq onlara xor baxmamaq, mənfi sifətlərlə vəsfləndirib iynələyici dil işlətməmək lazımdır. Yanlış fikirləri puça çıxarmaq doğru, həmin fikrə düşənləri təhqir etməksə doğru deyil. Çünki nəfsləri hərəkətə gətirməklə həqiqət nuru könüllərə doğmaz.

Yəni insanlara "madam ki dini yaşamamaq deistlik sayılır, onda mən də deistəm" dedirtməmək lazımdır.



Təlim-tərbiyə səbir və əzmkarlıq tələb edir. Axar suyu qarşısına çıxan yüksək bir dağın təpəsinə dırmaşdırmaq mümkün deyil. Lakin ətrafından fırladaraq lazım olan yerə çatdırmaq mümkündür. Tutulacaq yol uzun və məşəqqətli görülə bilər, amma nəticə hasil olacaqsa və istənilən qayə əldə ediləcəksə buna səbir etmək lazımdır.

İrşad vəzifəmizə davam etməli, mənəvi tədbirlərə əl atmalı, dua etməli və insanlara ümidlə yaxınlaşmalıyıq.

Hətta cahillik səbəbi ilə deizm təbliğatına aldanan, yaxud gənclik qəflətinə düşərək və ya əcnəbilərə heyranlıq duyaraq "mən deistəm" deyən gənclərə yaxınlaşarkən diqqətli olmalıyıq.

Bu kimi insanlara deizmin əsl mahiyyəti izah edilməli, onun maskalanmış ateizm olduğu bildirilməlidir.

Bu bir gerçəkdir ki, gənclik illəri enerjinin çoxluğu səbəbi ilə başıboş buraxıldığı təqdirdə insanın dəlisov həyat sürdüyü bir mərhələdir. Bu yaş dövründə qəflətin hakim ol-

duğu mühitlərə düşən gənclər müəyyən səbəblərlə bu kimi sözlər söyləyə bilərlər. Gözdən qaçırmamaq lazımdır ki, bəzi gənclər bu kimi sözləri çox vaxt ürəkdən deyil, ətrafdakılara etiraz etmək məqsədi ilə söyləyirlər. Yəni bu hal onlarda qalıcı və əsli deyil, tamamən müvəqqətidir. Həddən artıq əks reaksiya ilə bu müvəqqəti halı qalıcılaşdırmaq tərbiyəçinin qəfləti olar.

Əslində onlarla birlikdə təfəkkürə qapı açacaq söhbətlər edilməli və müəyyən fəaliyyətlər həyata keçirilməlidir.

Təlim-tərbiyə səbir və əzmkarlıq tələb edir. Axar suyu qarşısına çıxan yüksək bir dağın təpəsinə dırmaşdırmaq mümkün deyil. Lakin ətrafından fırladaraq yuxarı doğru qaldırmaq mümkündür. Tutulacaq yol uzun və məşəqqətli görülə bilər, amma nəticə hasil olacaqsa və istənilən qayə əldə ediləcəksə buna səbir etmək lazımdır.



Bizə üsveyi-həsənə olan Peyğəmbərimiz (s.ə.s) ömrü boyu insanlara imanı təbliğ etdi. Təşkil olunan yarmarkalarda, həcc günlərində, Məscidi-Həramın həndəvərində, Taifin məşəqqətli yollarında daima müşriklərlə görüşüb onlara İslamın həqiqətlərini çatdırmağa çalışdı.

Təbii ki, inkar və üsyan sözləri eşitmək islami cəmiyyətdə yaşayan iman sahiblərinə ağır gələr.

Lakin unutmamaq lazımdır ki, bizə üsveyi- həsənə olan **Peyğəmbərimiz** (s.ə.s) ömrü boyu insanlara imanı təbliğ etdi. Təşkil olunan yarmarkalarda, həcc günlərində, Məscidi-Həramın həndəvərində, Taifin məşəqqətli yollarında daima müşriklərlə görüşüb onlara İslamın həqiqətlərini çatdırmağa çalışdı. Onlara Quran oxudu, ayələri bəyan

etdi. Təfəkkürə dəvət etdi. Axirəti qəbul etməyənlərə yenidən dirilişi anlamaları üçün qışdan sonra baharda yaşanan canlanmanı misal verdi. Halı ilə, sözü ilə daima təbliğ etdi.

Biz nə qədər can-başla, ixlasla, təqva ilə, eşq və şövqlə İslamı yaşasaq, övladlarımız, tələbələrimiz və müxatəblərimiz üzərində bir o qədər təsirli olarıq.

İman qəlbin əməlidir. Qəlblərə eşitdirmək üçün sadəcə ağıl və məntiq çərçivəsində açıqlamalar etmək kifayət deyil.

Onlar insanlara zehin bulandıran suallar verirlər.

Biz də vicdanları hərəkətə gətirəcək, duyğuları canlandıracaq mənəvi suallarla təsirli olmalıyıq.



Peyğəmbərimiz insanlara Quran oxudu, ayələri bəyan etdi. Təfəkkürə dəvət etdi. Axirəti qəbul etməyənlərə yenidən dirilişi anlamaları üçün qışdan sonra baharda yaşanan canlanmanı misal verdi. Halı ilə, sözü ilə daima təbliğ etdi.

CAVAB GÖZLƏYƏN SUALLAR

- Canlılar aləminə baxanda digər canlılardan fərqli olduğunu hiss edirsənmi?

- İnsan adlanan bu mükəmməl varlığın milyardlarla təsadüfün ard-arda düzülməsi ilə var olması yalanı səndə heç bir şübhə oyatmırmı?

- İnsanın digər canlılardan sadəcə bioloji cəhətdən fərqləndiyini, aradakı bu fərqin beyinin inkişafından başqa bir şey olmadığını qəlbin qəbul edirmi?

- Həyat haqqında heç düşünmürsənmi? Bu dünyaya gəliş və gedişimizin bir səbəb və qayəsinin olduğunu heç düşünmürsənmi? Səncə dünyadakı hər şey anidən öz-özünə meydana gəlib?

- Min il bundan əvvəl dünyadakı insanların sayı bəlkə də beş-altı milyon idi. Lakin 1915-ci ildə dünya əhalisinin 1,5 milyarda çatdığı məlum oldu. İndi isə ümumi dünya əhalisinin sayı 7 milyarddan artıqdır. İnsanlardan da əlavə saymaqla qurtara bilməyəcəyimiz qədər digər canlılar var. Hər biri ruziyə möhtacdır və bu ehtiyacları bir an belə gecikmədən təmin olunur. Bu qədər müxtəlif və saysız-hesabsız varlığın bir-birindən fərqlənən o qədər çeşidli ruzisini kim tədarük edir? Hər birini yerli-yerində kim təmin edir? Bir az insaf edib düşünmək lazım deyilmi?



Bir səhnədə eyni anda iki fərqli pyes oynansa, bir-birinə qarışar. Bu aləm səhnəsinə bax! Eyni məkanda, eyni anda milyardlarla pyes oynanır, amma heç biri digərinə qarışmır. Bu necə mümkün olur, heç düşündünmü?

- Allah-Təala hər mövsümdə coğrafi bölgəyə görə ayrı-ayrı ikramlar edir. Qütbdə yaşayanı da, ekvatordakını da ac qoymur. Yayda mövsümün ehtiyacına görə su itkisini bərpa edən qarpız kimi meyvə-tərəvəzi, qışda isə yenə mövsümün ehtiyacını nəzərə alaraq C vitamini ilə zəngin portağal kimi meyvə və tərəvəzləri yaradır. Bunun hikməti üzərində baş sındırıb şükür etmək lazım deyilmi?

- Yağan qarı düşün. Torpağın üstünü yarım metr, bir metr qar örtür və o torpaq bir çox məxluq üçün ana qucağı olur. Qar əridikdən sonra ölmüş heyvan və həşəratların leşləri ilə qarşılaşmırıq. Bütün o məxluqatı sanki xüsusi qundaq içində mühafizə edən kimdir?

- Yağan qar eynilə gəlinlik kimi, ağappaq çiçək kimi ruha rahatlıq verir. **Qapqara qətran kimi və ya qıpqırmızı qan kimi** yağsaydı, qarşılaşdığımız mənzərə qarşısında ürəyimiz bulanardı.

- Bütün yaradılışda müşahidə etdiyimiz insan mərkəzli sistem, görəsən, kimin əsəridir?



Sən dünyaya gəlmədən bu aləmin varlığından xəbərin vardımı? İndi qəbir aləminə gedirsən və ora haqqında da heç bir müşahidən yoxdur. Bəs orada nə olacaq? O səfərə tədarüksüz çıxsan, halın necə olacaq?

Məsələn,

- Havada olan 77 faiz azot, 21 faiz oksigen balansını, bu həssas ölçüləri kimin qoyduğunu heç düşündünmü?

- "Birdən sabah oksigenin səviyyəsi azalar, oksigensiz qalaram", - deyə yanında oksigen balonu gəzdirən bir adam gördünmü?

- Hətta inancsızlarda belə var olan bu arxayınlıq ilahi qüdrətə etimad deyilmi?

- Sən dünyaya gəlmədən bu aləmin varlığından xəbərin vardımı? İndi qəbir aləminə gedirsən və ora haqqında da heç bir müşahidən yoxdur. Bəs orada nə olacaq? O səfərə tədarüksüz çıxsan, halın necə olacaq?

- Bir səhnədə eyni anda iki fərqli pyes oynansa, bir-birinə qarışar. Bu aləm səhnəsinə bax! Eyni məkanda, eyni anda milyardlarla pyes oynanır, amma heç biri digərinə qarışmır. Bu necə mümkün olur, heç düşündünmü?

- Hər hansı bir müəssisənin müdirisən və sənə tabe olan işçilərdən biri kiçicik bir xəta işləsə dərhal hesab verməsini istəyirsən. Bəs səni yoxdan var edən qüdrət sahibi Allah verdiyi ömrün və nemətlərin hesabını soruşmazmı?

"Ey insan! Səni kərim olan Rəbbinə qarşı aldadan (və ya: məğrur edən) nədir? O Rəbbin ki, səni (yoxdan) yaratdı, düzəldib qaydaya (insan şəklinə) saldı. Sənə Özü istədiyi surətdə biçim verdi". (əl-İnfitar, 6-8)

- Oxuyub elm sahibi olmaq istəyirsən. Lakin əsas təhsilin nə olduğunu bilirsənmi? Varlığının mənasını və qayəsini öyrətməyən təhsil səni razı salırmı?

Əsas təhsilin



Oxuyub elm sahibi olmaq istəyirsən. Lakin əsas təhsilin nə olduğunu bilirsənmi? Varlığının mənasını və qayəsini öyrətməyən təhsil səni razı salırmı?

اِقْرَاْ بِاسْمِ رَبِّكَ الَّذِى خَلَقَ

"Yaradan Rəbbinin adı ilə oxu!" (əl-Aləq, 1) əmrinə qulaq verərək Allahın əzəmətini oxumaq, Onu qəlbən tanımaq, verdiyi nemətlərə şükür edərək yaşamaq olduğunun fərqindəsənmi? Belə bir oxumadan nəsibin varmı?

- İslam mədəniyyətindən daha böyük, əhatəli və daha möhtəşəm bir mədəniyyət varmı? İslamdan başqa həyatın hər bir mərhələsini

hüzur bəxş edəcək şəkildə tənzimləyən bir sistem varmı?

- Ölüm nədir? Yox olmaqdırmı? Deizm ölüm barəsində və ölümdən sonra yaşanacaqlar haqda nə deyə bilər? Ölüm və sonrası haqda yalnız qeybi bilən Allah və Onun qeybi qismən bildirdiyi peyğəmbərlər məlumat verə bilər.

- Məgər ədalətin mühakimə etmədiyi haqsızlıqlar cavabsız qalmalıdır, yoxsa bir gün haqq öz yerini tapmalıdır? Buna nə deyirsən?

- Ağılın insana mütləq mənada yol göstərə biləcəyini iddia etmək nə qədər doğrudur? Bunun tarixdə bir nümunəsinə rastlayan oldumu? **Aristotelin** ağlı **İsgəndərin** təzyiqləri qarşısında nə işə yaradı? Atom bombasını icad edən dırnaqarası ağıl sahibləri onu məsumlara atacaq zalımlardan qoruya bildilərmi?



Əsas təhsilin

"Yaradan Rəbbinin adı ilə oxu!" (əl-Aləq, 1) əmrinə qulaq verərək Allahın əzəmətini oxumaq, Onu qəlbən tanımaq, verdiyi nemətlərə şükür edərək yaşamaq olduğunun fərqindəsənmi? Belə bir oxumadan nəsibin varmı?

- Filosofların həyatını heç oxudunmu? Aləmə nizam-intizam verməyə həvəsli olan o ağılpərəstlərin əksəriyyətinin həyatlarında hansı çirkin əməlləri yaşadıqlarından, təzadlara düşdüklərindən, əxlaqsızlıqlarından, canlarına qəsd etmələrindən xəbərdarsanmı? Özünə heç bir faydası olmayan ağıl bəşəriyyətə necə yardım edəcək?

- Ağılın xeyrə də, şərə də alət edilə bilən ikiuclu kəskin bıçaq olduğunu nə zaman anlayacaqsan?

- Əxlaqın təməlini düşün. Haqq din olmadan əxlaq olardımı?

- Ağıla əsaslanan əxlaq üzərində bütün bəşəriyyətin həmfikir olması mümkündürmü? Üzərində ittifaq edilməsi imkansız bir sistemin insanlığa nə faydası var?

- Səadət vəd edən kapitalistlər nə üçün pul qazanmaq naminə "Laissez faire, laissez paster / Qoy istədiklərini etsinlər, yol verin keçsinlər", deyərək hər cür məlun əməli mübah gördülər və qaniçən kartellərin yolunu açdılar.

- Harda qaldı kapitalistlərin vəd etdiyi bolluq, xoşbəxtlik və səadət? Sadəcə bir ovuc insan dəbdəbə içində ömür sürsün, geri qalan bəxtindən küssün, eləmi? Ah, qətran kimi qapqara kəsilmiş vicdanlar!



İslam mədəniyyətindən daha böyük, əhatəli və daha möhtəşəm bir mədəniyyət varmı? İslamdan başqa həyatın hər bir mərhələsini hüzur bəxş edəcək şəkildə tənzimləyən bir sistem varmı?

- Kommunistlər bərabərlik vədi ilə yola çıxdılar. Hakimiyyətlərini milyonlarla kəllə üzərində qurdular. Bəs nə üçün sadəcə partiya mənsublarına gün ağladılar?

- İnsanların kapitalizm və ya kommunizmə azacıq da olsa etimadı qaldımı?

Zəkat, infaq, sədəqə, fitrə, vəqf, kəffarə və bu kimi ibadət və mükəlləfiyyətlərlə zəngindən kasıba ciddi bir maddi axış təmin edən və bunu zorla deyil, ibadət eşqi ilə gerçəkləşdirən **İslam**dan başqa bir nizam varmı?

- Zəmanəmizin dəhşətli cinayətlərindən biri olan abort... Vicdandan uzaq qalmış bir çox ağıla və ağıla

əsaslanan sistemə görə tamamilə məsumdur. Hətta haqq və hürriyyətdir. Cinayəti haqlı görən bir ağıl əxlaqı...



İnsan hətta ilahi sənəti təqliddən də acizdir. Məsələn, qoyun, yaxud inək ot yeyir, su içir, nəticədə süd verir. Bəşəriyyət bütün texnoloji imkanlardan faydalanaraq ot və sudan süd istehsal edə biləcək bir fabrik qura bilərmi?

- Sən ürəyi döyünən bir körpənin sırf anası istəmədiyi üçün öldürülməsinə necə razı ola bilərsən? Vicdanın belə bir cinayəti qəbul edirmi? O körpənin yerində sən olsaydın, bununla razılaşardınmı?

- Ailəni kökündən yox edən, insan təbiətinə zidd olan cinsi azğınlıqlara hürriyyət donu geydirərək yol verən, hətta təşviq edən ağıl...

- BMT-də veto haqqına sahib olan beş ölkə özünə yaxın bildiyi, mənfəətinə yarayan ölkələrin zülmünü ört-basdır edir. Orada söz sahibi olan idarəçilərin hər biri materialist, humanist, kapitalist və ya sosialist zehniyyətin köləsinə çevrilmiş zavallılardır...

- Deizm, kapitalizm və sekulyarizm... Dünyanın bu gedişatı sənə ümid verirmi?

- Başda ekologiyaya verdiyimiz zərər olmaqla nəsli kəsilən heyvanlar, kütləvi qırğın silahları, zülmlər və istilalar ağıl və elmi əsas sayan bir dünyanın əsəri deyilmi?

- Ağılı düşdüyü sərsəmlikdən, vəhşilik girdabından xilas edəcək olan çarə nədir görəsən?

- Qərb dünyasını texniki inkişafa və maddi gücə heyran olmadan, ailə və insani dəyərlərlə yenidən dəyərləndirdikdə heyran olacaq hansı tərəflərini saymaq olar?

- Dünənki insan daha çox məsud idi, yoxsa bugünkü insan? Üstəlik bu qədər bolluq və rahatlıq ola-ola. Bəli, buna rəğmən kor və kar olan vicdanların pəncəsində inildəyən, matəmə bürünən ölkələr, qərib, əsir və yalnız insanlar!

- Bu gün **Misir, Suriya, Fələstin, Yəmən və Myanma**da yaşanan zülmlər qarşısında bir insan kimi vicdanın rahat ola bilirmi? Heç vicdan əzabı çəkmirsənmi?

- Yol nəqliyyat hadisəsi, təyyarənin hava boşluğuna düşməsi və ya zəlzələ... Mütləq belə bir an yaşamısan. Məhz o anda keçirdiyin dəhşətli qorxu hissi nədir? Belə bir anda ürəyində hər şeyə gücü çatan bir varlığa sığınma, ona ayalvarma duyğusu hiss etdin, elə deyilmi?

- Ölüm anında və ölümdən sonra bundan daha dəhşətli sarsıntılar yaşanacağının fərqindəsənmi?



Ey deistəm deyən kəs:

- Heç sonsuzluğu düşündünmü?

- Sonsuz cənnət və ya əzab?

- Üçgünlük dünya səfası üçün əbədi olan axirəti məhv etməyə dəyərmi?

- Sənə din, inanc xüsusunda qəflət və zəlalət təlqin edən insanları düşün. O dəhşətli anda sənə yardım edə biləcəklərmi?

- Ölümdən sonra yaşananlar haqda kimin sözünü dinləmək lazımdır?

- Həzrət Peyğəmbər (s.ə.s) 632-ci ildə Allahın rəhmətinə qovuşdu. Lakin elə hədislər var ki, sanki müasir zəmanəmizi görərək bugünkü halımızı təsvir edir. Belə bir insanın

axirət haqqında verdiyi xəbərlərə inanmamaq nə dərəcədə doğrudur?

- Çürük alma ilə sağlam alma bir sayılmaz. Bunu qəbul etmək ən azından məntiqsizlik olar. Elə isə təhrif edilmiş dinlərlə heç təhrif edilməmiş, ən doğru və yeganə haqq din olan İslamı hansı məntiqlə tərəzinin eyni gözünə qoymaq olar?

- İslam haqqında kifayət qədər məlumata sahib olduğundan əminsənmi?

- Bir məsələ haqqında doğru və dolğun məlumat almadan fikir yürütmək nə qədər doğrudur?



Dünyada ikən Allahın bizdən istədiyi ibadət və qayda-qanunların bizim lehimizə, faydamıza olduğunu bilmirsənmi?

- Elm sahibi olduğunu deyirsən. Qaralayıcı ifadələr həqiqi elm vəd edirmi?

Ey deistəm deyən kəs:

- Heç sonsuzluğu düşündünmü?

- Sonsuz cənnət və ya əzab?

- Üçgünlük dünya səfası üçün əbədi olan axirəti məhv etməyə dəyərmi?

- Dünyada ikən Allahın bizdən istədiyi ibadət və qayda-qanunların bizim lehimizə, faydamıza olduğunu bilmirsənmi?

- İnsan oxumaq üçün hər hansı bir universiteti seçərkən "Görəsən, doğru seçim etdimmi?" deyə uzun-uzadı fikirlə-

şir. Əbədi həyata dair verdiyin qərarlarında kifayət qədər düşünürsənmi? Yoxsa palaza bürünüb ellə sürünürsən?

- Zərrədən kürrəyə bu qədər əzəmətli ekoloji nizam-intizam içində, yəni heç bir varlığın başıboş buraxılmadığı bir aləmdə insanın başıboş buraxılacağınamı inanırsan?

- İstifadə və təfəkkür etməmiz üçün Allah tərəfindən xidmətimizə verilən varlıqlar, imkan və nemətlər əmrimizə verilməsəydi və hamısı özbaşına buraxılsaydı, dünyanın ekoloji nizamında yaranacaq xaosu təxmin edirsənmi? Nə sən, nə də digər varlıqlar yaşama imkanı tapa bilməzdiniz. Hər şey bir-birini yox edər, kainat xarabalığa çevrilərdi. Elə isə gözünü aç, kainatdakı bu möhtəşəm ahəngi tamaşa et.



Bir gün Rəbbinin hüzuruna gətirildikdə Onu inkar etməyinə, göndərdiyi peyğəmbərləri yalanlamağına, endirdiyi kitabları oxumamağına nə bəhanə gətirəcəksən?

- Bu ayənin nə demək istədiyini bir az düşünsən nə itirərsən?

"Yoxsa sizi əbəs yerə yaratdığımızı və (qiyamət günü dirilib haqq-hesab üçün) **hüzurumuza qaytarılmayacağınızı güman edirdiniz?".** (əl-Muminun, 115)

- Bu kainatı yaratdıqdan sonra Allahın ona müdaxilə etmədiyini kim deyə bilər? Bunun bir sübutu varmı?

- Əgər təbiətdə baş verənlərin fizika qanunlarına görə gerçəkləşdiyini fikirləşirsənsə, o qanunları kimin qoyduğunu düşünmürsənmi? Elm bütün fizika qanunlarını kəşf edə bildimi ki, kainatda baş verənlə-

rin hamısının o qaydalar çərçivəsində cərəyan etdiyini iddia edək?

- Əksinə, kvant fizikasına görə heç bir qanuna tabe olmayan, səbəb-nəticə münasibəti ilə izah edilə bilməyən nöqtələrin olduğu məlumdur. Elə isə Allahın kainata müdaxilə etmədiyi iddiası nə qədər doğrudur?

- Fizika qanunları ilə izah edilməsi imkansız olan hadisələrin gedişatında, öz həyatında və toplumların tarixində ilahi bir qədərin müdaxiləsini görmürsənmi?

- Bir gün Rəbbinin hüzuruna gətirildikdə Onu inkar etməyinə, göndərdiyi peyğəmbərləri yalanlamağına, endirdiyi kitabları oxumamağına nə bəhanə gətirəcəksən?



İstifadə və təfəkkür etməmiz üçün Allah tərəfindən xidmətimizə verilən varlıqlar, imkan və nemətlər əmrimizə verilməsəydi və hamısı özbaşına buraxılsaydı, dünyanın ekoloji nizamında yaranacaq xaosu təxmin edirsənmi?

- Vəd etdiyi sonsuz cənnəti düşündüyün zaman Allahın bu dünyadakı qısa ömründə səndən istədiyi vəzifələrin çox olduğunu necə söyləyə bilərsən?

Bütün bu suallar üzərində düşün!..

Əslində səndən cavab gözləyən suallar bunlardır. Əgər nəfsini susduraraq vicdan və qəlbinlə Haqq-Təalanın təlimatlarına boyun əysən, haqq dinin könlümüzə necə hüzur və səadət verdiyini görəcəksən. Bütün vəsvəsə buludları dağılacaq, nura qərq olacaqsan.

Hidayətə tabe olanlara salam olsun!..



(SON SÖZ)

GÜNƏŞİ PALÇIQLA SUVAMAQ OLMAZ!

Ateist və deistlərin halı günorta vaxtı günəşi itirməyə bənzəyir. Qəflətə düşən insan da okeanın ortasında sükanı qırılmış gəmiyə bənzəyir, hansı burulğanda boğulacağı məlum deyil.



(SON SÖZ)

GÜNƏŞİ PALÇIQLA SUVAMAQ OLMAZ!

Ciddi həyati əhəmiyyət daşımayan bir həqiqət belə yalnız bütün nöqtələrinə baxıldıqdan sonra doğru-dürüst bir halda görülüb anlaşılmış sayılır.

Yoxsa insanın 100 cəhəti olan bir həqiqətə sadəcə 3 nöqtədən baxıb, onu gördüyünü, bildiyini, anladığını söyləməsi və buna görə mülahizə yürütmək, hökm vermək, qərar və tərcih formalaşdırmaq yalnız o gerçəyin xaricinə çıxmaq və insanın özünü aldatmasıdır. Sonra da bu aldanışla hüzur axtarışında olmaq və bu axmaq aldanışla parlaq gələcək ümid etmək, eyni zamanda bu aldanış içərisində rahatlıq tapmasıdır.

Ateizm və deizmin bütün çıxılmaz tərəfi və saxtakarlığı məhz buradadır.

Günəş kimi parlaq həqiqətin üstünü qara kölgələrlə gizlətməyə çalışaraq onda var olan saysız-hesabsız həqiqətləri görməmək, bir bütün olan gerçəyin sadəcə insanın öz mənfəətinə yarayan tərəflərini əsas almaq zülmətə qərq olmaqdan başqa nədir?



Freyd kimi filosoflar bir bütün olan həyatın sadəcə bir cəhətini ələ alaraq tamamının ondan ibarət olduğunu iddia etmişlər ki, bir çox gerçəyi görməzdən gələrək azğın fikirlərə, iffətsizlik və əxlaqsızlıqlara da səbəb olmuşlar. Bu səbəblə onların bir nöqtəyə bağlı qalaraq ələ aldıqları hər məsələnin aqibəti məchul qalmağa məhkumdur.

Günəş kimi parlaq olan həqiqəti gizlətmək mümkündürmü?

Günəşi palçıqla suvamaq mümkündürmü?

Üstəlik ilahi həqiqətlər, hikmətlər və ayələr günəşdən daha parlaq bir gerçəyə sahibdir.

Ustaların ustası **Memar Sinan** da möhtəşəm əsəri Səlimiyyə Camesində bu hikməti bizim anlayacağımız dildə, qüvvətli şəkildə göz önünə sərmişdir. Uzaqdan cameyə doğru uzanan yolda gözünüzü nə qədər açsanız da, məscidin minarələrinin sadəcə ikisini görmək mümkündür.

Niyə?

Çünki hələ də bir istiqamətdən baxırsınız. Ancaq baxış bucağınız

bütünləşdikdə came minarələrinin iki deyil, dörd olduğunu görərsiniz.

Şeir dili ilə desək:

"Fənni çox, bənzəri yox, yol boyu hər gün der ki:

"Tək tərəfdən baxanın ağlı görür dördü iki!"

Anla, görmək belə yetməz bu həzərfən şərəfə!". (Seyri)

Bəli, bütün baxış bucaqları birləşmədiyi üçün sadəcə insanın görməsi də həqiqəti doğru bir şəkildə qavraması üçün kifayət deyil.



İslam düşüncəsi məsələləri təktərəfli dəyərləndirmir. Çünki İslam həyatın hər bir gerçəyini və bütün mərhələlərini əhatə edir. Bu səbəblə hər iki dünyada səadət və qurtuluş vəd edir.

Yəni hər hansı bir məsələni anlamaq üçün ən doğru metod ona baxış bucaqlarını azaltmaq deyil, əksinə, artırmaq yolu ilə əsl mənzərəni görüb idrak etməkdir.

Məsələn, Freyd kimi filosoflar bütün olan həyatın sadəcə bir cəhətini ələ alaraq tamamının ondan ibarət olduğunu iddia etmişlər ki, bir çox gerçəyi görməzdən gələrək azğın fikirlərə, iffətsizlik və əxlaqsızlıqlara da səbəb olmuşlar. Bu səbəblə onların bir nöqtəyə bağlı qalaraq ələ aldıqları hər məsələnin aqibəti məchul qalmağa məhkumdur.

Lakin İslam düşüncəsində belə bir xaos müşahidə edilmir. Çünki İslam həyatın hər bir gerçəyini və bütün mərhələlərini əhatə edir. Bu səbəblə hər iki dünyada səadət və qurtuluş vəd edir.

Eynilə dəvəquşu kimi insanın başını quma soxub uydurma xəyalları gerçəklərlə dəyişməsi onu heç bir həqiqətə vaqif etməz. Onu ilişib qaldığı nöqtədə pərişan edərək yalanlar vadisinə yuvarlayar.

Ona görə də gerçəkləri dəyərləndirərkən heç bir baxış bucağını əngəlləməməli və həqiqətə qara yaxmamalıyıq. Hər hansı bir məsələni bir nöqtəyə ilişib milyonlarla nöqtəni görməzlikdən gələrək dəyərləndirmək sadəcə insanın özünü kor etməsidir. Eyni zamanda ağılın da, həyatın da, bu günün və sonsuz gələcəyin də iflasa uğramasıdır. Bu iflas insanın intiharından başqa bir şey deyil. Çünki günahkar başqaları deyil, insanın özüdür.



Günəşi palçıqla suvamaq mümkündürmü?

Üstəlik ilahi həqiqətlər, hikmətlər və ayələr günəşdən daha parlaq bir gerçəyə sahibdir.

Eynilə bir tacirin bütün ehtimalları hesablamadan, ortada açıq-aydın rəqəmlər ola-ola onları görməzdən gəlməsi iflasdan başqa bir şey deyil. Bu da eynilə belədir.

Bu səbəblə ən ateist və deist insanlar belə əsla ticarətdə təkcə öz fikirləri ilə hərəkət etməzlər. Qazanmaq üçün heç bir nöqtəni qaçırmamalı olduqlarını bilərək məsələnin ciddiyyətini anlayarlar. Tibbi sahədə də eynilə belə edərlər. Məsələn, hər hansı bir xəstəni müayinə edərkən hər şeydən əvvəl mütləq o xəstəliyin səbəbini axtararlar. Çünki əks təqdirdə verdikləri qərarda yanılaraq xəstəliyin

əlacını tapmayacaqlar. Ona görə də əvvəlcə xəstəliyin səbəbini axtarırlar və onu izah etməyə çalışırlar. Sonra xəstəliyin sağalmasına müvafiq dərmanların səbəb olacağını, hətta bunun vacibliyini irəli sürürlər. Yəni mütləq surətdə səbəbə bağlanırlar, onun vacibliyini irəli sürürlər. Adi bir sızanaq üçün belə bu metoda müraciət edirlər.



Eynilə dəvəquşu kimi insanın başını quma soxub uydurma xəyalları gerçəklərlə dəyişməsi onu heç bir həqiqətə vaqif etməz. Onu ilişib qaldığı nöqtədə pərişan edərək yalanlar vadisinə yuvarlayar.

Əfsuslar olsun ki, sonra daha əzəmətli varlıq sayılan insanın və aləmlərin səbəbsiz meydana gəldiyini iddia edirlər. Bu absurd düşüncəyə nə deyəsən?!

Əslində bəşəriyyət riyazi hesablamalarla böyük tərəqqi əldə etmiş olsa da, insanların bir çoxunun qəflətə düşərək ortaya qoyduğu məntiqsiz və hesabsız tablo:

"Görəsən, bu dünyada məsuliyyətlərimdən qaça bilərəmmi?" sualının cavabsız və məchul çırpınışlarından ibarətdir.

Onlar insanın çiyinlərindəki ilahi məsuliyyətdən qaçdığı an nə hala gəldiyini, dünyanın nə hala gəldiyini düşünmürlərmi?

İnsanlıq tarixi göz qabağındadır. Hər cür misal milyon dəfə tamaşa edildi, hələ də tamaşa edilməkdədir. Bundan sonra da ediləcək. Dəyişməz həqiqət bəllidir:

İnsan oğlu nə zaman ilahi məsuliyyətləri çiynindən yerə qoyar və onlardan uzaqlaşarsa, aqibəti fəlakət və zərərlə nəticələnir. Zülm, cinayət, haqsızlıq, kütləvi qırğınlar və nələr, nələr... Hər biri bu qəflətin acı nəticəsidir. Məhz insanın bu axmaqlığı ucbatından dünyada nə hüzur qaldı, nə də şüur. Dünya təpədən-dırnağa məhvə sürüklənməkdədir. İnsanlıq pərişan vəziyyətdədir. Bütün aləm cəhənnəmə çevrilməkdə, əbədi yolçuluq ağır əzablarla sona çatmaqdadır.

Lakin insan ilahi məsuliyyətlərini layiqincə idrak etdiyi zaman və bu məsuliyyətlərinə sarıldıqda bu fani dünyanın ən şiddətli çilə və iztirabları da cənnətə çevrilər. Sonsuz yolçuluqlar cənnətdə başa çatar.



“Allah bizim cənnətə və cəhənnəmə gedəcəyimizi bilirsə, nə üçün imtahan edir?” – deyirlər. Özlərinin qiymət cədvəli və diplom adlı kiçicik bir kağız parçası vermək üçün təhsil adı altında illər uzunu imtahan və sınaqlar keçirdiklərini unudurlar.

Elə isə, bir daha qeyd etmək lazımdır ki, əsas məsələ əzəldən əbədə böyük həqiqəti bütün cəhətləri ilə görüb doğru bir şəkildə idrak edə bilməkdən ibarətdir.

Nə üçün yaradıldıq? Haradan gəlib, haraya gedirik? Enişli-yoxuşlu həyat yollarında tədarükümüz nədən ibarətdir və nə olmalıdır? Qurtuluş nə ilə mümkündür? Bu suallar üzərində baş sındırıb əbədi gerçəyi dərk edərək insanlıq qayəsinə uyğun yaşamaq lazımdır.

Allahın bizə olan lütflərini görməyib Ona nankorluq edərək zeh-

nimizdə meydana gətirilən qaranlıq nöqtələrlə, qısırlaşdırılmış və nöqsan məntiqlərlə uydurulan suallara aldanmamaq lazımdır.

Bilməliyik ki, ateist və deistlər daima əsassız mülahizələrə, yalnız təktərəfli və məntiqsiz suallara qapılırlar. Onlar sənətin sənətkar olmadan meydana çıxdığını qəbul edirlər. Ən mükəmməl məharəti belə ustasız təsəvvür edirlər. Səbəbin səbəbkarının olmadığını zənn edirlər.



Nə üçün yaradıldıq? Haradan gəlib, haraya gedirik? Enişli-yoxuşlu həyat yollarında tədarükümüz nədən ibarətdir və nə olmalıdır? Qurtuluş nə ilə mümkündür? Bu suallar üzərində baş sındırıb əbədi gerçəyi dərk edərək insanlıq qayəsinə uyğun yaşamaq lazımdır.

Şeyx Sədi həzrətləri belə buyurur:

"Ağıl sahibləri üçün hər bir yarpaq mərifətullah divanıdır. Qafillər üçünsə bütün ağaclar bir yarpaq qədər də deyil".

O qafillər ağıl biyabanında avara-avara dolaşırlar. Guya o suallara cavab verilməyəcək və onlar haqlı çıxacaq. Əslində isə onlar verilən ən tutarlı cavabı da anlamamaq və sanki özlərinə məsuliyyətsizlik haqqı verən bir inkar bataqlığında yaşamaq kimi cəhalət və fəlakət yolunu seçirlər.

Onlar sırf özlərinə yük olduğunu düşündükləri üçün insanlıq məsuliyyətləri qarşısında laqeyd qalaraq, tənbəl, hissiyyatdan uzaq, şüursuz varlıq kimi yaşaya bilmək, yəni

insan olduqları halda insanlıqdan kənar həyat sürə bilmək üçün belə edirlər. Məsələn, *"Allah bizim cənnətə və cəhənnəmə gedəcəyimizi bilirsə, nə üçün imtahan edir?"* – deyirlər.

Özlərinin qiymət cədvəli və diplom adlı kiçicik bir kağız parçası vermək üçün təhsil adı altında illər uzunu imtahan və sınaqlar keçirdiklərini unudurlar. Tənbəllərin kəsiləcəyini, çalışqanların keçəcəyini bildikləri üçün belə edirlər. Daha sonra hər hansı bir adamı işə götürəcəkləri zaman bütün bu imtahanların müvəffəqiyyət ölçüsünə görə verilən diplomunun olub-olmadığını soruşurlar. Bu kağız parçası olmadığı təqdirdə müraciət edəni qapıdan qaytarırlar.

Elə isə bütün dünyada bu nizama görə hərəkət edən bir insanın eyni şəkildə Rəbbi tərəfindən imtahan edilib bunun qarşılığında mükafatlandırılmasına etiraz etməsi öz-özünü axmaq yerinə qoymasıdır.



"Nə öncə, nə də sonra batil ona (Qurana) yol tapa bilməz. O, hikmət sahibi, şükrə (tərifə) layiq olan (bütün işləri bəyənilən Allah) tərəfindən nazil edilmişdir".

(əl-Fussilət, 42)

İnsanın özü hər kəsə imtahan və diplom sisteminə görə məhrumiyyət və ya nailiyyət yaşatdığı halda Allahın belə etməsinə hansı məntiqlə yanlış deyir?

Xülasə, atalarımız necə də gözəl deyib:

"Günəşi palçıqla suvamaq olmaz!".

Ateist və deistlərin halı günorta vaxtı günəşi itirməyə bənzəyir. Qəflətə düşən insan da okeanın ortasında sükanı qırılmış gəmiyə bənzəyir, hansı burulğanda boğulacağı məlum deyil.

Uca Rəbbimiz bizi gözlərini kor edib boş-boş baxanlardan deyil, onları Quran və iman ilə nurlandıraraq görənlərdən etsin!

Amin!..



اَفَلَا يَتَدَبَّرُونَ الْقُرْاٰنَ
اَمْ عَلٰى قُلُوبٍ اَقْفَالُهَا

“Onlar Quran barəsində düşünməzlərmi? Yoxsa ürəklərinə kilid vurulmuşdur?”. (Muhəmməd, 24)



Ağlı kəsməyənlər üçün məntiq və təfəkkür dolu bir cavab:

“Məgər insan onu nütfədən yaratdığımızı görmədimi ki, birdən-birə (Rəbbinə) **açıq bir düşmən kəsilərək, öz yaradılışını unudub: “Çürümüş sümükləri kim dirildə bilər?!” – deyə, hələ Bizə bir məsəl də çəkdi.** (Ya Peyğəmbər!) **De: “Onları ilk dəfə yoxdan yaradan dirildəcəkdir. O, hər bir məxluqu** (yaradılışından əvvəl də, sonra da) **çox gözəl tanıyandır!”.** (Yasin, 77-79)

İnkar edənlərə ilahi xəbərdarlıq:

“Məgər o tökülən bir qətrə nütfə deyildimi?! Sonra laxtalanmış qan oldu və (Allah) **onu yaradıb surət verdi** (insan şəklinə saldı)**. Sonra da ondan biri kişi, biri qadın olmaqla iki cift** (həmtay) **yaratdı. Elə isə O Allah ölüləri diriltməyə qadir deyildirmi?!”.** (əl-Qiyamə, 37-40)



Allah-Təala ilahi qüdrətini sərgiləyərək belə buyurur:

“Məgər insan elə güman edir ki, (qiyamət günü) **onun sümüklərini bir yerə yığa bilməyəcəyik?! Bəli, Biz onun barmaq uclarını da düzəltməyə qadirik!”.** (əl-Qiyamə, 3-4)

Barmaq izimiz də başqa bir möcüzədir. Allah-Təala 1400 il əvvəl bu möcüzəvi sənətindən xəbər verir. Yəni Qərb dünyasının yeni-yeni kəşf edərək daktiloskopiya adı verdiyi bu elm haqqında 1400 il əvvəl Allah tərəfindən məlumat verilmişdir. Bu, Qurani-Kərimin saysız-hesabsız möcüzələrindən sadəcə biridir!



Mündəricat

TƏQLİD və HƏQİQƏT QARŞISINDA.....4

ÖN SÖZ.....7



“(Ey İnsanlar!) Məgər Allahın göylərdə və yerdə olanları (günəşi, ayı, ulduzları və buludları; meyvələri, bitkiləri, dənizləri, çayları və gölləri) **sizə ram etdiyini** (sizin istifadənizə verdiyini)**, aşkar** (görmə, eşitmə, sağlamlıq) **və gizli** (əql, şüur, fəhm, elm və i.a.) **nemətləri sizə bolluca ehsan etdiyini görmürsünüzmü?..”.** (Loğman, 20)

BİRİNCİ SƏBƏB.....10
İKİNCİ SƏBƏB.....15
ÜÇÜNCÜ SƏBƏB.....18

İMAN, ƏN BÖYÜK NEMƏT.....25



Allah (Ona) **iman gətirənlərin dostudur, onları zülmətdən çıxarıb işığa tərəf yönəldər. Kafirlərin dostu isə Taqutdur** (şeytanlardır)**. Onları** (kafirləri) **nurdan ayırıb zülmətə salarlar. Onlar cəhənnəmlikdirlər və orada həmişəlik qalacaqlar!** (əl-Bəqərə, 257)

İMAN, ƏN BÖYÜK NEMƏT.....27
MÜSƏLMANLARIN ELMƏ XİDMƏTLƏRİ.....35
DEİZM.....40
AHİRƏT VAR!.....44
ƏHKƏMSIZ DİN OLMAZ!.....47
ÜÇ FİTNƏ.....61

İMAN ETMƏMƏK MÜMKÜNDÜRMÜ?!. 67



Məgər onlar (peyğəmbərləri yalançı hesab edən kafirlər) **yer üzündə gəzib dolaşmırlarmı ki, düşünən qəlbləri** (bəsirət gözləri), **eşidən qulaqları olsun? Həqiqətən, gözlər kor olmaz, lakin sinələrindəki ürəklər** (qəlb gözü) **kor olar.** (əl-Həcc, 46)

İMAN ETMƏMƏK MÜMKÜNDÜRMÜ?!.... 69
MÜKƏMMƏL VARLIQ..... 73

VƏSVƏSƏ MƏNGƏNƏSİNDƏ VERİLƏN SUALLAR 83



İnsanlar içində (Əbu Cəhl kimi) **elə də vardır ki, heç bir şey bilmədən, haqq yolu göstərən heç bir rəhbəri** (yaxud tutarlı dəlili) **və nurani** (səmadan endirilib hökmünü açıq bildirən) **kitabı olmadan Allah barəsində mübahisə edər.**

O, boynunu (təkəbbürlə sağa-sola) **əyərək** (insanları) **Allahın yolundan çıxarmaq məqsədilə bunu edər. Onu dünyada rüsvayçılıq gözləyir, qiyamət günü isə ona cəhənnəm odunun əzabını daddıracağıq!** (əl-Həcc, 8-9)

VƏSVƏSƏ MƏNGƏNƏSİNDƏ VERİLƏN SUALLAR.....85
AXİRƏTİN QAPISI-ÖLÜM 110
BƏRABƏRLİK BAŞQA, ƏDALƏT BAŞQA..113
OKEANI STƏKANA SIĞDIRMAQ MÜMKÜNDÜRMÜ 117
KƏBƏ, BİR İSTİQAMƏT NÖQTƏSİ 122
FİZİKA QANUNLARI ÖZ YARADICISINI MƏHDUDLAŞDIRA BİLƏRMİ?.....125
QADININ ŞƏRƏFİ İSLAMDADIR! 131

MÜTLƏQ HƏQİQƏT və HAQQ DİN 137



Kim islamdan başqa bir din ardınca gedərsə, (o din) **heç vaxt ondan qəbul olunmaz və o şəxs axirətdə zərər çəkənlərdən olar!** (Ali-İmran, 85)

MÜTLƏQ HƏQİQƏT və HAQQ DİN 139
DİGƏR DİNLƏR və İSLAM..... 141
ASAN və FİTRƏTƏ UYĞUN ŞƏRİƏT ... 153
DİNLƏR və MÜHARİBƏLƏR 155
MÜTLƏQ HƏQİQƏT YOXDUR!..... 161

TƏBLİĞ ÜSLUBU 167



Onlar elə şəxslərdir ki, Allah onların ürəklərindəkini (yaxşı) **bilir.** (Ya Rəsulum!) **Sən onlardan üz çevir, onlara öyüd ver və onlara özləri haqqında** قَوْلًا بَلِيغًا **/ təsirli söz de!** (ən-Nisa, 63)

Onunla yumşaq danışın. Bəlkə, قَوْلًا لَيِّنًا **/ öyüd-nəsihət qəbul etsin, yaxud** (Rəbbindən) **qorxsun!"** (Taha, 44)

TƏBLİĞ ÜSLUBU..... 169 CAVAB GÖZLƏYƏN SUALLAR 173

(SON SÖZ) GÜNEŞİ PALÇIQLA SUVAMAQ OLMAZ! 185

Qurani-Kərim;
insanı daim təfəkkür etməyə idrak etməyə, ilahi əzəməti və aqibəti düşünməyə dəvət edir:



اَفَلَا تَعْقِلُونَ "Dərk etmirsinizmi?"

اَفَلَا تَذَكَّرُونَ "Heç düşünüb ibrət götürmürsünüz"

اَفَلَا تُبْصِرُونَ "Baxıb görmürsünüzmü?"

اَفَلَا تَتَفَكَّرُونَ "Fikirləşmirsinizmi?"

(SON SÖZ) GÜNƏŞİ PALÇIQLA SUVAMAQ OLMAZ! 187